39.Aida Quliyeva, Məmmədxan Soltanov. Ədəbiyyat. Test tapşırıqları (VII sinif üçün). Bakı, 2009.

40. Aida Quliyeva, Məmmədxan Soltanov. Ədəbiyyatdan test tapşırıqları (IX sinif üçün). Bakı, 2009.

41. Asif Hacıyev. Linqvistik və metodik araşdırmalar. Bakı, 2009.

42. Fikrət Xalıqov. Azərbaycan onomalogiyası. Bakı, 2009.

43. Səbinə Alməmmədova. Bəxtiyar Vahabzadə poeziyasının dili. Bakı, 2010.

44. Məmmədəli Qıpçaq. "Dədə Qorqud kitabı"nın dilində fitonimlər. Bakı, 2012.

45. Şahismayıl Mehdiyev. Tədris prosesində dilçilik terminlərinin izahlı lüğəti. Bakı, 2012.

46. Qətibə Rüstəmova. Köməkçi nitq hissələrinin tədrisi. Bakı, 2012.

47. Ramazan Qafarlı. Uşaq folklorunun janr sistemi və poetik strukturu. Bakı, 2012.

48. Sevinc Rəsulova. Ədəbiyyat dərslərində ifadəli oxu. Bakı, 2012.

49. Məmmədəli Qıpçaq. "Dədə Qorqud kitabı"nın dilində fitonimlər. Bakı, 2012.

50. Məmmədəli Qıpçaq. "Kitabi-Dədə Qorqud"un leksikası. Bakı, 2012.

51. Məmmədxan Soltanov. Testlər. Azərbaycan dili. Leksika. Bakı, 2013.

52. Ramazan Qafarlı. Uşaq folklorunun janr sistemi və poetikası. Bakı, 2013.

53. Aydın Paşayev. "Xəmsə"də işlənən xüsusi adların izahlı lüğəti. Bakı, 2013.

54. Göycə nisgili, Şorca xiffəti. Bakı, 2014.

55. Həcər Hüseynova. Nitq inkişafına dair praktik məşğələlər. Bakı, 2014.

56. Asif Hacıyev. "Dədə Qorqud kitabı"nın şərhli oxunuşu. I, Bakı, 2014.

57. Məmmədxan Soltanov. Testlər. Azərbaycan dili. Fonetika, leksika və söz yaradıcılığı. Bakı, 2014.

58. Şəlalə Nəbiyeva. Ana dili dərslərinin inkişaf tərbiyəsi. Bakı, 2014.

59. Aydın Paşayev. Azərbaycan təxəllüslərinin izahlı sözlüyü. Bakı, 2014.

60. Nigar Həsənova. Yevlax şivələrinin leksikası. Bakı, 2015.

61. Aydın Paşayev. Azərbaycan antroponimikası. Bakı, 2015.

62. Bir alim ömrünün hekayəti (tərtib edən: Şəfa Əhmədova). Bakı, 2015.

63. Pərişan Həsənova. Kitabi-Dədə Qorqud dastanında mənəvi tərbiyə məsələləri. Bakı, 2015.

64. Allahverdi Hacıyev, Tamam Mehrabova. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2015.

65. Ramazan Qafarlı. Mifologiya və mifogenez. Bakı, 2015.

66. Nadir Abdullayev. Nitq mədəniyyətinin əsasları. Bakı, 2015.

67. Şəbnəm Həsənli-Qəribova. XI-XII əsrlər türk dillərinin etnoqrafik leksikası. Bakı, 2015.

68. Arif Kazımov. Ümumi təhsil kurikulumunun əsasları (mühazirə mətnləri). Bakı, 2015.

69. Aida Quliyeva, Məmmədxan Soltanov. Ədəbiyyat test tapşırıqları. V sinif. Bakı, 2015.

70. Aida Quliyeva, Məmmədxan Soltanov. Ədəbiyyat test tapşırıqları. VI sinif. Bakı, 2015.

71. Aida Quliyeva, Məmmədxan Soltanov. Məktəblinin izahlı lüğəti. Bakı, 2015.

72. Aida Quliyeva, Məmmədxan Soltanov. Ədəbiyyat test tapşırıqları. VII sinif. Bakı, 2015.

73. Aida Quliyeva, Məmmədxan Soltanov. Ədəbiyyat test tapşırıqları. VIII sinif. Bakı, 2015.

74. İradə Kərimova. Azərbaycan onomalogiyasının əsasları. Bakı, 2016.

75. Fərrux Rüstəmov. Azərbaycan pedaqogikaşünaslığı.

76. Arif Kazımov. Tapmacaların sirri. Bakı, 2017.

77. Sevinc Sadıqova. Müasir Azərbaycan dili: Onomalogiya məsələləri. Bakı, 2017.

79. Dədə Qorqud kitabı. Vatikan nüsxəsi (Abidəni transliterasiya edən, ön söz, qeydlər və şərhlərin müəllifi filologiya üzrə elmlər doktoru, professor). Bakı, 2018.

80. Mələk Məmmədova. Lüğət tərkibində leksik-semantik dəyişmələr. Bakı, 2018.

81. Minaxanım Təkəli Nuriyeva. Mərkəzi Rusiyanın Türk Coğrafiyası. Bakı, 2018.

82. Kamil Bəşirov. Türk dillərinin müqayisəsi: oğuz qrupu türk dillərində morfoloji kateqoriyalar. Bakı, 2018.

## Elmi məsləhətçisi olduğu kitablar

1. M.Kaşğarinin "Divanü lüğat-it-türk" əsərinin tərcüməsi (tərcümə edəni Ramiz Əskər). Dörd cilddə. Bakı, Ozan, 2006.
2. Mətləb Nağı. Yaşamaq istəyirdim… Bakı, 2007.
3. Əhəd yaşayır. Bakı, 2008.
4. Sənətin Firuzəsi. Bakı, 2008.
5. Afad Qurbanov. Bakı, 2010.
6. Zabit Məmmədov. Bakı, 2012.
7. İsmayıl xatirələrdə. Bakı, 2013.

## Redaktoru olduğu kitablar

1. Afad Qurbanov-70. Bakı, Elm, 1999, 6,84 ç\v.
2. C.Vəliyev. Dialoji və monoloji nitqin sadə cümlələri. Bakı, Elm, 1999, 7 ç/v.

3. Bayram Əliyev. Bir güldən üç ləçək (şeirlər). Bakı, 1999, 4 ç/v.

4. Vilayət Əliyev. Azərbaycan tononimiyası. Bakı, 1999, 17 ç/v.

5. Nadir Abdullayev, Zabit Məmmədov. Orfoqrafiya-orfoepiya lüğəti. Bakı, 2003, 11 ç/v.

6. Afad Qurbanov. Azərbaycan onomalogiyasının əsasları, II cild. Bakı, 2004.

7. İsmail Genç, Yana Genç. Praktik rusca konuşma klavuzu və sözlük. Bakü, Mütercim, 2005.

8. Afad Qurbanov. Qərbi Azərbaycanın Cücükənd şivəsi. Bakı, 2009.

9. Afad Qurbanov. Azərbaycan onomalogiyasının əsasları (proqram). Bakı, 2008.

10. Nadir Abdullayev, Zabit Məmmədov. Nitq mədəniyyətinin əsasları. Bakı, 2008.

11. Zabit Məmmədov. Klassik aşıq poeziyasının fonetik və qrammatik xüsusiyyətləri. Bakı, 2008.

12. Afad Qurbanov. Bakı, 2010.

13. Firidun Şamiloğlu. Bu yerlərin öz Osmanı burdadı. Bakı, 2011.

14. Kamil Bəşirov. Azərbaycan dilində sinonim qoşa sözlərin lüğəti. Bakı, 2012.

15. Aida Quliyeva. İnşa yazılar. Bakı, 2012.

16. Məmmədxan Soltanov, Arif Kazımov. İmla mətnləri. Bakı, 2012.

17. Arif Kazımov. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2013.

18. Məmmədxan Soltanov. Testlər. Azərbaycan dili. Leksika. Bakı, 2013.

19. Nadir Abdullayev. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013.

20. Sevinc Rəsulova. Ədəbiyyat dərslərində ifadəli oxu. Bakı, 2012.

21. Aida Quliyeva, Məmmədxan Soltanov. Azərbaycan dili. Bakı, 2012.

22. Kamil Bəşirov. Azərbaycan dilində sinonim qoşa sözlərin lüğəti. Bakı, 2012.

23. Tofiq Müzəffəroğlu. Tabeli mürəkkəb cümlənin təkamülü. Bakı, 2012.

24. Hacalı Nəcəfoğlu. Azərbaycanda və Türkiyədə türkün sözü. Bakı, 2012.

25. Nadir Abdullayev. Azərbaycan dilinin müxtəsər orfoepiya lüğəti. Bakı, 2013.

26. Fəridə Səfərəliyeva (Əliyeva). Uşaq folkloru və şagirdlərin bədii təfəkkürünün inkişaf etdirilməsi. Bakı, 2014.

27. Allahverdi Hacıyev,Tamam Hacıyeva. Müasir Azərbaycan dili.» Bakı, 2014.

28. Təyyar Salamoğlu. İsmayıl Şıxlının bədii nəsri. Bakı, 2014.

29. H.Balıyev, A.Balıyev. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014.

30. Şəlalə Nəbiyeva. Ana dili dərslərində intellekt tərbiyəsi. Bakı, 2014.

31. Məmmədxan Soltanov. Testlər. Azərbaycan dili. Morfologiya. Bakı, 2015.

32. Şəlalə Nəbiyeva, Gültəkin Abdullayeva, Azadə Kərimova. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası fənnindən mühazirələr. Bakı, 2015.

33. Kamil Bəşirov. M.Füzulinin "Leyli və Məcnun" əsərində arxaizmlər. Bakı, 2015.

34. Rəhilə Hümmətova. Aşıq M.Azaflının poetikası. Bakı, 2015.

35. Əzizə Mikayılova. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2015.

36. Aida Quliyeva, Məmmədxan Soltanov. İfadə mətnləri. Bakı, 2015.

37. Misir Səfərov. Azərbaycan dili məsələləri. Bakı, 2016.

38. Təyyar Salamoğlu. Azərbaycan ədəbiyyatı: mübahisələr, həqiqətlər. Bakı, 2016.

39. İlham Abbas. Himnimizin müəllifi. Bakı, 2015.

40. İlham Abbas. İşıq. Bakı, 2015.

41. İlham Abbas. Sənət duyğuları. Bakı, 2015.

42. İlham Abbas. Əbədi vətən. Bakı, 2015.

43. Rəhilə Hümmətova. Dil haqqında düşüncələr. Bakı, 2016.

44. Tamam Mehrabova. Linqvistik təhlilin elmi-metodik əsasları. Bakı, 2017.

44. Rəhilə Hümmətova. Linqvistik təhlilin elmi-metodik əsasları. Bakı, 2017.

45. Atəş Abdullayev, Şəlalə Nəbiyeva, Gültəkin Abdullayeva. Ali təhsilin bakalavriat səviyyəsində müəllim hazırlığı üzrə "Ana dilinin tədrisi metodikası" fənninin kurikulumu. Bakı, 2017.

46. Kitabi-Dədə Qorqud (çapa hazırlayanı və müqəddimənin müəllifi akademik İsa Həbibbəyli). Bakı, TEAG Press Nəşriyyat evi, T.C., İstanbul, 2016, s. 404

47. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı, 2017, s. 209

48. Məhərrəm Hüseynov. Linqvistik təhlilin elmi-metodik əsasları. Bakı, 2017.

49. Rəhilə Hümmətova. Linqvistik təhlilin elmi-metodi əsasları. Bakı, 2017.

50. Atəş Abdullayev, Şəlalə Nəbiyeva, Gültəkin Abdullayeva. Ali təhsilin bakalavriat səviyyəsində müəllim hazırlığı üzrə "Ana dilinin tədrisi metodikası" fənninin kurikulumu (Metodik vəsait). Bakı, 2017.

51. Məmmədxan Soltanov. Aşıq yaradıcılığında işlənən onomastik vahidlər bədii-üslubi vasitə kimi. Bakı, 2018.

## Opponenti olduğu dissertasiyalar

1. İmanova Gülşən Araz qızı. XVIII-XIX əsrlərdə bədii ədəbiyyatda işlənən Azərbaycan toponimik vahidlərin tarixi-linqvistik təhlili». Namizədlik dissertasiyası. Bakı, 2001.

2. Məhərrəm Əvəz oğlu Məmmədov. Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları. Doktorluq dissertasiyası. Bakı, 2006.

3. Afaq Cəbrayıl qızı Məmmədova. "Dədə Qorqud kitabı"nın leksikası. Namizədlik dissertasiyası. Bakı, 2007.

4. Sədaqət Mirzəağa qızı Hüseynova. İbtidai siniflərdə sintaksis elementlərinin təlimi prosesində nitq inkişafı üzrə işin sistemi. Namizədlik dissertasiyası. Bakı, 2008.

5. Səbinə Məmməd qızı Alməmmədova. Bəxtiyar Vahabzadə poeziyasının dili. Namizədlik dissertasiyası. Bakı, 2008.

6. Aydın Məmməd oğlu Paşayev. Azərbaycan antroponimiyasının leksik problemləri. Doktorluq dissertasiyası. Bakı, 2010, № 57.

7. Yadigar Vəli oğlu Əliyev. Qədim türk ədəbi dilindən orta əsrlər türk ədəbi dilinə (türki) keçid dövrü. Doktorluq dissertasiyası. Bakı, 2011.

8. Pərişan Məhərrəm qızı Həsənova. "Kitabi-Dədə Qorqud" dastanında mənəvi tərbiyə məsələləri. Bakı, 2012– Pedaqogika üzrə fəlsəfə doktoru.

9. Sevil Hümmətova. V-IX siniflər üzrə Azərbaycan dili dərslərində şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi metodikası (rus dilindən alınma sözlər əsasında) Pedaqogika üzrə fəlsəfə doktoru.Bakı, 2012.

10. Leyla Mirhəsən qızı Cəfərova. Bədii mətnin struktur-semantik tərkibində sabit söz birləşmələrinin rolu. Elmlər doktoru dissertasiyası. Bakı, 2013.

11. Elnarə İlham qızı Tağıyeva. Müasir Azərbaycan dilində «bir» sayının söz yaradıcılığında rolu. Fəlsəfə doktoru dissertasiyası. Bakı. 2014.

12. Rəhiməxanım Rzabala qızı Məmmədzadə. İbtidai siniflərdə Azərbaycan dili üzrə qrammatik anlayışların mənimsənilməsi şagirdlərin idrak fəaliyyətinin mühüm vasitəsi kimi. Bakı, 2014.

13. Həsənbala Məhəmməd oğlu Məmmədov. Azərbaycan dili dərslərində informasiyaların sıxlaşdırılması təlimin səmərəliliyinin əsas şərti kimi. Pedaqogika üzrə fəlsəfə doktoru, Bakı, 2014.

14. Şəbnəm Rasim qızı Həsənli-Qəribova. XI-XII əsrlər türk dillərinin etnoqrafik leksikası. Filologiya üzrə fəlsəfə doktoru. Bakı, 2015.

15. Xəyalə Milələm qızı Vəliyeva. N.Kamal əsərlərinin leksik-semantik təhlili. Bakı, 2015.

16. Mehriban Surxay qızı Abdullayeva. Tərcümə qeyri-Azərbaycan auditoriyasında Azərbaycan dilinin təlimi metodikasının komponenti kimi. Bakı, 2015.

17. Dürdanə Əsgərova. Ana dili dərslərində bədii materialların mənimsədilməsinin vasitə və yolları. Bakı, 2015.

18. Aynur Sabir qızı Məmmədova. "Kitabi-Dədə Qorqud" motivli çağdaş bədii ədəbiyyatın dili və üslubu. Bakı, 2016.

19. Aysel Nizami qızı Qəribli. XIXəsr Azərbaycan təriqət şeirinin lüğət tərkibi. Bakı, 2017.

20. Aynur Aydın qızı Fərəcova. "Kitabi-Dədə Qorqud"da qəhrəman və cəmiyyət problemi. Bakı, 2017.

21. Sevinc Baris qızı Qəmbərova. Azərbaycan dilinin qərb ləhcələri və türk dilinin Qars şivələrinin leksikasının müqayisəli-linqvistik təhlili. Bakı, 2017.

22. Aygün Akif qızı Məhərrəmova. "Koroğlu" dastanının üslubi-poetik sintaksisi. Bakı, 2017.

23. Qəhrəmanlı Yeganə Yusif qızı.Fərhad Ağazadənin dilçilik görüşləri. Bakı, 2017.

## Rəhbərlik etdiyi dissertant və doktorantlar

1. Məmmədova Mələk Hidayət qızı. Müasir Azərbaycan dilinin lüğət tərkibində leksik-semantik dəyişmələr (Arxaizmlər əsasında). Bakı, 2003.

2. Yunusova Şölə Əsəd qızı. Azərbaycan dili dialekt və şivələrində arxaizmlər. Bakı, 2006.

3. Həmidova Xəyalə Vaqif qızı. "Azərbaycan və ingilis dillərində təktərkibli cümlələrin struktur-semantik xüsusiyyətləri". Bakı, 2018.

## Redaksiya heyətinin üzvü

1. Filoloji araşdırmalar. Bakı, 1999.
2. Azərbaycan onomastikası problemləri. VIII, Bakı, 2000.
3. Onomastika (elmi-onomastik jurnal). Bakı, 2000-2007.
4. Onomastika (elmi-onomastik jurnal). Bakı, 2000-2007. Redaktor müavini.
5. Türkologiya. Dil tarixi üzrə şöbə redaktoru. Bakı, 2014-2016.
6. Filologiya məsələləri. Bakı, 2015-ci ildən...
7. Pedaqoji Universitet xəbərləri. Bakı, 2008-ci ildən…
8. Azərbaycan Terminologiya komissiyasının üzvü. 2015-2016. (Azərbaycan Milli elmlər Akademiyasının qərarı. 12 mart 2015-ci il, əmr № 8/3).

## Müdafiə və ekspert şuralarında təmsil olunması

1. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının filologiya elmləri üzrə ekspert Şurasının üzvü. 2003-2005-ci illər.

2. Pedaqoji elmlər üzrə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda fəaliyyət göstərən №02.191 dissertasiya şurasının üzvü. 2007-2009-cu illər.

3. Pedaqoji elmlər üzrə Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən №02.191 dissertasiya Şurasının üzvü. 2011-2018-ci illər.

# ƏZİZXAN TANRIVERDİ HAQQINDA GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN SÖYLƏDİKLƏRİNDƏN

Ayrıca, çevirmen Dr. Ramiz Asker`in, tercümenin bilimsel editörleri Prof. Dr. Tevfik Hacıyev`in və Prof. Dr. Kemal Abdulla`nın, danışmanlar Prof. Dr. Hüseyin İsmayılov`un, Prof. Dr.Mehmetali Kıpçık`ın və Prof. Dr. Azizhan Tanrıverdi`nin Haydar Aliyev Fondu`nun ilk ödüllerine mahzar görülmesi çok yerinde bir adım olurdu.

Zira bu tercüme, Divanü Luğat-it-Türk`ü çox iyi bilen ve seven büyük devlet ve siyaset adamı, Türk dilinin ve medeniyyetinin havarisi, çağdaş Azerbaycan devletinin mimarı, rahmetli Cumhurbaşkanı, milli lider, dostum ve kardeşim Sayın Haydar Aliyev`in unutulmaz ve parlak hatırasına ithaf edilmesini önemsiyorum.

***Süleyman Demirel***
***Türkiyə Respublikasının sabiq prezidenti***

…работа А.В.Танрывердиева представляет значительный вклад в азербайджанскую ономастику, будучи объемным и фундаментальным лингвистическим исследованием.

***Э.Р.Тенишев***
***чл-корр. РАН***

Anarın öz əsərlərində sadə insanların taleyini, həyat yolunu qələmə alması, onların cəmiyyətlə münasibətdə keçirdikləri psixoloji halların bədii təsviri üzərində Əzizxan Tanrıverdiyev öz orijinal mühakimələrini yürütmüşdür.

***İsmayıl Şıxlı***
***xalq yazıçısı***

…Azərbaycan onomalogiyası tarixində Əzizxan Tanrıverdinin «Kitabi-Dədə Qorqud»da şəxs adları» monoqrafiyası öz layiqli yerini tuta bilmişdir.

1999-cu ildə "Kitabi-Dədə Qorqud"da şəxs adları" kitabı nəşr olunmuşdur(Əzizxan Tanrıverdinin monoqrafiyası nəzərdə tutulur – İ.A.). Əzizxan Tanrıverdi bu əsərində "Kitabi-Dədə Qorqud" dastanındakı antroponimlərdən bəhs etmiş, məsələnin tədqiqi tarixinə toxunmuş, dastandakı antroponimik vahidlərin mənşəyini elmi etimologiyanın müasir prinsipləri əsasında obyektiv şəkildə şərh etmişdir. Azərbaycan onomalogiyası tarixində bu monoqrafiya öz layiqli yerini tuta bilmişdir. Ümumiyyətlə, Əzizxan Tanrıverdi digər əsərlərində də tarixi onomalogiyaya dair elmi-prinsipial fikir və mülahizələrini irəli sürə bilmişdir...

***Afad Qurbanov***
***AMEA-nın üzvü,***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Əzizxan Tanrıverdi "Dədə Qorqud"u yaxşı tədqiq eləyib, onomastikanı sistemli şəkildə araşdırıb, Azərbaycan dilinin tarixi qrammatikası ilə bağlı dərslik yazıb.

Əzizxan Tanrıverdinin «Türk mənşəli Azərbaycan antroponimlərinin tarixi-linqvistik tədqiqi» adlı doktorluq dissertasiyası üçün aparıcı müəssisə kimi Rusiya Elmlər Akademiyasının müəyyənləşdirilməsi və bu dissertasiyanın həmin akademiyanın E.R.Tenişev, V.M.Solnsev kimi nüfuzlu akademikləri tərəfindən yüksək dəyərləndirilməsi Azərbaycan dilçiliyinin uğurudur.

...Əzizxan Tanrıverdinin "Kitabi-Dədə Qorqud"da şəxs adları", "Kitabi-Dədə Qorqud"un obrazlı dili" əsərləri yeni tədqiqatlar kimi qorqudşünaslığımızı zənginləşdirdi.

***Tofiq Hacıyev***
***AMEA-nın həqiqi üzvü,***
***filologiya üzrə elmlər***
***doktoru, professor***

Əzizxan Tanrıverdi "Dədə Qorqud"a "abidə" ucaldan, ruhən ona bağlı olan bir alimdir.

***Zəlimxan Yaqub***
***Xalq şairi***

Əzizxan Tanrıverdi "Dədə Qorqud"u yaxşı tədqiq eləyib, onomastikanı sistemli şəkildə araşdırıb, Azərbaycan dilinin tarixi qrammatikası ilə bağlı dərslik yazıb.

…Amma İsmayıl Şıxlışünaslıqda Əzizxan Tanrıverdinin bu əsəri yadda qalan bir əsər olacaq. Bu kitab bütün tərəfləri ilə dil poetikası baxımından ensiklopedik bir əsər sayıla bilər.

***Nizami Cəfərov***
***akademik***

Əzizxan Tanrıverdinin «"Dədə Qorqud" kitabının obrazlar aləmi» monoqrafiyası qorqudşünaslığa ən gözəl hədiyyədir...

***Muxtar Kazımov***
***akademik***

Əzizxan Tanrıverdi onomastikamız, xüsusən də antroponimikamız üçün çox gərəkli və qiymətli bir əsər yazmışdır.

***Vaqif Aslanov***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Əzizxan Tanrıverdi türklərin və türk sözünün yayılma arealını haqlı olaraq digər xalqların tarixi ilə, o cümlədən slavyan xalqları ilə əlaqədə öyrənir ...ümumtürkoloji inteqrasiya prinsiplərindən çıxış edərək türk-qıpçaq (poloves) dilinin ortaq türklük, o cümlədən Azərbaycan dəyərlərini müəyyənləşdirir.

Əzizxan Tanrıverdinin "Kitabi-Dədə Qorqud" və qərb ləhcəsi" kitabı qorqudşünaslıqda yeni sözdür, yeni cığırdır. O, bu kitabında təkcə bir dilçi kimi yox, həm də etnoloq, etnoqraf, coğrafiyaçı kimi çıxış edir.

***Şamil Vəliyev***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Əzizxan Tanrıverdi ədəbi prosesə Azərbaycan dilinin bədiilik imkanlarının tədqiqi işığında nüfuz edir…

Bir alim kimi Əzizxan Tanrıverdinin ən yaxşı və diqqəti cəlb edən cəhəti onun hədsiz zəhmətkeşliyi, aramsız çalışmaq keyfiyyətidir. Son onillikdə o, daha çox "Dədə Qorqud kitabı" üzərində araşdırmalar aparır. Abidə ilə bağlı mənbələrə yetərincə bələd olan və "Kitab"ı incəliklərinə qədər mənimsəyən alim yeni-yeni tədqiqatları ilə Dədəqorqudşünaslığı zənginləşdirir. Onun bu sahə ilə bağlı monoqrafik tədqiqatları "Kitabi-Dədə Qorqud"un öyrənilməmiş problemlərinə işıq salmaq baxımdan təqdirəlayiqdir.

***Təyyar Salamoğlu***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Əzizxan Tanrıverdinin tədqiqat işi təkcə dilimizdə şəxs adlarının formalaşması tarixini öyrənmək baxımından deyil, ümumiyyətlə, dilimizin tarixi leksikologiyası, fonetikası və morfologiyası ilə əlaqədar bir sıra məsələlərin aydınlaşdırılması baxımından böyük əhəmiyyətə malikdir.

***Məmməd Qasımov***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Əzizxan Tanrıverdinin «Türk mənşəli Azərbaycan antroponimlərinin tarixi-linqvistik tədqiqi» adlı doktorluq dissertasiyası elmi-nəzəri əhəmiyyəti və aktuallığı ilə fərqlənir…

Əzizxan Tanrıverdinin "Kitabi-Dədə Qorqud" və qərb ləhcəsi" monoqrafiyasında fonetik, leksik və morfoloji ar-

xaizmlər tarixi-linqvistik prizmadan şərh edilir, bu vahidlərin Azərbaycan dilinin qərb şivələrində mühafizə olunması faktlarla əsaslandırılır.

***Mədəd Çobanov***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

"Kitabi-Dədə Qorqud"un söz dünyası" monoqrafiyasını ancaq professor Əzizxan Tanrıverdi, "Dastan"ın mahiyyətinə, qədim türk ruhuna enə bilən alim yaza bilərdi...

***Abbas Hacıyev***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Azərbaycan dilinin tarixi abidəsi kimi "Kitabi-Dədə Qorqud"un dili haqqında xeyli tədqiqat əsərləri yazılmışdır. Belə tədqiqatlar xeyli əvvəldən başlasa da, bu tədqiqat Azərbaycan Respublikasının Prezidenti hörmətli Heydər Əliyevin "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin qeyd edilməsi haqqındakı sərəncamından sonra kütləvi hal almış və dərinləşmişdir... "Dədə Qorqud" kitabı Azərbaycan dilinin qədim abidəsi olmaqla, ətraflı araşdırılmışdır. Professor Əzizxan Tanrıverdi "Kitabi-Dədə Qorqud"da şəxs adları" kitabında (1999) bu problemi öyrənən onlarla alimə müraciət edir, onların fikirlərinə münasibətini bildirir, öz fikirlərini bildirir, dastandakı şəxs adlarının etimologiyasını öyrənir və bu adların siyahısını təqdim edir...

***Yusif Seyidov***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

"Dədə Qorqud"da kişi, eləcə də qadın adlarının yaranma sisteminə nəzər salsaq, orada bir qanunauyğunluq görmək mümkündür. Əzizxan Tanrıverdi "Kitabi-Dədə Qorqud"da şəxs adları" monoqrafiyasında ayrı-ayrı şəxs adlarından çox geniş, ətraflı danışmışdır. Bizə çox maraqlı olduğu üçün onun doğru izah etdiyi bir adı vermək istərdik...

***Nizami Xudiyev***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Professor Əzizxan Tanrıverdinin "Kitabi-Dədə Qorqud"un söz dünyası" əsəri, əslində, "Dədə Qorqud" ensiklopediyasıdır.

***Həsən Balıyev***
***professor***

Əzizxan Tanrıverdinin "Kitabi-Dədə Qorqud"un söz dünyası" monoqrafiyası qorqudşünaslıqda özünəməxsusluğu ilə seçilir.

***Buludxan Xəlilov***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Professor Əzizxan Tanrıverdinin "Kitabi-Dədə Qorqud" dastanının dili haqda yazdıqları öz məzmunu, elmiliyi, ifadə tərzi, aydınlığı və digər cəhətlərinə görə ona qədər bu mövzuda yazılanlardan seçilir, məhz bu məziyyətlərinə görə maraqla oxunur.

***Nadir Abdullayev***
***professor***

Türkologiyada tarixi dialektologiya məsələləri yox dərəcəsindədir. Bu mənada prof.Əzizxan Tanrıverdinin "Kitabi-Dədə Qorqud" və qərb ləhcəsi" monoqrafiyası tarixi dialektologiyanın təməl sütunlarından biri kimi dəyərləndirilə bilər.

***Rəhilə Məhərrəmova***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Əzizxan Tanrıverdi "Kitab"dakı hər bir işarəni, hər bir kodu sistemli şəkildə tədqiq edən ciddi alimlərdəndir.

***Hüseyn İsmayılov***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Qorqudşünas Əzizxan Tanrıverdi elə təd-qiqatçılardandır ki, "Kitab"ı nöqtə-vergülünədək öyrənib mətnin alt qatlarına nüfuz etməyi bacarır. O, türkün mənəvi böyüklüyünü sübut etmək üçün havadan asılı qalan gəlişigözəl fikirlər söyləmir, araşdırmalarından alınan nəticələr dəlil, fakt kimi bu böyüklüyü ortaya qoyur.

***Ramazan Qafarlı***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

«Anarın nəsri» Əzizxan Tanrıverdinin zəngin elmi fəaliyyətinin ilk uğurlu addımı, ilk cığırıdır. Bu cığır sonralar onu elm aləminin çətin və geniş yoluna qovuşdurdu…

Qorqudşünaslıqla bağlı dünya filoloji fikrinin metodoloji nailiyyətləri mövqeyində dayanmağı bacaran Əzizxan Tanrıverdi

"Dədə sözü işığında" adlı dilçilik əsərində də, digər elmi yazılarında olduğu kimi, ən yeni elmi-nəzəri konsepsiyalara bələdlik, onlara istinad, onlardan çıxışetmə keyfiyyətlərini nümayiş etdirir.

***Məhərrəm Hüseynov***
***filologiya üzrə elmlər doktoru***

Əzizxan Tanrıverdinin əsərləri ilə tanışlıq sübut edir ki, dilimizin, mənəviyyatımızın dünəni, bu günü, ədəbi prosesi, yazıçı dili, milli dilimizin inkişaf tarixi, təşəkkülü onu düşündürən başlıca problemlərdəndir.

Əzizxan Tanrıverdinin "Kitabi-Dədə Qorqud"da şəxs adları" tədqiqatı mövzu yeniliyi, problemin qoyuluşu və həllindəki yenilik ruhuna görə qorqudşünaslıqda yeni söz, yeni addım kimi qiymətləndirilməlidir.

***Sayalı Sadıqova***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Əzizxan Tanrıverdinin «Türk mənşəli Azərbaycan antroponimləri» kitabı Azərbaycan onomastikasına layiqli töhfə olacaq…

***Nadir Məmmədli***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Əzizxan Tanrıverdi təbii intuitsiya ilə yanaşı, yüksək analizi ilə seçilən məntiqi təfəkkür sahibidir. Ona görə də müəllifin bu məqamda irəli sürdüyü mülahizələrin bir çoxu təkcə Azərbaycan dilçiliyi üçün deyil, ümumilikdə türkoloji dilçilik üçün yeni görünür.

***Kamil Bəşirov***
***filologiya üzrə elmlər doktoru***

Professor Əzizxan Tanrıverdinin "Kitabi-Dədə Qorqud" və qərb ləhcəsi" monoqrafiyası dəyərli və sanballıdır, "Dədə Qorqud"u bizə daha da yaxınlaşdırır.

***Qara Məşədiyev***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Əzizxan Tanrıverdi "Alpamış"la "Kitabi-Dədə Qorqud"-dakı Beyrək surəti arasında çox maraqlı ilişkilər qurmuşdur.

***Ramiz Əskər***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Əzizxanın dünya sevgisi dildən, dil sevgisi isə "Dədə Qorqud"dan başlanır. "Kitabi-Dədə Qorqud" Ə.Tanrıverdinin alim ömrünün mənası, mahiyyəti və fəlsəfəsidir.

***Seyfəddin Rzasoy***
***filologiya üzrə elmlər doktoru***

"Kitabi-Dədə Qorqud" Əzizxan Tanrıverdinin araşdırmaları üçün istinad, dayaq nöqtəsidir.

***Mahmud Allahmanlı***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

Onunla rastlaşarkən dərsə tələsirdim. Söhbətimiz qısa oldu. Özüm də bilmədən nitqimə «Xətib» ismi gəldi. Qəfil deyilmiş və ikimizin də tanıdığımız bu ada təəccübləndi. Əlini sıxıb təbrik etdim. Və yenə təkrar etdim: «Xətib Borçalı! İsmayıl müəllimin və digər ustadların haqqı sənə halal olsun! XI yüzillikdə Xətib Təbrizi, XXI əsrdə Əzizxan Tanrıverdi!....»

***Qüdrət Umudov***
***filologiya üzrə fəlsəfə doktoru***

XX əsrin əvvəllərində Bəkir Çobanzadə fenomeni XX əsrin sonu, XXI əsrin əvvəlləri professor Əzizxan Tanrıverdinin simasında yenidən təcəlla olunur.

***Şakir Albalıyev***
***filologiya üzrə fəlsəfə doktoru***

Əzizxan Tanrıverdinin "Kitabi-Dədə Qorqud" və qərb ləhcəsi" kitabı sanki işığın rənglərindən ibarət göy qurşağıdır, oxucunu 13 əsr bundan əvvələ aparır, unudulan sözlərə yeni nəfəs verir...

***Oqtay Rza***
***Şair, Əməkdar müəllim***

Azərbaycan dilinin bu yorulmaz tədqiqatçısı "Dədə Qorqud"un aşiqidir. Və bu aşiqlik onun vücudunda təpədən dırnağacandır.

***Pərixanım Soltanqızı***
***filologiya üzrə fəlsəfə doktoru***

Əzizxan Tanrıverdi qorqudşünaslıqda yeni söz deməyi bacaran alimlərimizdəndir.

***Əli Rza Xələfli***
***Şair, publisist***

Türkün sözü, varlığı, mədəniyyəti Əzizxan Tanrıverdi tədqiqatlarının ayrılmaz tərkib hissəsidir.

***Təranə Rəhimli***
***filologiya üzrə fəlsəfə doktoru***

Əzizxan Tanrıverdi "Dədə Qorqud" eposunun ardıcıl tədqiqatçılarından biridir.

***Asif Hacıyev***
***filologiya üzrə fəlsəfə doktoru***

Ə.Tanrıverdinin elmi tədqiqatlarının diapazonu çox genişdir. Lakin onun uzun illər ərzində gərgin elmi yaradıcılığının cövhərini "Kitabi-Dədə Qorqud" dastanlarının tədqiqi təşkil edir.

***Bilal Həsənli***
***pedaqogika üzrə fəlsəfə doktoru, dosenti,***
***Əməkdar müəllim***

# HAQQINDA YAZILMIŞ
# Y U B İ L E Y
# YAZILARI



***Himalay Qasımov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*"Azərbaycan və dünya ədəbiyyatı" kafedrasının*
*müdiri, filologiya elmləri doktoru, professor*

## Görkəmli dilçi alim, cəfakeş pedaqoq

2019-cu ilin yanvar ayının 1-də 60 yaşı tamam olacağını könül xoşluğu ilə gözlədiyimiz Əzizxan Vəli oğlu Tanrıverdi Cənubi Qafqazın zəngin tarixi, yaşarlı ənənəsi və füsünkar təbiəti ilə seçilən Borçalı mahalının Aşağı Qarabulaq kəndində dünyaya göz açmışdır. El-obasının saf havasını doyunca sinəsinə çəkən, mərcan sularından içib saflaşan gələcəyin görkəmli dilçi aliminə 1977-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsi qucaq açdı. Tələbəlik illərində yüksək mənəvi-əxlaqi keyfiyyətləri, fakültənin və universitetin ictimai həyatında yaxından iştirakı, elmi biliklərə dərindən yiyələnmək səyi ilə seçilən, yüksək işgüzarlığı ilə professor-müəllim heyətinin diqqətini çəkən, "Cəfər Cabbarlı" adına təqaüdlə oxuyan, 1981-ci ildə ali məktəbi fərqlənmə diplomu ilə başa vuran, 1985-ci ildə ADPU-nun "Azərbaycan dilçiliyi" kafedrasının əyani aspirantı olaraq elmi karyerasını inkişaf etdirən Əzizxan Tanrıverdinin vaxtından 1 il 6 ay əvvəl, konkret desək 1987-ci ildə namizədlik, 1998-ci ildə doktorluq dissertasiyalarını böyük uğurla müdafiə etməsi, 2003-cü ildə professor elmi adına layiq görülməsi, əlbəttə ki, bu baxımdan təbii və qanunauyğun hesab edilməlidir. Daim haqqa, imana tapınan, daxilində bir əzəmət, yenilməzlik, vüqar yaşadan Əzizxan özü sıxıntı çəkər, lakin dostlarına qüssə verməz və biləndə halı pərişan olar. Ulu Tanrı ona mənəvi zənginlik, ruhi paklıq bəxş edib. Gözəl ailə qurmaq, sədaqətli ömür-gün yoldaşı seçmək, ailə səadətini tam dadmaq, üç oğul övladı ərsəyə gətirmək, onların fərəhini və sevincini duymaq, özünün şəxsiyyətini bütün mümkün rakurslarda təsdiq etmək, milli kimliyini ortaya

qoymaq, zəngin tarixi, yaşarlı ənənəsi olan bir soya başucalığı gətirmək imkanı verib. Əlbəttə ki, Tanrının verdiyi mənəvi güc sayəsində o bunlara nail olub. Bunu deyərkən mən Əzizxan Tanrıverdiyevin hüdudsuz elmi potensialından, analitik düşüncəsindən boy göstərən 22 monoqrafiyasının, 7 dərslik və dərs vəsaitinin, 250-dən artıq məqalənin müəllifi olmasını düşüncəmə gətirir və bununla da keçmiş tələbəm, bu gün isə Azərbaycanda adlı-sanlı dilçi alim kimi tanınmasından, təqdir edilməsindən qürur duyuram. Professor Əzizxan Tanrıverdi filoloji düşüncəmizi böyük inamla hədəflərə doğru yönəldən dilçi alimdir. O, eyni zamanda çox dəyərli ədəbiyyatşünasdır. "Kitabi-Dədə Qorqud" dastanının tarixi və bədii məndərəcəsinin, mətn-məzmununun özəlliyini bütün mümkün istiqamətləri ilə incələyən fundamental monoqrafiyalar, "Koroğlu" dastanı barədə elmi qənaətləri, Xalq yazıçısı İsmayıl Şıxlının "Dəli Kür" romanının ideya sənətkarlığı barədə sərgilədiyi mülahizələr onun tədqiqatçılıq kirdarından soraq verir. O bu kimi araşdırmalarında həm də mətnşünaslıq elmimizə bir töhfə vermiş olur. Əzizxan Tanrıverdinin "Kitabi-Dədə Qorqud" haqda çeşidli monoqrafiyaları onu elmi ictimaiyyətə görkəmli bir qorqudşünas kimi tanıdıb. Elmi potensialına görə dəyərli söz sahibi olan professor Əzizxan Tanrıverdinin çıxışları və mülahizələri ehtiramla qarşılanır, çünki elmi- məntiqi mülahizələrini bir qayda olaraq realist düşüncə müstəvisində sərgiləyir. Ən xoşlamadığı əlamət biganəlik, insan dərdlərinə laqeyidlikdir. Əzizxan müəllim biliyinə, insaniliyinə, humanizminə, qəlbinin saflığına, ünsiyyət mədəniyyətinə, milli-mənəvi dəyərlərə sədaqətinə görə tələbələrin sevimlisidir. "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasının müdiri kimi də fəaliyyəti təqdirəlayiqdir. Kafedranın elmi potensialının artması üçün göstərdiyi səylər hər kəsdə könül xoşluğu doğurur. Onun elmi rəhbərliyi sayəsində namizədlik və doktorluq dissertasiyalarını müdafiə edib elmi dərəcə alanlar professorun qayğı və tələbkarlığını qürur hissi ilə dilə gətirirlər. Əzizxan müəllim vətəninə, millətinə, dövlətinə, təhsil aldığı və çalışdığı universitetə son dərəcə bağlı insandır. Qəlbi

vətən və millət sevgisi ilə döyünən dəyərli bir elm adamıdır. Azərbaycan dilçilik elminin inkişafı yolunda göstərdiyi xidmətlər, yaradıcılıq axtarışlarının bəhrəsi olan saysız-hesabsız əsərləri buna əyani sübutdur. Bütün bunlardan sonra mənə o qalır deyim ki, gözəl ailə başçısı, kollektivin sevimlisi, professor Əzizxan Vəli oğlu Tanrıverdini 60 illik yubileyi münasibətilə ürəkdən təbrik edim, ona uzun ömür, can sağlığı, elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar diləyim. Əziz dostum, sənə 70, 80, 90 yaşını da doğmalarınla və dostlarınla birlikdə keçirməyinizi arzu edirəm. Sən böyük coşqu ilə reallaşacaq yubileylərə layiqsən. Qəti əminəm ki, bu Rəbbimizin də istəyindədir.

*Təyyar Salamoğlu*

## DƏDƏ ƏZİZXAN DÜNYASI, yaxud "MEHMAN OLMAQ"IN ÇƏTİNLİYİ, DƏDƏLİYİN ƏZƏMİLİYİ

Bu il Əzizxan Tanrıverdinin 60 yaşı tamam olur. Yaşadığı ömür əsrin yarısını geridə qoyub, əsri tamamlamağa doğru gedən yoldadır. İnşallah, tale yar olsa, yüz illik ömrün böyük dastanının yazılması, söz-sənət və elmi düşüncə sahiblərinin üzərinə vicdan borcu kimi düşəcək. İndiyə qədər olanlar bundan sonra da ola biləcəklər haqqında təsəvvür yaradır. 60 yaşında o, sənətin qəhrəmanına çevrilib. Haqqında çoxsaylı şeirlər yazılıb, hətta dastanlar- poemalar qoşulub. Söz-sənət, elm adamları ona Dədə Əzizxan deyiblər. Bədii sözün qəhrəmanına çevrilmək, ətrafında olan poetik təbli həmkarlarının tərənnüm obyekti olmaq hər alimə qismət olmur. İndi Əzizxan 60 yaşına qədəm qoyan bir alim ömrü yaşayır. Eyni zamanda, çağdaşımız olan şairlərin sənət qəhrəmanı kimi yaşayır. Məsələnin bu tərəfi intellektual düşüncə sahiblərini düşündürməyə bilməz. Əzizxanın şəxsiyyətinə bu qədər böyük maraq hardan gəlir, nədən qaynaqlanır?

Görkəmli mifoloq alim Seyfəddin Rzasoyun ilk dəfə olaraq ona "Dədə Əzizxan" deyə müraciətinin kökündə nə dayanır?

Düşünürəm ki, mifoloq mifi təkcə mifoloji zamanda axtarmır. Çağdaş zamanda və həyatda mifoloji zamanın və həyatın izlərini, əlamətlərini axtarmaq mifoloji düşüncənin mahiyyətindədir. S.Rzasoy məhz bu mahiyyətdən çıxış edir. Bizim baş kitabımız – "Kitabi-Dədə Qorqud" mifik zamanı, mifik zamandan tarixə keçidin əlamətdar cəhətlərini özündə yaşadır və Dədə Qorqud obrazı da bütövlükdə bu zamanları simvollaşdırır. Əzizxan Tanrıverdi çağdaş zamanın insanıdır. Lakin bütün elmi düşüncəsi bütün varlığı ilə mifik zamanla bağlıdır. O, "Kitabi-Dədə Qorqud" dastanları ilə bağlı onlarla monoqrafiyanın müəllifi-

dir. Respublikamızda və onun sərhədlərindən kənarda Dədə Qorqudşünas alim kimi tanınır və sevilir. Əzizxanın “Kitabi-Dədə Qorqud”a marağı qətiyyən ekzotik səciyyə daşımır, bu marağın sonsuzluğu öz gücünü Əzizxanın iç dünyasından, şəxsiyyətindən alır. İç dünyasının daxili impulsları onu daim “Dədə Qorqud” dünyasına doğru istiqamətləndirir, böyük eposdan bu günə qədər yaşadığımız zamanda mənəvi dünyamızdakı itkilərimizi bərpa etmək səyinə hesablanır. Sözün əsl mənasında böyük yazıçımız İ.Hüseynov deyirdi ki, Nəsimidən yaza-yaza, Nəsimini öyrənə-öyrənə mən də Nəsimiləşirəm. Ə.Tanrıverdi də “Kitabi-Dədə Qorqud”u öyrənə-öyrənə, onu araşdıra-araşdıra dədələşir. Mən burada “dədəlik” məfhumunu müdriklik, öz həyat və sənət yolunu mənsub olduğu millətin taleyindən ayrı düşünməmək mənasında başa düşür və qəbul edirəm.

Ç.Aytmatov B.Vahabzadə haqqında danışanda deyirdi ki, bu barədə düşünmək çox xoşdur ki, sən övladı olduğun xalqın nitq hissəsində feil olmağı bacarasan. O, B.Vahabzadəni məhz belə bir sənətkar hesab edirdi.

Düşünürəm ki, Əzizxan Tanrıverdinin adının qabağına əlavə edilən “Dədə” epiteti, ilk növbədə, elə onun xalqının nitq hissəsində feil olmağı bacarması ilə birbaşa bağlıdır.

Əzizxanı tanıdığım bu 40 ildə, 77-ci ilin tələbəlik həyatından başlayan zamandan üzü bəri, aspirant yoldaşlığımızın bir yerdə keçən illərində, neçə onilliyi artıq arxada qoyan iş yoldaşlığı, həmkarlıq münasibətlərində, ən ümdəsi, başlanğıcı tanışlıq, arxası sarsılmaz dostluqla nəticələnən günlərimizdə (aylarımızda və illərimizdə) təmizlik, mətinlik və xeyirxahlıq yolunun yolçusu kimi görmüşəm. Bu yoldan onun bir an da olsa sapmadığını, hamıya və hər kəsə xeyirxah münasibətini görmüşəm. Bu heyrətamiz keyfiyyətini hər dəfə əməli işində təsdiq etdiyini görmüşəm.Dədəlik ağsaqqallıqdır, insanın əzəmilik qüdrətidir. Əzizxanın ağsaqqallığı saqqalının ağlığında meydana çıxmayıb, həmişə və bir qayda olaraq öz mənafeyini arxa plana keçirib, başqalarının mənafeyini önə keçirməsində təzahür edib. Əzizxan

Tanrıverdi tələbə olanda da, aspirant olanda da belə olub, indi də belədir.

Mən Əzizxan Tanrıverdinin artıq neçə illərdir ki, rəhbərlik etdiyi ADPU-nun Azərbaycan dili və tədrisi metodikası kafedrasını, bütün böyük əsərləri ilə bərabər, onun ən böyük əsəri hesab edirəm. Çünki Ə.Tanrıverdinin bu kafedrasından, ordakı həmkarların bir-birinə münasibətindən, rəhbərin onlara münasibətindən, onların rəhbərə münasibətindən "Dədə Qorqud" dünyasının təmizlik qoxusunu duymuşam. Bu qoxunun rahiyəsində saflıq, təmənnasızlıq, elm və təhsil naminə, başqa sözlə, millət naminə söz və əməl birliyi ilə çalışma əzmi aşkar hiss olunur.Ə.Tanrıverdi rəhbərlik etdiyi kafedrada bu keşməkeşli, mürəkkəb dünya üçün utopik təsir bağışlayan bir dünya qurmağa nail olub. Buna nail olması onun dədəliyinin bu gün ən bariz şəkildə üzə çıxan əlamətidir.

"Mehman" povesti yazılandan sonar prokurorlar S.Rəhimova məkrub yazır və etiraf edirdilər ki, Mehman olmaq çətindir. Mehmanlığı Dədə Qorqudluq şərtləndirir. Özün üçün yox, başqaları üçün yaşamalısan. Ə.Tanrıverdi Mehman olmağın çətinliyini dəf edib. Əslində, onun qarşısında belə bir çətinlik durmayıb. Çünki Mehmanlıq onun fitrətindədir və onun adına qoşulan "Dədə" epiteti bunu bir daha təsdiq edir. Bununla bərabər, prokurorların etirafına haqq verərək və onların sözünü iqtibas edərək demək istəyirəm ki, Mehman olmaq çətindir, lakin Dədə Əzizxan olmaq daha çətindir.

***Vaqif Qurban***
*pedaqogika üzrə elmlər doktoru*

## ALLAH ONA KAMİRANLIQ BƏXŞ ETMİŞDİR

Bədəncə-cüssəcə zəif, ancaq iradəcə güclü insanlar az olmayıb tarixdə. Çox görmüşük belələrini. İlk baxışda güman etmişik ki, özü incə, zərifdirsə, deməli, səsi də incə, zərif olacaq. Ancaq belə olmadığını eşidəndə və ya görəndə təəccüblənmiş və hətta heyrətlənmişik.

...Demosfenin zəif vücudundan sonralar bariton səs necə çıxırmış? Levitan boyca kiçik, səscə nadir insanlardan olub. Bu, necə olar ki, boyu xırda, səsi gur, işıq seli: Tomas Elva Edison zəif şagirdlikdən hansı yolla dünyanın bir nömrəli ixtiraçısına qədər uca bir məqama yüksəlmişdir. Əfəndizadə boyca kiçik, bədəncə zəif, çəlimsiz vücudlu, lakin dili atəş saçan cəngavər iradəli… Elə Nadir şah kimi.

Bunların hamısı qeyri-adiliklər standartı haqqında fraqmental etüdlərdir. Həyatda qazanılan fərdi keyfiyyətlərdir; belə insanların ölçü, qiymət meyarıdır, əyarıdır.

İnsanın içərisindən püskürən istək alovu və ona çatmaq əzmi ilə birləşəndə **kamiranlıqdır**, yəni kam almaq, arzuya yetmək xoşbəxtlikdir.

Buraya qədər dediklərim əsas məsələyə motivasion giriş hazırlığı idi. İndi isə mən sizə bir insan haqqında müşahidələrimdən müfəssəl danışacağam.

Bir tale kitabında oxumuşam: «General olmaq istəməyən əsgərdən həqiqi sıravi əsgər çıxmaz». Belə sıravi əsgər olmuş bir insandan danışmaq istəyirəm. O kimdir?

Tanrıverdiyev Əzizxan – filologiya üzrə elmlər doktoru, professor. 50 yaşı olanda haqqında yazıblar ki, orta məktəbi kənddə qurtarıb, ürəyindən keçib ki, desinlər, filankəsin oğlu yaxşı oxuyur, hamıdan yaxşı oxuyur, əlaçıdır, qırmızı beşlərlə oxuyur. Özü də Bakıya gedəcək, müəllim olacaq, alim olacaq,

başqa alimlərdən axtarışlarına, tapıntılarına görə seçiləcək, 50 ildə 50 kitab yazacaq… 60 yaşda daha çox «Dədə Qorqud» tədqiqatçısı olacaq, «Dəli Kür» araşdırıcısı olacaq. Bu əsərlərdən hər birini «İliada»ya, «Odisseya»ya bərabər tutacaq, daha artıq idealizə edəcək.

Tarixi qrammatikamızı araşdıracaq və onu ən yüksək zirvəyə qaldıracaq. Türkoloq kimi məşhur olacaq. Seçilmiş əsərlərini nəşr etdirəcək. Böyük bir elmi tədqiqat-konstruktor burosuna rəhbərlik edəcək.

Ən yüksək bir məqam. «Çiçək açan arzular» filmində olduğu kimi. Yuxuda arzularam, həyatda qarşılaram. Belə kamiran insanlarla təmasda olmaq özü qürurlandırıcı, şərəfləndiricidir. O cümlədən  bizim nəzərimizdə Əzizxan müəllim Tanrı payıdır. Dost üçün, yoldaş üçün, kollektiv üçün..

Mən həyatda çox Nəsimimətanət, Nizamivüqar insanlar görmüşəm.  Sərt qaya kimi, gurultulu dəmir axın kimi, kəsərli almaz kimi. Büllur ürək kimi. Təmənnasız yaxşılıq edən, əvəzini gözləməyən, Allaha əmanət edən. Xeyirxahlığından dönməyən, elədiklərini bir dəfə də olsun dilinə gətirməyən, üzə vurmayan. Kimə dost dedisə, axıra qədər deyən. Sözünün çəkisini bilən, gücünü bilən, sayan, sayılan, sevən, sevilən.

Açıq danışaq, çalışdığı böyük kollektivdə həmişə öz mənəvi təmizliyini İsmayıl Şıxlı kimi, Əbdül Əlizadə kimi, Əziz Əfəndizadə kimi qorumuş insanlar elə də çox olmayıb. Əzizxan müəllim elə insanlardandır. Fərdlərin uğurlarını, kollektivinin uğurlarına çevirib universitetin şərəfini qoruyan və ucaldan. Şəxsi nümunəsi ilə  seçilən. Təmiz adı hər şeydən qiymətli tutan. Xeyirxahlığı həyatının mənası bilən. Ömrünün 60 illiyi ilə rəhbərlik etdiyi kafedranın 60 illiyi üst-üstə düşən Əzizxan müəllim bir sıra akademikin yazdığından çox əsər yazıb kafedranın kitabxana fondunu yaratmışdır.

Akademik olacağına heç kəsdə şəkk-şübhə yoxdur. Çünki qulağımız artıq səsdədir. Nəyə görə inanırıq? Axı o hər işdə kamirandır!

Bir zamanlar mən demişdim: Bəkir Çobanzadə məktəbi böyük məktəbdir. Əzizxan müəllim dilçilik məktəbinin ən layiqli davamçısıdır. Məktəb özü çox böyük məktəbdir. O məktəbin şərəf lövhəsi var. Həmin lövhədə bir akademikin adının parıltıları görünür və belə də oxunur:

Yubileyin çox mübarək, 20 ilin professoru, əziz dost, mehriban yoldaş, gözəl qardaş,

Tanrı payı, ey kamiran – arzusuna çatan insan!

Təbrik edir səni candan, özün sənə bir atadan, bir anadan

Qardaş sayan ismi Vaqif, soyu Qurban.

Vaxt gələcək deyəcəyik: İnsanlara dəyər verən alim dostumuzu akademik adı alması münasibətilə təbrik edirik. İndi isə 60 yaşın çox mübarək, ey kamiran dostumuz! Bu yaşda sənə cansağlığı diləyi ilə.

P.S. Tale elə gətirib ki, 2017-ci ildən ADPU-ya birləşməmişik – qovuşmuşuq. Dəryadan buxarlanıb isti yağış kimi yenidən dəryaya düşmüşük. Əzizxan müəllimin sayəsində onun rəhbərlik etdiyi kafedrada özümüzü xoşbəxtlərin xoşbəxti sayırıq. Universitet özünün ən şərəfli, ən müqəddəs tarixini yaşayır. Buna hamıdan çox sevinənlərdən biri də Əzizxan müəllimdir. ADPU-nun şərəfini işi-əməli ilə ucaldanlarla fəxr edir. Biz də onunla fəxr edirik.

P.S. Ürək boşalmır ki, boşalmır.

Odur ki deyirəm: 60 yaş nədir ki, əlbəttə, çox deyil. Bir alim ömrünün kitabları isə çoxdur. Bəs bu, kamiranlıq deyil?!

Arzu dolu, qəlbi dərin, nitqi rəvan,

Saf, müqəddəs bir kamiran!

**Mahirə Hüseynova,**
*ADPU-nun "Müasir Azərbaycan dili" kafedrasının müdiri, filologiya üzrə elmlər doktoru, professor*

## 60 YAŞIN HESABATI

Filologiya elmləri doktoru, professor Əzizxan Tanrıverdi artıq 60 yaşın astanasındadır, o astanadan 60 yaşına qədəm qoymaq üçün bircə addım atmaq bəs edər.

Yada salmağı lazım bilirik ki, ümumilikdə, 60 yaşa gəlib çatmağın özü təbrikə layiqdir, həmin yaşda dolğun yaradıcılıq hesabatı vermək hüququnu qazanmaq isə qürur yaradan haldır.

İndi Əzizxan Tanrıverdinin gəlib həmin yaşa çatdığı məlum olur.

Bu xəbəri eşidəndə heyrətlənirəm.

Ona da heyrətlənirəm ki, illər nə tez gəlib keçib, halbuki elə bil dünən idi, 1980-ci ilin sentyabrı və mən o zamankı Vladimir İliç Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinin I kursuna qəbul olunmuşdum. Düzdür, daxilimdə jurnalistika fakültəsində oxumaq arzumdan əl çəkməyimin ağırlığı qalmaqda davam edirdi. Məsələ onda idi ki, son anda o vaxtkı APİ-nin filologiya fakültəsinə sənəd verməyim dayımın iradəsi ilə baş tutmuşdu (söhbət dilçi alim, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, halal-hümmət dayım Həsən Mirzəyevdən gedir).

Beləliklə, ümumi incikliyimə baxmayaraq, birinci kursun tələbəsi kimi indiki universitetimizin o vaxtlar paytaxtın Ketsxoveli- 103-də yerləşən binasına dərsə getdim. Fakültəmizin bütün birinci kurs tələbələri kimi, mənim də burada ilk tanıdığım şəxslərdən biri fakültə komsomol komitəsinin katibi Əzizxan Tanrıverdi oldu.

O, fakültə gənclərinin, necə deyərlər, siyasi lideri idi və sonradan əmin olacaqdıq ki, bu liderlik ancaq siyasi kontekstdə deyilmiş, həmin katib öz şəxsi göstəriciləri ilə də "birincilər" üçün təhsildə nümunələrdən sayılırdı: bir əlaçı tələbə olaraq fəxri Cəfər Cabbarlı təqaüdünün nominantı olan Əzizxan Tanrıverdini belə tanıdıq və o, hamımızın yadında beləcə qaldı. Təhsilini başa vurub təyinat yerinə getdikdən sonra da onun imzasını dövri mətbuatda müntəzəm görməyə başladıq, bu isə özünü elmə həsr etmək yolunu tutan adamın növbəti addımları idi və həmin addımların intensivliyi isə onu atan kəsi məqsədə aparacağını açıq-aydın göstərirdi.

Bu görüntüləri yaradan faktor haqqında isə zəruri xatırlatma çox vacibdir.

Söhbət, indiki professor Əzizxan Tanrıverdinin o zamanlar formalaşdığı mühitdən gedir və Azərbaycan dilçilik elminin tarixi haqqında azca təsəvvürü olan kəslər belə, həmin mühitin yaranmasında xüsusi xidməti olan kəslər haqqında kifayət qədər məlumatlıdırlar: məsələn, bu günkü Azərbaycan Dövlət Pedaqoji Universitetində o mühiti yaradan kəslərdən biri və birincisi hesab olunan Əbdüləzəl Dəmirçizadə barədə bilməyəni təsəvvür etmək mümkün deyil.

Yada salaq ki, ötən əsrin 20-ci illərinin əvvəlində təşkil olunmuş bugünkü Azərbaycan Dövlət Pedaqoji Universitetinin qarşısında qoyulan ilkin tələb pedaqoji kadrların hazırlanması idi və buna görə idi ki, təhsil ocağının müəllim kollektivi dövrünün ən görkəmli ziyalıları arasından seçilən insanlar hesabına formalaşdırılmışdı. Artıq 20-ci illərin ortalarında burada B. Çoban-zadə, Ə. Haqverdiyev, Y.V. Çəmənzəminli, A.Şaiq və digər ziyalılar dərs deyirdilər. Tədris materiallarının, demək olar ki, olmadığı, proqramların hələ hazırlanmadığı həmin illərdə o ziyalılar mühazirələr oxumaqla bərabər, dərsliklərin hazırlanması, proqramların tərtibi üçün də çalışır, şəxsi fədakarlıqları hesabına mövcud boşluqları doldurmağa çalışırdılar. O ziyalılar arasında Krımda anadan olmuş, Türkiyədəki Qalatasaray Liseyində təhsildən sonra İstanbul Universitetinin nəzdindəki üçillik ali kursu

bitirdikdən sonra Krımda çalışmış, sonralar taleyin Bakıya gətirdiyi Bəkir Çobanzadə barədə məxsusi danışmaq gərəkdir. Bakıya gələnə qədər "Çobanoğlu", "Çobanoğlu Bəkir", "Bəkir Baybək" imzaları altında yazdığı əsərləri ilə türk dünyasında tanınan Çobanzadə artıq 30 yaşında professor idi. Bu, həmin Çobanzadə idi ki, sonralar, daha dəqiq, 1938-ci ildə cəmi 15 dəqiqə çəkəcək məhkəmə "iclası"nın qərarı ilə ona güllələnmə hökmü veriləcək, lakin hələ güllələnməyə qədər çox işlər görməyə macal tapacaq və bunu xüsusi ləyaqətlə ətrafındakılara da təlqin edəcək.

Bəkir Çobanzadə pedaqoji fəaliyyəti ilə bərabər, Azərbaycanda elmi axtarışlar mühiti yaradanlardan biri oldu. O, bir sıra monoqrafik əsərlərlə yanaşı, "Türk dilinin metodikası", "Elmi qramerin əsasları" kitablarını şərikli tərtib etdi, elmi məqalələri və bədii əsərləri ilə dövri mətbuatda müntəzəm çap olunmaqla yaradıcı Azərbaycan gəncliyinə nümunə oldu, onlara impuls verdi.

Həmin Çobanzadə Azərbaycan dilçiliyində məktəb yaratmış Əbdüləzəl Dəmirçizadənin müəllimi kimi də elm tariximizə düşüb.

Ondan başlayaq ki, Əzizxan Tanrıverdini və onun kimi alimləri formalaşdıran mühit barədə danışırıqsa, ötən əsrin 30-cu illərində Şəkidəki məktəb müəllimliyindən aspiranturaya qəbul üçün gələn və buna nail olan Əbdüləzəl Dəmirçizadəni mütləq xatırlamaq lazım gəlir. Onu da hökmən qeyd etməyi vacib bilirik ki, Dəmirçizadənin dilçiliyimizdə yerini Firudin bəy Köçərlinin ədəbiyyatşünaslığımızdakı məqamı ilə müqayisə etmək olar. Buna görədir ki, Azərbaycan dilçiliynin patriarxlarından biri olan Əbdüləzəl Dəmirçizadənin tədqiqata cəlb etdiyi mövzuları ümumilikdə gələcək tədqiqatlar üçün tezislər toplusu hesab edənlərlə qeyd- şərtsiz razılaşmaq lazım gəlir. Onun zamanının və sonrakı illərin ən böyük alimləri sırasında yer tutan Y.E. Bertels, S.E. Malov, İ.K. Dmitriyev və digər mütəxəssislərin təqdir etdikləri "Azərbaycan ədəbi dil tarixinin xülasələri", sonralar yazılan "Azərbaycan ədəbi dilinin inkişaf

yolları", ""Kitabi-Dədə Qorqud" dastanının dili", "Azəri ədəbi dilinin tarixi", "Azərbaycan dilinin tarixi qrammatikası" və ölümündən sonra çap olunmuş "Azərbaycan ədəbi dilinin tarixi (II hissə)" və digər ciddi elmi araşdırmaların nəticəsi kimi ortaya qoyulmuş kitablarını buna görədir ki, gələcək Azərbaycan dilçilik elminin manifesti hesab etmək olar.

Üstəlik, 1943-cü ildən ömrünün sonunadək indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində "Azərbaycan dilçiliyi" kafedrasına rəhbərlik etmiş Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü olmuş Dəmirçizadə bu kafedraya rəhbərlik etdiyi müddətdə ciddi dilçi alimlər korpusunu formalaşdıra bildi. Heç şübhəsiz ki, həmin korpusun parlaq üzvlərindən biri Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, Dövlət Mükafatı laureatı Afad Qurbanovdur. Söhbət o Afad Qurbanovdan gedir ki, hələ tələbəlik illərindən elmə xüsusi marağını və istedadını görüb də diqqətində saxladığı tələbəsini, Əzizxan Tanrıverdini bir alim olaraq yetişdirmək üçün ondan diqqətini, qayğısını və özü üçün xarakterik olan tələbkarlığını əsirgəməyib. Tanıdığımız Əzizxan Tanrıverdi isə həmin diqqət və qayğını unudanlardan deyil və bunu hər bir məqamda görmək olur. Əzizxan Tanrıverdi Azərbaycan dilçilik elminin inkişafında xidməti olan böyük alimlərin yeri haqqında yazarkən təsnifatı belə aparır: "Azərbaycan dilçiliyində fonetika Ə. Dəmirçizadənin, leksikologiya S. Cəfərovun, dialektologiya M. Şirəliyevin, morfologiya M.Hüseynzadənin, sintaksis Ə. Abdullayevin, dil tarixi H. Mirzəzadə, Ə. Dəmirçizadə və T. Hacıyevin, morfonologiya F. Cəlilovun, ümumi dilçilik və onomologiya isə A. Qurbanovun adı ilə bağlıdır".

Əlbəttə, Əzizxan Tanrıverdinin həmin təsnifatını əsaslandıra biləcəyinə şübhəmiz yoxdur və onu da əminliklə demək olar ki, dilçiliyimizin nəhəng simaları içərisində öz müəlliminin adını görmək ona qürur verir. Bu hissi insanda yaradan amil isə nəcabətdir. Oxucularımız, elə Əzizxan Tanrıverdi də etiraf edər

ki, heç də hamı öz xeyirxahları haqqında ehtiramla danışmır. Bu isə tamam başqa bir söhbətin mövzusudur.

Ona görə də Əzizxan Tanrıverdinin dilçilik elminə nələr verdiyini sadalamazdan əvvəl onun öz müəlliminə minnətdarlıq hissi ilə yazdığı açıq-aydın görünən "Türkologiyamızın Afad Qurbanovu" kitabını birgə vərəqləməyimizi lazım bilirik.

Məşhur bir atalar məsəlimiz var: "Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir". Əlbəttə, həmin məsəlin deyilməsindən xeyli vaxt keçib və etiraf edək ki, vaxt, zaman özümüz də bilmədən dəyərləri korreksiyalar edir.

O konteksdən yanaşsaq, artıq günümüz üçün qəribə səslənməyən "yaxşılığa yaxşılıq - ər kişinin işidir" deyənlərlə razılaşmamaq olmur. Dəyərlərin deqradasiyası bunu reallığa çevirir və artıq yaxşılığa yaxşılıqla cavab vermək belə, ona görədir ki, məxsusi müsbət duyğularla qarşılanır. Dəyərli həmkarımızın öz müəllliminə sevgi və ehtiramı "Türkologiyamızın Afad Qurbanovu" kitabının nəinki tərtibatında, həmçinin o kitabın hər səhifəsində hiss olunur və oxucuda müəlliflə bağlı xoş hisslər yaradır. Müəllif kitabın ilk səhifələrində müəllliminə münasibətini belə ifadə edir: "Elmdə ustadım, heç şübhəsiz ki, Afad Qurbanovdur. O böyük şəxsiyyət müəllimim, dekanım, kafedra müdirim, rektorum, ən əsası isə, elmi rəhbərim olub.

Afad müəllim! Siz bu gün də qəlbimdə, ruhumda, yaddaşımdasınız! Əlimə qələm alıb bir yazını yazmaq istəyəndə, sevincli anlarımda, şad günlərimdə və daha çox da problemlərlə üzləşəndə- mürəkkəb situasiyalara, çətinliyə düşəndə Sizi düşünür, sanki ruhunuzla danışır, fikir mübadiləsi aparır, tövsiyələrinizi eşidir və hər dəfə də uğur qazanıram. Başqa cür ola da bilməz, çünki Sizdən real olaraq öyrəndiklərimlə ruhunuzun mənə diqtə etdikləri üst-üstə düşür, biri digərini qüvvətləndirir. Mən də məhz bu ruha köklənərək hərəkət edirəm".

İbrətamiz müraciətdir və dəyərli müəllimimiz, mərhum professor Alməmməd Alməmmədovun dəfələrlə auditoriyadakı tələbələrinə üz tutaraq " Xoşbəxt o müəllimdir ki, adını yaşada biləcək tələbələri var "- deyimini xatırlayıram.

Heç şübhəsiz ki, Əzizxan Tanrıverdini məhsuldar alimlərdən biri kimi qəbul etmək olar, hər şeydən əvvəl, buna onun elmi nailiyyətlərinin uzun siyahısı əsas verir. Həmin siyahıdan isə görmək olur ki, filologiya üzrə elmlər doktoru, professor, "Azərbaycan dili və onun tədrisi" kafedrasının müdiri Əzizxan Tanrıverdi 30 kitabın, 250 elmi məqalənin müəllifidir. Dil tarixi, onomastika, ədəbi tənqid sahələrində elmi-tədqiqat işləri aparan alimin elmi ictimaiyyətdə ciddi bir mütəxəssis kimi qəbul edilməsi faktının arxasında onun gərgin əməyinin nəticəsi olaraq ortaya qoyulan əsərləri dayanır. Bu kitablardan bəzilərinin adlarını ona görə çəkmək istərdik ki, oxucu həmin kitabların məzmununu ifadə edən adlarından alimin ardıcıllığını görə bilər. Əzizxan Tanrıverdinin "Türk mənşəli Azərbaycan antroponimləri", "Kitabi- Dədə Qorqud"da şəxs adları", "XVI əsr qıpçaq (poloves) dilinin qrammatikası", "Kitabi- Dədə Qorqud və qərb ləhcəsi", "Kitabi-Dədə Qorqud"un obrazlı dili", "Kitabi-Dədə Qorqud"un söz dünyası", "Kitabi-Dədə Qorqud"da at kultu, "Kitabi-Dədə Qorqud"da dağ kultu", "Qədim türk mənbələrində yaşayan çəxs adları" və digər dəyərli kitabları alimin tədqiqata cəlb edilmiş mövzulara fundamental, akademik yanaşmalarından xəbər verir.

Onun elmi ictimaiyyətə özünü təqdimatı ilk addımlarından diqqət çəkib. Əzizxan Tanrıverdinin 22 il əvvəl, 1996-cı ildə nəşr etdirdiyi "Türk mənşəli Azərbaycan antroponimləri" monoqrafiyasını buna görə uğurlu saymaq olar. Mütəxəssislər bu kitabı milli onomastika, antroponikamız üçün dəyərli bir əsər kimi qiymətləndirdilər və bu gün də həmin yanaşmanın təsadüfi olmadığını onunla təsdiq edə bilərik ki, o monoqrafiyanın hər bir fəslində ardıcıl alim əməyinin izləri açıq-aydın görünür. Etiraf edək ki, antroponimlər sadəcə olaraq, bir qisim dilçilərin təqdim etmək istədikləri kimi, ancaq müxtəlif şəxs adlarının məcmusunu ifadə etmir, antroponimlərdə hər bir xalqın özünün inikası olan mədəniyyəti, etik və estetik görüşləri ehtiva olunur. Hesab edirik ki, araşdırmalarını elmi fəaliyyətinin ilkin mərhələlərində bu istiqamətdə aparmaq təkcə dilimizə sevgi

deyil, həmçinin alimin bir vətəndaş mövqeyidir və həmin mövqeyi alimin sonrakı fəaliyyətində də görmək mümkündür.

Alimin "XVI əsr qıpçaq (poloves) dilinin qrammatikası" adlı kitabı da həmkarları və tələbələr arasında sükutla qarşılanmayıb. Söhbət, təkcə müasir Azərbaycan ədəbi dilinin deyil, digər dillərin də formalaşmasında əsaslı rol oynadığı elmi araşdırmalarla əsaslandırılmış qıpçaq (poloves) dilinin qrammatikasından gedir. Əlbəttə, hər bir elmi araşdırmada milli maraq elmi maraqla paralel getməlidir və bu paralelliyin sonacan qorunub saxlanılması dərin elmi əsaslarla bərabər, tolerantlıq mədəniyyəti tələb edir. Əzizxan Tanrıverdi buna görədir ki, tədqiqatlarının nəticələrini təqdim etdiyi kitablarında daha çox üçüncü şəxs kimi görünür, bu isə alim təvazökarlığının əsas amillərindən biridir. Bu kitabında o, daha çox qənaətlərini icmallaşdırır, bu icmalların sintezini ortaya qoyur və öz fikrini oxucusu ilə belə bölüşür: "...hər bir xalqın kimliyini müəyyənləşdirən atributlardan biri də onun milli şəxs adları və coğrafi adlar sisteminə malik olmasıdır. Haqqında bəhs etdiyimiz kitaba əsasən demək mümkündür ki, ermənilərin istifadə etdikləri şəxs adları və coğrafi adların bir hissəsi slavyan, digər və əsas hissəsi isə türk kökənlidir. Deməli, XVI əsr erməni həyatından bəhs edən sənədlər erməni qrafikası ilə yazılsa da, onun milli leksikası məhdud olan erməni dilinin milli antroponimiya və toponimiyası ilə heç bir əlaqəsi yoxdur".

Bu, alimin qənaətidir və həmin qənaət hələ XX əsrin əvvəllərində gürcü alimi İlya Çavçavadzenin haqqında həyəcan təbili çaldığı "Erməni tarixçiləri və ağlayan daşlar" probleminin elmi dəlillərlə çözülə biləcəyi qənaətini bir daha möhkəmləndirir.

Ümumiyyətlə, Əzizxan Tanrıverdinin elmi araşdırmalarının nəticəsi olan kitablarında emosiyaların tamamilə arxa planda olması diqqəti cəlb edir, əvəzində komkret faktların elmi izahı, gəlinən nəticələrin təqdimatı obıvatel oxucusunda belə müəllifin qənaətinə inam yaradır. Etiraf edək ki, onun "Kitabi-Dədə Qor-

qud"un tədqiqatı ilə bağlı elmi araşdırmaları xüsusi bir söhbətin mövzusudur.

"Kitabi-Dədə Qorqud"un azərbaycanlılar üçün nə demək olduğu barədə polemika açmaq üçün zərurət olmasa da, onu demək vacibdir ki, bu kitabın zamanımıza qədər müxtəlif istiqamətlərdən öyrənilməsi indən belə də elmimiz üçün uzun müddət aktual olaraq qalacaqdır.

Məlumdur ki, elmə XIX əsrdən məlum olan "Kitabi-Dədə Qorqud"un hələlik iki əlyazma nüsxəsi (Drezden və Vatikan) məlumdur. O da məlumdur ki, kitabın Drezden nüsxəsi Drezdendəki Kral Kitabxanasından alınaraq 1972-ci ilin avqustunda Bakıya gətirilib və Azərbaycan Elmlər Akademiyasına verilib. Bu gün Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda olan həmin nüsxənin nə qədər qiymətli olduğu məlumdur.

Yeri gəlmişkən, minnətdarlıq hissi ilə yada salmamaq olmur ki, həmin vaxtlar xalqımızın milli sərvəti olan bu nadir kitabın Drezden Kral Kitabxanasından alınaraq Azərbaycana gətirilməsi o zamankı Azərbaycan Kommunust Partiyası Mərkəzi Komitəsinin birinci katibi, ümummilli lider Heydər Əliyevin SSRİ Mədəniyyət Nazirliyi qarşısında qoyduğu israrlı tələblərdən sonra mümkün olmuşdur. Bu hələ hamısı deyildi, ümummilli liderin iradəsi ilə 1975-ci ildə ikihissəli "Dədə Qorqud" bədii filminin çəkilməsi dastanın xalq arasında böyük populyarlıq qazanmasına səbəb oldu. Bunun nəticəsi idi ki, o illərdə bu möhtəşəm eposun araşdırılması sahəsində bir sıra mühüm əsərlər ortaya çıxdı, dastanın motivləri əsasında müxtəlif bədii nümunələr də yazıldı. Böyük dövlət adamı 1993-cü ildə müstəqil Azərbaycana rəhbərliyə gəldikdən sonra, onun imzaladığı 20 aprel 1997-ci il tarixli Fərman əsasında "Kitabi-Dədə Qorqud"un 1300 illiyi geniş şəkildə qeyd edildi, respublikada və bir sıra xarici ölkələrdə elmi konfranslar təşkil olundu, 1998-ci ildə YUNESKO-da beynəlxalq simpozium təşkili edildi. 2000-ci ildə ikicildlik "Kitabi-Dədə Qorqud" ensiklopediyası"nın nəşri, həmin il dastanın 1300 illiyi ilə əlaqədar Bakıda möhtəşəm zirvə tədbirinin keçirilməsi başlanılan işin davamı idi. Ümummilli

lider dastan haqqındakı ali sənədi belə dəyərləndirirdi: " İmzalanan Fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, o, "Kitabi-Dədə Qorqud" dastanının ən azı 1300 il yaşı olduğunu dünyaya nümayiş etdirdi. Bu Fərmanla biz bildirdik ki, "Kitabi-Dədə Qorqud" dastanı bütün Türk
dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir".

Ümummilli lider dastanın geniş şəkildə təbliğ olunmasının vacibliyini qeyd etməklə bərabər, onun araşdırılmasını da zəruri sayırdı: "Kitabi-Dədə Qorqud"un elmi nöqteyi-nəzərdən tədqiq edilməsi bizim üçün çox lazımdır. Eyni zamanda "Kitabi-Dədə Qorqud" Azərbaycan ictimaiyyəti, kütlə, xalq üçün tanınmalıdır".

Sonralar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də xalqımızın mənəvi xəzinəsi olan bu mədəniyyət abidəsinin populyarlaşmasına görə maksimum səylərini ortaya qoydu. 13 dekabr 2013-cü il tarixdə respublikamızın paytaxtı Bakı şəhərində Dədə Qorqud abidəsinin və "Dədə Qorqud" parkının açılışı, epos əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında ölkə Prezidentinin 28 dekabr 2013-cü il tarixli Sərəncamı bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Ölkə rəhbəri dastana yüksək qiymət verərək deyirdi: "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur... Bu dastan hər bir azərbaycanlı üçün əzizdir". Xalqımızın ən böyük mədəniyyət abidəsi olan "Kitabi- Dədə Qorqud"a dövlətin münasibəti onun müxtəlif aspektlərdə araşdırılması üçün impuls verməli idi və belə də oldu. Həmin çağırışa qoşulanlar arasında Əzizxan Tanrıverdinin verə biləcəyi hesabat, hesab edirik ki, daha dolğunlardan biri ola bilər. Bunun üçün onun "Kitabi- Dədə Qorqud"da tədqiqata cəlb etdiyi mövzularla bağlı ərsəyə gələn kitablarının sayına və mövzu genişliyinə baxmaq kifayətdir: "Kitabi- Dədə Qorqud"da şəxs adları", "Kitabi-Dədə Qorqud" və qərb ləhcəsi", "Kitabi-Dədə Qorqud"un obrazlı dili", "Kitabi-Dədə Qorqud"un söz dünyası", "Kitabi-Dədə

Qorqud"da at kultu", "Dədə Qorqud kitabı"nda dağ kultu, "Dədə Qorqud kitabı"nda obrazlar aləmi". Adlarını sadaladığımız kitabların hər birində professor Əzizxan Tanrıverdi apardığı tədqiqatlarla onu da göstərə bilib ki, xalqımızın bu böyük ədəbiyyat və mədəniyyət abidəsi öz daxilində hansı zənginlikləri saxlayır və o zənginliklərə baş vurmaqla yeni qatlar açmaq mümkündür. Alimin müxtəlif mövzular üzrə tədqiqata cəlb etdiyi kitabla bağlı qənaətini isə belə ümumiləşdirmək olar: Azərbaycan xalq bədii təfəkkürünün abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarının poetik dili bədii təsvir vasitələri ilə unikaldır, kitab Azərbaycan dili tarixini öyrənmək baxımından zəngin mənbədir.

Onu da qeyd etmək lazımdır ki, Əzizxan Tanrıverdi bu istiqamətdə anoloji tədqiqat işlərinin nəticələri barədə dövri mətbuatda müntəzəm elmi yazılarını dərc etdirib, elmi konfranslar və simpoziumlarda məruzələr edib, bununla da elmi tədqiqatlarında ardıcıl olduğunu təsdiq edib.

Əzizxan Tanrıverdi linqvistik ədəbi tənqidə də öz töhfəsini verən azsaylı alimlərimizdən biridir. Ona görədir ki, onun "Poeziyanın dili, dilin poeziyası" kitabı mütəxəssislər tərəfindən bu sahədə indiyəcən qazanılmış təcrübənin dolğunlaşmasına töhfə kimi qiymətləndirdilər. Əzizxan Tanrıverdinin bu kitabında diqqət çəkən cəhətlərdən biri odur ki, o, haqqında yazdığı söz adamlarının əsərlərini təhlil edərkən müqayisəli təhlillər aparır, illər konteksindən Azərbaycan ədəbi dilinin inkişaf yoluna nəzər salır, qənaətlərini bölüşür. Hesab edirik ki, bu qənaətlər gənc dilçi alimlərin növbəti elmi araşdırmalar üçün mənbələr kimi də maraqlıdır.

Etiraf edək ki, professor Əzizxan Tanrıverdini haqlı olaraq məhsuldar alimlərin cərgəsinə yazmaq mümkündür- o, bu mümkünlüyü öz zəhməti, istedadı və ardıcıllığı ilə qazanıb. Maraqlı burasıdır ki, alim elmi fəaliyyəti ilə bərabər, ictimai işlər üçün də vaxt tapıb: müxtəlif zamanlarda Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının filologiya elmləri üzrə ekspert Şurasının üzvü, pedaqoji elmlər üzrə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitunda

fəaliyyət göstərən V.02.191 dissertasiya şurasının üzvü, pedaqoji elmlər üzrə ADPU-da fəaliyyət göstərən № 02.191 dissertasiya şurasının üzvü kimi öz prinsipiallığı, elmi təcrübəsi ilə tədqiqata cəlb edilmiş mövzular üzrə gərəkli elmi işlərin yaranmasına çalışıb.

Ona görədir ki, aldığı mükafatlara görə sevinən təkcə özü və doğmaları olmayıb, onu tanıyanlar həmin mükafatları almasını ədalətli sayıb da zəhmətkeş bir alimin əməyinə verilən qiymətə görə seviniblər.

O, 2014-cü ildə "Türk dünyasının ulu atası Korkut" mükafatını alanda da belə olub.

Əlbəttə, alim ömrünün mənası onun ortaya qoyduğu tədqiqatların dəyəri ilə ölçülür və dəyərli həmkarımıza bu ölçülər kontekstindən yanaşanlar onu da bilirlər ki, Əzizxan Tanrıverdi məhsuldar alim olduğu kimi, həm də qayğıkeş və tələbkar müəllimdir. Professorun qayğı və tələb meyarının isə bir prinsipi var: az qala yüz il əvvəl əsası qoyulmuş universitetimizdə fədakar insanların yaratdığı mühit daha da dolğunlaşsın, elmə yeni baxışlı, istedadlı gənclik cəlb olunsun.

Hesab edirik ki, bu, ehtirama layiq olan bir meyardır.

***Qəzənfər Kazımov***
*professor*

## KEÇMİŞ BÖYÜK NƏSLİN YENİ NÜMAYƏNDƏSİ
## Əzizxan Vəli oğlu Tanrıverdi…

Təbiət özü yetişdirir. Hər halda bizim də köməyimiz və təsirimiz var. Bir vaxtlar yeni Azərbaycan dilçiliyində professor Bəkir Çobanzadənin dörd aspirantı var idi: Ə.Dəmirçizadə, M.Şirəliyev, M.Hüseynzadə, İ.Əfəndiyev. Yaşadılar - 60 il, 70 il, 80 il. Üslub və istiqamətləri müəyyənləşdi. M.Şirəliyev daha çox Azərbaycan dialekt və şivələrinin öyrənilməsi sahəsində, Muxtar müəllim daha çox müasir dilimizin tədqiqatçısı kimi, İ.Əfəndiyev uğurlu və geniş yaradıcılıq yolu keçə bilməsə də, müasir dilimzin qrammatik quruluşunun tədqiqi sahəsində xeyli iş görə bildi.

B.Çobanzadə özünə qədərki dilçi alimlərdən fərqli, yeni tipli alim idi. Şair idi, publisist və tənqidçi idi, həm bədii dil, dilin müasir quruluşu, həm də dil tarixi sahəsində uğurlu yaradıcılıq yolu keçmişdi. Onun bu xüsusiyyəti dolğun bir şəkildə yalnız Ə.Dəmirçizadədə öz davamını tapdı. Dəmirçizadənin gözəl şeirləri vardı, "Dədə Qorqud"un bəzi boylarını nəzmə çəkmişdi, ədəbi tənqidlə məşğul olurdu, publisist idi. Ən böyük qüvvəsini isə dilimizin tarixinə həsr etmişdi. Müasir ədəbi dilimizin tədqiqi sahəsində də ilk qiymətli əsərlərin ("Mürəkkəb cümlə", "Sifət", "Azərbaycan dilinin fonetikası", "Morfologiyaya giriş" və s.) müəllifi idi. Etimoloq idi. Orfoqrafiya, fonetika sahəsində qiymətli əsərlər yazmışdı. Onun bu yaradıcılıq üslubu sonrakı nəslin nümayəndələrindən A.Axundov, Y.Seyidov və T.Hacıyevdə, daha sonrakı nəslin nümayəndəri olan K.Vəli Nərimanoğlu, K.Abdulla və başqalarının yaradıcılığında geniş vüsət

qazandı. O böyük nəslin - Ə.Dəmirçizadədən sonrakı nəslin son nümayəndəsi kimi Pedaqoji Universitetdə bu işi biz davam etdirmişik. Bizdən sonrakı nəslin nümayəndəsi olan Əzizxan Tanrıverdi özünü görkəmli alim Afad Qurbanovun tələbəsi saysa da, əslində, bu xəttin, bu üslubun layiqli yetirməsidir. O, Çobanzadə - Dəmirçizadə məktəbinin nümayəndəsi kimi yetişmişdir.

Bunu Əzizxanın təkcə bir kitabını - "Dilimiz, düşüncəmiz" (Bakı, 2017) kitabını vərəqləməklə də görmək mümkündür. Bu kitab Əzizxanın hələ lap gənclik illərində etibarlı rəyçisi olduğu bizim "Sənət düşüncələri" (1998) kitabımıza çox oxşayır. Bu kitab "dilçilik məsələləri", "ədəbiyyatşünaslıq məsələləri", "pedaqogika məsələləri" kimi üç müxtəlif bölməni əhatə edir. Bu məsələlərin hər biri də çoxşaxəlidir. Alim var ki, dar bir sahədən bir addım kənara çıxa bilmir. Amma Əzizxanın kitabının elə birinci bölməsinə diqqət yetirmək kifayətdir ki, onun dilçilik görüşlərinin geniş dairəsi barədə kifayət qədər təsəvvür qazana biləsən. Mövzular aləmi: Dədə Qorqud dünyasına səyahət, əsaslı dilçilik əsəri, dilçilik və poeziya vurğunu, türk dünyasının vurğunu, filologiyamızın sultanı, təriqət şeiri, bədii mətndə sabit birləşmələr, mürəkkəb cümlənin təkamül yolu, Azərbaycan antroponimikası, "Dədə Qorqud"un feil sistemində alınmalar, tərcümə problemləri, qədim türk ədəbi dilləri barədə, etnoqrafik leksika (11-12-ci əsrlər), S.Rəhimovun yaradıcılığında dialektizmlər, qədim türk yazılı abidələrinin dili, Borçalı şivəsi, Bəxtiyar Vahabzadənin poeziya dili, "Koroğlu" dastanının üslubi-poetik sintaksisi, Azərbaycan dili və dilçiliyi məsələləri, görkəmli türkoloq və s. Bu mövzular içərisində bədii dil də var, ədəbi dil məsələləri də; dil tarixi də var, müasir dil də; qədim abidələr də var, klassik ədəbiyyatın dili haqqında məqalələr də; mətn sintaksisi də var, üslubi-poetik sintaksis də. Ayrı-ayrı türkoloq alimlərin yaradıcılıq yolu barədə yazılar var. Dilçiliyi-

mizin yeniliklərini əks etdirən ayrı-ayrı qiymətli əsərlər haqqında yazılar var. Müəllif dildən danışdığı kimi, dilçilərdən də danışmış, bir sıra mühüm pedaqogika və ədəğiyyatşünaslıq məsələlərini də əhatə etmişdir. Bax bu, əsl filoloq işidir - Ə.Dəmirçizadə üslubudur. Professor daim deyərdi ki, mən dar sahə adamı - dialektoloq və ya dil tarixçisi deyil, filoloq alim yetişdirirəm. Şəxsən mənim üçün də çox xoşdur ki, dərs dediyimiz gənclər arasından bu cür istedadlı davamçılar yetişmişdir.

Əzizxanın bütün elmi davranışı bu parametrlərə tam uyğundur. "Dədə Qorqud" haqqında kitabları onu tarixlə tanış etmiş, H.Mirzəzadədən sonra ilk "Tarixi qrammatika" müəllifi kimi çıxış etmişdir. Bizim dilimizin tarixi çox mürəkkəbdir. Dilimiz ilkin feodalizm dövründə xalq dili kimi təşəkkül taparaq azı 1500 illik mürəkkəb inkişaf yolu keçmiş, bu müddət ərzində hələ ümumtürk dövründə qazanmış olduğu qrammatik formalar səlisləşmə, zənginləşmə istiqamətində uzun inkişaf yolu keçmiş, yad təsirlərə qarşı daim öz milli əsaslarını qoruya bilmişdir. Bunların daha geniş tədqiqinə böyük ehtiyac var. Əzizxan müəllim müasir ali məktəb və tələbələrin səviyyəsinə müvafiq maraqlı bir dərslik yarada bilmişdir.

Əzizxan Tanrıverdi tarixi qrammatika yazmaqla məhdudlaşmamış, ardıcıl olaraq tarixi mənbələrin dilinin tədqiqi məsələləri ilə maraqlanmışdır. Təkcə "Dədə Qorqud" haqqında xeyli kitabın müəllifidir: "Kitabi-Dədə Qorqud"da şəxs adları" (1999), "Kitabi-Dədə Qorqud" və qərb ləhcəsi" (2002), "Kitabi-Dədə Qorqud"un obrazlı dili" (2005), "Kitabi-Dədə Qorqud"un söz dünyası" (2009), "Dədə Qorqud kitabı"nda at kultu" (2012), "Dədə Qoqud kitabı"nda dağ kultu" (2013), "Dədə Qorqud kitabı"nın obrazlar aləmi" (2013)… Bunlar ömür istəyir, zəhmət istəyir. Bu əsərlər onu qorqudşünaslığın görkəmli nümayəndələri sırasına daxil edir.

Əzizxan 16-cı əsrin qıpçaq-poloves dili ilə də maraqlanmış, "Qıpçaq-poloves dilinin qrammatikası" (2000) adlı kitab yazmışdır. Bunlar bir cəhəti də sübut edir ki, filologiya elmləri doktoru, professor və bizim keçmiş gözəl tələbələrimizdən biri olan Əzizxan Tanrıverdi yaradıcılıq üçün məhdud sahə ilə kifayətlənməsə də, hər halda, şərəfli və çətin bir sahə olan dil tarixinin tədqiqi məsələlərinə daha çox meyilli və maraqlı bir dilçi alim-filoloqdur. Hətta "Dəli Kür"ün dilindən bəhs edən kitabında da dilimizin tarixinə müraciət etmədən keçməmişdir.

Əzizxan az vaxtda xeyli kitab yazıb dilçiliyimizi zənginləşdirmişdir. O hələ daha çox, daha yeni kitabları ilə oxucularını sevindirə bilər. Onu yaradan Tanrı yaradıcılığının bu gözəl çağında - ömrünün 60 illiyi günlərində ona sağ can, yeni böyük uğurlar bəxş eləsin.

***25.06.2018***

***Rafiq Yusifoğlu***
*Şair, Azəraycan Respublikasının*
*Əməkdar mədəniyyət işçisi,*
*filologiya elmləri doktoru,*
*professor*

## ƏZİZXAN TANRIVERDİ -60

Əzizxan Tanrıverdini ADPU-da dərs dediyim illərdə tanımışam. Əvvəlcə ünsiyyətimiz sadəcə salamlaşmaqdan o tərəfə keçməyib. Ancaq bir dəfə necə oldusa, onunla atüstü bir söhbətimiz alındı və mənə at kultu haqqında bir kitab bağışladı Əzizxan müəllim. Adama o qədər kitab bağışlayan olur ki, ancaq etiraf edim ki, onların çoxunu heç oxumuram da, ən yaxşı halda vərəqləyib qoyuram bir kənara… Bəlkə də, Əzizxan müəllimin mənə bağışladığı o kitabı da heç oxumayacaqdım… Ancaq söhbət əsnasında onun fikirlərini detallarla əsaslandırmağa çalışması mənim xoşuma gəldi… Kitabını vərəqlədim ki, görüm bu cəhət təsadüfi bir söhbətdi, yoxsa doğrudanmı Əzizxan Tanrıverdi öz mülahizəlrini səciyyəvi dil faktları üzərində qurmağı bacaran bir bir alimdir?

Mənə bağışlanan həmin kitabda olan fikirlər aydın şəkildə göstərdi ki, Əzizxan müəllimin diqqətimi çəkən ilk mülahizəsi xoşbəxt bir təsadüfin nəticəsi deyilmiş…

Bundan sonra mühazirəarası tənəffüslərdə söhbətləşdikcə bir-birimizə yaxınlaşdıq, doğmalaşdıq… Bizi bir-birimizə yaxınlaşdıran dilimizin incəlikləri ilə bağlı söhbətlərimiz idisə, sonra bu atüstü söhbətləri tarixi şəxsiyyətlərlə, müəllimlərimiz İsmayıl Şıxlı, Ə.Dəmirçizadə, dastan qəhrəmanlarımız Dədə Qorqud, Dirsə xan, Qazan xan, Beyrək, Uruz, Koroğlu, Eyvaz, Dəli Həsən və başqaları ilə bağlı ortaq mülahizələr mərhələ-mərhələ tamamladı və bu proses indi də davam etməkdədir.

İsmayıl Şıxlı, Dədə Qorqud haqqında yazılmış kitablarını oxuduqca Əzizxan müəllimin elmi təfəkkürü, materiala yanaşma

tərzi, təhlil manerası xoşuma gəldi və bir də ayıldım ki, onun kitabları haqqında «Dəli Kür haqqında ağıllı tədqiqat», «İlahi sözün işığında və yaxud məna ocağının közləri» adlı məqalələr də yazmışam…

Əzizxan müəllimin mənim istər bədii, istərsə də elmi yaradıcılığıma göstərdiyi maraq, şeirlərim, elmi mülahizələrim haqda söylədiyi orijinal, heç kəsin indiyə qədər demədiyi fikirlər məni ona bir az da yaxınlaşdırdı. Əsərlərində, məqalələrində yaradıcılıq nümunələrimə ara-sıra istinadı ilə kifayətlənməyən Əzizxan Tanrıverdinin haqqımda yazıb çap etdirdyi «Dilçiliklə döyünən şair ürəyi» və «Sevgi əzabıyla inildəyəndə» adlı məqalələr həm ədəbi ictimaiyyət, həm də oxucular tərəfindən maraqla qarşılandı… Qəzetlərin saytlarında bu məqalələri oxuyanların indiki dövr üçün fantastik dərəcədə çoxluğu məni heyrətləndirdi…

...Ömrə gələn illər həm də ömürdən gedən illərdir əslində… 60 il Əzizxan Tanrıverdinin ömrünə gəldiyi kimi, 60 il də ömründən gedib… İlin-günün, dünyanın gözəlləşən bu vədəsində hələ yaşamağa, yaratmağa dəyər! Əzizxan müəllimin hələ başqalarının görə bilməyəcəyi o qədər işləri var ki, qarşıda! Allah uzun, sağlam və məhsuldar ömür versin Əzizxan Tanrıverdiyə!

Alim qardaşımı öz 60 yaşımda yazdığım şeirlə təbrik edir, ona can sağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayıram!

**Şükür sənə, ulu Tanrım,**
**Məni yetirdin altmışa.**
**Hey uçuram gələcəyə**
**Dönüb bir qanadlı quşa.**

**Əlçatmaz bir zirvə kimi**
**Adını əzizləmişəm.**
**Durub sənin yollarını**
**Bu vaxtacan gözləmişəm.**

**Yenə düşüb dəli könlüm**
**Gözəlliyin həvəsinə.**
**Qəlbimdə bahar gəlmişəm**
**Ömrün qarlı zirvəsinə.**

**Mən zülmətin arasından**
**Süzülən işıq kimiyəm.**
**Saçlarım bəmbəyaz qardı,**
**Özümsə uşaq kimiyəm.**

**Ağrılardan sıyrılıb,**
**Muradına çatmışım –**
**Altmışım!**
**Dadmalını dadmışım,**
**Atmalını atmışım –**
**Altmışım!**

***Mahmud ALLAHMANLI***
*filologiya üzrə elmlər doktoru, professor*

## DOST MƏKTUBU... DEYƏ BİLMƏDİKLƏRİM SİLSİLƏSİNDƏN
***(professor Əzizxan Tanrıverdiyə)***

Çox hörmətli Əzizxan müəllim! Sizin altmış yaşa çatmağınız haqqında duyğularımı, içimdə qırx il boyu formalaşmış qənaətlərimi bölüşmək fikrindəyəm. Ancaq təxminən iki aydan çoxdur ki, bir yana çıxara bilmirəm. Janrını, üslubunu tapmağım müşkülə çevrilibdir. Bunun isə bircə səbəbi var və o da Sizə olan böyük münasibətin, səmimiyyətin nəticəsidir. Sənə olan yaxınlığım, sonsuz rəğbətim, içimdə boy göstərən dostluq münasibəti bu çətinlikləri sıralayır. Daha doğrusu, deyəcəyim və Sizin xarakterinizdə gördüyüm, qibtə elədiyim dəyərlər təsəvvürlərimi yazıya gətirmək işində əngəlləyir. Mənə belə gəlir, Sizin kimi şəxslər və şəxsiyyətlər bütün zamanların, Adəmdən bu yana dünyaya göz açanların ehtiyac duyduqlarındandır. Çünki Siz zamanını qabaqlayanlardansınız və dünyanı bütün tərəfləri ilə duyub, dərk edənlərdənsiniz. Son olaraq içi olanlardansınız. Mənən ucasınız. Altmış ili bu ucalıqla yürümüsünüz və yürüməkdəsiniz!

Əzizxan müəllim, Sizinlə bağlantılarımın təxminən qırx ili tamam olur. Buna xalq arasında bir igidin ömrü də deyirlər. Siz Əzizxan Tanrıverdi isə altmış yaşa gəlib çatmışsınız, özü də şərəf, ləyaqət, insanlıq nümunəsi olaraq gəlib çatmışsınız. Mənim yaddaşımda tələbə Əzizxandan professor Əzizxan Tanrıverdiyə qədər qırx illik bir zaman kəsiyi var. Deyəcəyim isə bütün zaman kəsiklərində xarakterinizdə, davranış və hərəkətlərində gördüklərim kutsal dəyərlərlə bağlıdır. Daha doğrusu, Əzizxan Tanrıverdi öz geni, varlığı, vücudu, ruhu ilə etnosun genetik mənəvi yaddaşını ehtiva etmək gücündə olan az-az şəxsiyyətlərdəndir.

Müəyyən vaxtlarda Sizinlə bağlı qənaətlərimi bölüşmək istəyim olub və bunları bir çox hallarda reallaşdırmışam, yazıya gətirmişəm. Əsasən isə kitablarınızı oxuduqdan sonra düşüncələriniz, xalqımızın mədəni-tarixi, etnokulturoloji təsəvvürləri ilə bağlı qənaətləriniz içimdə sözə, qənaətlərimi bölüşməyə ehtiyac yaradıbdı. Çünki etnomilli dəyərlərə vurğunluğunuz çoxlaylı məsələ kimi ruhunuza hakim kəsilmiş və içinizdə, ruhunuzda, varlığınızda kodlaşmışdır. Onlar isə bir istiqamətdə sevindiricidir ki, Azərbaycan Dövlət Pedaqoji Universitetinin auditoriyalarında azərbaycanlı balalarına aşılanır, obalarımıza, ellərimizə daşınır və tələbələriniz vasitəsilə bir dəyər, kutsallıq kimi yaşarılıq qazanır. Azərbaycanımızın elə bir kəndi, oba- oymağı yoxdur ki, oralarda Sizin aşıladığınız mənəvi-əxlaqi keyfiyyətlər boy göstərməsin. Hələ mən Azərbaycanımızı deyirəm, ondan kənarda da bu kutsallıq dolaşmaqdadır. Müəllim kimi etdikləriniz timsalında bunları deyirəm. Çünki Siz sözün həqiqi mənasında xalqın təsəvvüründə oturuşmuş anlamda Xalq müəlimisiniz. Auditoriyaya girməyiniz, tələbələrlə davranışınız, can yanğınız, tələbə sevginiz, universitet dəhlizlərindəki görünüş və rəftarınız, millətə vurğunluğunuz, nə varsa, hamısı nümunədir. İftixarvericidir.

Hörmətli Əzizxan müəllim! Bəlkə, demək istədiklərimin çox az bir hissəsini dilə gətirmək gücündəyəm. Bu, o demək deyil ki, demək istəmirəm. Elə deyil, sadəcə olaraq, onları deməyə, bəlkə də, yazı gücüm çatmır. İçimdə olanlar isə ruhani gücün miqyasındadır. Bizim bir-birimizlə çoxlu söhbətlərimiz, fikir bölüşdürməyimiz olub və Sizin dediklərinizlə mən içimi rahatlamışam. Bir növ, qənaətləriniz mənim üçün, sönrakı addımlarım üçün əsas olubdur. Çünki Sizin və Sizin kimilərin içi o qədər şəffaf və xoş duyğularla, ruhani ucalıqla doludur ki, ondan faydalananların yolu açıq olur. Daha doğrusu, Sizin dediklərinizlə dünyanın o başına da getmək olar. Bunlar isə İlahinin bir payıdır ki, Sizə verilibdir.

Əzizxan müəllim, demək istədiklərim bir istiqamətdə kitablarınızla, yazılarınızla bağlıdır. O kitablarda tarix və insan-

lıq anlamında nələr yoxdur. Türkün min illər boyu yaratdığı cahanşümul düşüncə Sizin kitablarınızın ruhunda, mahiyyətində söz-söz, cümlə-cümlə, səhifə-səhifə daşınır. O kitablar milli-mənəvi dəyərlərə vurğunluğun nümunəsidir. Ehtiva etdiyi məzmun yaddaşı isə insanlığın yaşı qədərdir. Qədim türk abidələri, “Kitabi-Dədə Qorqud”, “Koroğlu” haqqında araşdırmalarınızı hələ əlyazmaya gəlincəyə qədər söhbətlərinizdə eşidib, yaddaşıma yığmışam. Sonra əlyazma halında oxumuşam. Kitab variantını isə oxumaq azdı, bəlkə də, içmişəm, bir badə kimi başıma çəkmişəm. İsmayıl Şıxlı, Afad Qurbanov haqqında son dövrlərdə çıxan kitablarınız bir tarixdir. Bu, Sizin müasirlərimiz və gələck nəsillər üçün örnək olmaq missiyanızdır.

Hörmətli Əzizxan müəllim! Siz “Kitabi-Dədə Qorqud” dastanından yazmaqla Qorqudlaşdınız, Dədələşdiniz, “Koroğlu” dastanından yazdınız Koroğlulaşdınız. Türkün və türklüyün iftixar yerinə çevrildiniz. Ola bilər, zamanın dolaşıqlığında elə də dərk olunmayasınız, ancaq reallıq belədir. Zaman keçdikcə bu dərk olunacaq bir həqiqətdir. Sizin içinizdən türkün nəsil-nəsil min illərə yol yoldaşı olan ruhu keçir. Siz onunla nizamlanırsınız, onunla ucalırsınız. Altmış yaşa belə gəlmişsiniz və bundan sonra da belə gedəcəksiniz. Yolunuz xeyirə, Əzizxan müəllim! Mənim tələbə həmkarım, müəllim yoldaşım, əqidə dostum, düşüncə qardaşım. Sizdən gözləntilərim, umacaqlarım çoxdur. Yazın, yaradın, qoy ellərimiz, xalqımız, gələcək nəsillərimiz Sizin düşüncələrinizdən faydalansın. Sizə ehtiyacımız çoxdur!..

*Yaqub Babayev*
*filologiya üzrə elmlər doktoru, professor*

## BAHARDA DOST OLDUĞUM BAHAR NƏFƏSLİ İNSAN

1985-ci ilin may ayı idi. Bu, baharın ən gözəl çağıdır. Təkcə təbiətin, həyatın deyil, insan qəlbinin də oyanmış çağı, gül-çiçəkli, barlı-bərəkətli vaxtıdır. Həmin bu gözəl çağda mən "Kommunist" qəzetində (o zamankı mətbuat orqanlarından ictimai-siyasi cəhətdən ən nüfuzlusu) dərc olunmuş elan əsasında sənədlərimi V.İ.Lenin adına ADPİ-nin (indiki ADPU-nun) əyani aspiranturasına verdim. Yadımdadır, həmin il ADPİ-yə beş ixtisas üzrə əyani aspirantura üçün yer verilmişdi. Bu ixtisaslar aşağıdakılar idi: dilçilik, fizika, pedaqogika, folklor və SSRİ xalqalrı ədəbiyyatı (Azərbaycan ədəbiyyatı).

Sovet dövründə rus ədəbiyyatı ( "böyük qardaşımızın" ədəbiyyatı) ayrıca indeks olduğu halda, qalan xalqları (SSRİ-də yaşayan müttəfiq respublikaların xalqları nəzərdə tutulur) bir indeks (əslində, şapka) altına toplamışdılar: SSRİ xalqları ədəbiyyatı. Azərbaycan ədəbiyyatı da həmin şapkanın altında idi. Mən də sənədlərimi bu ixtisasa verdim. May ayının gözəl, həm də unudulmaz günləri idi. Biz, yəni müxtəlif ixtisaslar üzrə aspiranturaya sənəd verənlər hər birimiz üç fəndən imtahan verməli idik: İxtisas fənnindən, xarici dildən və Sovet İKP tarixindən. İlk imtahan ixtisas fənnindən idi. Bunu hər birimiz ayrıca müvafiq kafedranın müəllimləri qarşısında verdik. Ancaq sonrakı iki imtahanı birlikdə verməli idik. Təbii ki, hər birimiz öz imkanımız daxilində imtahanlara ciddi şəkildə hazırlaşırdıq. Hazırlıq prosesində bir-birimizlə ünsiyyətə başladıq. Tanış olduq. Yenicə tanış olduğum gələcək alimlər sıarasında ortaboylu, çevik, zirək, hazırcavab, sərrast nitqə malik, fəsahətli nitqə malik, məntiqli və savadlı danışığı ilə diqqəti cəlb edən, xoşüzlü, şirinsözlü, səmimi bir insan da var idi. Bu, gələcəyin

tanınmış dilçi alimlərindən olan Əzizxan Tanrıverdi idi. Sovet İKP tarixi fənnindən qəbul imtahanında Əzizxanla eyni vaxtda bilet çəkdik. Əzizxanın dolğun, məzmunlu danışığı, suallara verdiyi sərrast cavablar indi də mənim yadımdadır.

(Heyif, Əzizxan müəllim də, mən də, başqa yoldaşlarımız da belə bir sabun köpüyünə bənzər fənnə çox vaxt sərf edib onu öyrənməli olmuşduq). Əzizxan müəllim elə o vaxtdan diqqətimi cəlb etdi. Hər ixtisas üzrə aspiranturaya əyani bir nəfər qəbul edildi. Cəmi beş nəfər idik: Əzizxan (dilçilik), Rasim (fizika), Fərrux (pedaqogika), Qüdrət (folklor) və mən (Azərbaycan ədəbiyyatı-SSRİ xalqları ədəbiyyatı).

Əzizxan müəllim elə o vaxtdan özünün çevikliyi, elmi potensialı, yüksək intellekti, səmimiyyəti, həqiqəti demək bacarığı, sağlam və elmi polemikaya girişmək səriştəsilə diqqəti cəlb edirdi. O, dissertasiyası üzərində çevik bir elmi eridusiya, həm də məsuliyyətlə işləyirdi. Nəticədə, namizədlik dissertasiyasını bizim hamımızdan tez tamamladı. O zaman əyani aspirantura üç il idi. Halbuki Əzizxan müəllim təxminən il yarıma artıq işini yekunlaşdırmışdı. Bu, onun elmə marağının, həvəsinin, məsuliyyətinin, çevikliyinin aydın göstəricisi idi. Çox keçmədən, yəni vaxtından əvvəl Əzizxan müəllim alimlik kürsüsünə də çıxdı. Namizədlik dissertasiyasını müdafiə edib “Filologiya elmlər namizədi” alimlik dərəcəsi aldı. Ancaq işini bununla bitmiş hesab etmədi. Bünövrəsini qoyduğu bu elmi cığırı daha da genişləndirdi, doktorluq mövzusu götürüb cəmi bir neçə ilə dilçilik elmimiz üçün gərəkli bir tədqiqat işi ortalığa qoydu. Fəqət AAK-da çək-çevirlər, maneələr, əngəllər, get-gəllər başladı. Əzizxan müəllim bəzi “namübarək üzlər görüb namülayim sözlər” eşitdi. Amma bu maneələr gənc və istedadlı alimi ruhdan salmadı. Daha da bərkitdi, mətinləşdirdi, mübariz etdi. Ulu babalarımız yaxşı deyiblər: “Həqiqət nazilər, amma üzülməz”. Əzizxan müəllimin də üzləşdiyi ədalətsizlik onun alim həqiqətini nə qədər incələşdirsə də, üzə bilmədi. Onu daha da zərif, gözəl və ləyaqətli etdi. Nəhayət, həqiqət qalib gəldi. O, doktorluq dissertasiyası müdafiə edərək “Filologiya elmləri

doktoru" alimlik dərəcəsi aldı. Çünki bu onun qanuni mənəvi və elmi haqqı idi.

Mən bu gözəl alimin almimlik məziyyətləri barədə geniş danışmaq istəmirəm. Bunu hamı bilir. Atalar yaxşı deyib ki, görünən dağa nə bələdçi? Əzizxan müəllimin gördüyü işlər göz önündədir. Bunlar yüzlərlə məqalələrlə, nə qədər monoqrafiya, dərslik və dərs vəsaitləri ilə ölçülür. Bu istedadlı alimin çap olunmuş hər bir kitabı filologiya elmimiz üçün uğurlu bir töhfə sayıla bilər.

Mən bir az da dost Əzizxandan danışmaq istəyirəm. Bizim onunla 1985-ci iln mayında başlayan tanışlığımız tədricən böyüdü, yeni-yeni cəmiyyət çalarları ilə zənginləşdirdi və nəhayət, münasibətlər məcrasının müəyyən axarında dostluğa çevrildi. Bir dost kimi onun xarakterində məni qane edən bir çox cəhətlər vardır. Həqiqətpərəstlik, doğruluq, sözü üzə demək bacarığı, səmimiyyət, riya və məkrdən uzaqlıq, ünsiyyət yaratmaq və onu qoruya bilmək bacarığı bu cəhətlərin önündə gəlir.

Biz Əzizxan müəllimlə 1985-ci ilin xoş bir bahar günündə tanış olduq. Tədricən onu yaxından tanıdıqca mən şahid oldum ki, bu tanınmış ziyalının, nəcib insanın alimliyi də, insanlığı da elə bahar kimidir. Onun təbiətində də, elmində də, şəxsiyyətində də bir təravəti vardır.

Əzizxan müəllim həm də mənim həmyaşıdımdır. Mən 1958-ci ilin 12 oktyabrında, o isə həmin ilin noyabrında (bəlkə, tarix azacıq sağa-sola olsun) doğulub. Deməli, biz hər ikimiz payızın - xəzan çağının övladıyıq. İndi ömrümüzün də xəzan çağıdır. Ancaq Əzizxan müəllimin (mən özümü deyə bilmərəm) ömrü, həyatı, nəfəsi bahar təravətlidir.

Mən bahar nəfəsli dostumu ömrünün 60-cı ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

***Şöhrət Bədəlov,***
***Filologiya üzrə fəlsəfə doktoru***

## AZƏRBAYCAN DİLÇİLİK ELMİNİN ƏZMKAR TƏDQİQATÇISI

Və günün birində telefondakı doğma olduğu qədər tanış olan səsin bəyani – mükərrəməsi qəlbimdə uzaq illərin saflıq və sidqiyyətindən qəliblənmiş o girami «güzgü»nü çilik - çilik etdi: «Altmış illiyə dair xüsusi nəşr nəzərdə tutulub, göndərəcəyin bir şey varsa, yubatma». Və məişət planındakı bəlli məzmunlu hal - əhvalla söhbəti tamamladıq.

Deməli, qocalığın «çağırış vərəqəsi»ni imzalamağın vaxtı gəlib çatdı. Səssiz-səmirsiz iş otağıma keçib tələbəlik illərinin yadigarı olan ağ-qara fotoları masamın üstünə yığdım. Təmənnasız səmimiyyətin bu cansız şəkillərdəki gözəlliyinə doyunca tamaşa etdim. Həmin vaxtın o günlərdəki məhz o anını bəlli xatırlaya bilmədiyim o bəxtəvər gülüşlərlə baş-başa qalırkən ömrün nə demək olduğunu bir daha dərk edə bildim. Belə ki, o anların yalnız Əzizxan Tanrıverdisi deyil, ümumilikdə həmin anların məkan və zaman ehtimalları ilə bu fotolardakı gənclərin nə düşündükləri və bu anda nədən bəhs etdikləri və bu kontekstdə kimin daha çox haqlı olduğunu bu cansız (əslində, mənə görə bu an yanımdaymışlar kimi onların hər biri canlıdır) fotoməzmunda təyin etməyə çalışsam da, bu əziz simaların hər birinin haqlı olduğu qənaətinə üstünlük verdim. Ona görə ki, yaşımızın o çağlarında hər birimiz həyatımızın hələ irəlidə olması məntiqi ilə düşünürdük. Bu düşüncənin məhz bu konteksti-altmış yaşın altmışıncı pilləsindən necə görünməsini, yəqin ki, Əzizxanın qəlb aynasından baxılarsa, onun hansı hisslər keçirdiyini fəqət bu zəmindən təyin etmək mümkün olardı.

Yaxşı bilirəm ki, bu yubileylə bağlı elm adamları-tələbə yoldaşlarımız, alim dostlarımız, Əzizxan Tanrı-verdinin öz

tələbələri və müxtəlif ixtisaslardan olan qələm sahibləri təbrik məzmunlu münasibətlərini bidirməklə yubileyin səbəbkarına könüldən gələn diləklərlə müraciət edəcəklər. Şübhəsiz ki, bu təbriklərin hər biri ayrı-ayrılıqda özünün məzmun səmimiyyəti və ünsiyyət çevrəsinin məhrəmlik leytmotivi baxımından, eyni zaman-da dostların öz baxış bucağından baxılırkən görünən professor Əzizxan Tanrıverdiyə olan münasibətlər kontekstindən daha çox yaddaşlarda iz qoya biləcəkdir. Bu mənada həm tələbəlik, həm də elmi pedaqoji fəaliyyət çağlarından bahəm və birgə keçdikləri bu şərəfli yolda, şübhəsiz ki, professor Təyyar Salamoğlunun Əzizxan Tanrıverdinin pedaqoji fəaliyyətinə və eləcə də yaradıcılığına verdiyi elmi konseptual qiymət fikrimizin təsdiqi baxımından məxsusi faktorallıqla diqqəti cəlb edə bilir: «Prof. Əzizxan Tanrıverdi dil tarixçisidir. «Kitabi – Dədə Qorqud»un söz dünyası», «Poeziyanın dili, dilin poeziyası», «Azərbaycan dilinin tarixi qrammatikası», «Türk mənşəli Azərbaycan şəxs adlarının tarixi-linqivistik tədqiqi» monoqrafiyaları onu bu sahədə nüfuzlu mütəxəssis kimi tanıtmışdır. Söhbət ondan gedir ki, Əzizxan Tanrıverdi Azərbaycan ədəbi dilinin və bədii dilin inkişaf tarixinə yaxşı bələddir».

Bu elmi münasibəti aşırı olaraq tələbə yoldaşlarım – professor Elman Quluyevin, professor Sayalı Sadıqovanın, professor Mahmud Allahmanlının söhbətlərində səciyyəvi uyarlıqla tam açıq-aydın və doğru-dürüst izləmişəm. Söz yox ki, «ayın aydınlığı gecənin qaranlığından bəllidir» və bu, özünün əhatə səmimiyyətinə görə, həm də uzun illərlə tarixin müxtəlif sınaqlarından alnıaçıq və üzüağ çıxa bilmişdir.

Məncə, bütün yubileylərin nostaljisi eyni «qan qrup»una malikdir. Belə ki, vida yaşanılmış və artıq ömürdən getmiş və bir daha heç vaxt qayıtmayacaq anların, günlərin, ayların və illərin əziz və girami çağlarına verilən salam olmaqla, yenidən torparlanmanın, bir daha edilmiş və ediləcək, görülmüş və görüləcək, unudulmuş və yenidən xatırlanacaq anların, saatların və bütünlüklə ömür çağlarının möhtəşəm seremoniyasından qeyri bir şey deyil. Etiraf edim ki, bu «ömür çağları» deyimindən

sonra hansısa ifadə etmək istədiyim, lakin kəsdirə bilmədiyim fikrə xatir fasiləyə məcbur oldum. Lakin axtardığım hər nəsə nə sözə baxıdı, nə yada düşdü. Yenidən kitabları vərəqləməli oldum və «Dəli Kür romanının poetik dili» monoqrafiyasında «... anam Mahilənin inək sağarkən söylədiyi eydirmələri dinlədiyim çağları xatırladım, ruhum dincəldi» bioqrafik obrazlı təqdimatını ipucu olaraq «aşıqlaya» bildim.

Bu baxımdan professor Əzizxan Tanrıverdinin yubileyi, əslində, bizim buraxılışın xatirə-görüş seremo-niyası kimi mündəricə kəsb etməsinə görə səciyyəvi məzmun tarixinə malik tədbirlərdən olmaqla bir hikmət və eyni zamanda hər birimizin yubiley tədbiridir desək, yəqin ki səhv etmərik.Belə ki, tələbəlik illərini yada salırkən ən çox dostyanalıq, qayğıkeşlik və daha çox təəssübkeşlik ovqatına malik olan özünün səmimiyyəti ilə, demək olar ki, bütün tələbə yoldaşlarımızın tanıdığı və bəlli bildiyi Əzizxan bu gün də dəyişməmiş sadaladığımız səciyyəvi keyfiyyətlərini mühafizə edə bilmişdir.

Əzizxan Tanrıverdinin yaradıcılığı barədə ilk dəfə yazmıram və əminəm ki, daha sonrakı dəfələrdə yazacaqlarımız tanınmış bir elm adamı olmaqla məhsuldar tədqiqatçı alimin Azərbaycan dilçilik elminin daha dərin və aktual problemlərinə işıq tutacaq kitab və monoqrafiyaları ilə elmi fikir tariximizin yeni səhifələrinin uğurları və eləcə də aktuallıq mündəricəsi baxımından türkologiya elminin və dilçilik tariximizin yeni səhifələri ilə tanış olmaqla daha miqyaslı uğurları izləyə biləcəyik.

Respublikamızın tanınmış dilçi alimi, gözəl pedaqoq, səriştə və təcrübəsi ilə dilçiliyimizin elmi fikir və tədqiqatlar tarixində xüsusi dəst-xət sahibi olan professor Əzizxan Tanrverdini Əziz Dost Məhəbbəti və Sevgisi ilə halal səmimiyyətlə Altmış İllik Yubleyi münasibəti ilə Təbrik edirəm.

***Mirvari İsmayılova***
***filologiya elmləri doktoru,***
***professor***

## DİLÇİLİYİMİZİN QORQUDŞÜNASI VƏ DİL TARİXÇİSİ

*(Tələbə yoldaşım, həmkarım Əzizxan Tanrıverdi)*

XX əsrin sonlarından etibarən neft oyanışı ilə bağlı dünyanın türklərin ilk vətəni, ana yurdu Azərbaycan faktoruna marağı artdı. Azərbaycanda bir çox dövlətlərin iştirakı ilə "Əsrin müqaviləsi"nin imzalanması ilə qədim Odlar yurdunda yeni neft erası başlandı. 1996-cı ildə Xəzər dənizində qazma işi aparan qurğulardan birinə "Dədə Qorqud" adı verildi. Bu hadisə böyük rəmzi məna daşıyırdı.

"Kitabi-Dədə Qorqud" Qafqazdan sonsuza qədər şəfəq saçan uca bir abidə, milli-mənəvi dəyərlərimizin, dilimizin, tariximizin, mənşəyimizin salnaməsi, yüksək bəşəri idealların tərənnümçüsü kimi dünyanın mənəvi sərvətlər xəzinəsinin qiymətli incilərindəndir. Elə bu səbəbdən 200 ildən çox tədqiq tarixi olan "Kitabi-Dədə Qorqud" dastanının öyrənilməsinə qadağalar qoyulduğu, tədqiqatçılarının təqib edildiyi vaxtlarda da, indi də onun öyrənilməsinə həm xaricdə, həm də ölkəmizdə yüzlərlə monoqrafiyalar, kitablar yazılmışdır. Bu sahədə yeni söz demək, yeni tədqiqat obyekti seçmək elə də asan deyil. Bu, tədqiqatçıdan hərtərəfli bilik, geniş erudisiya, böyük cəsarət, əzmkarlıq tələb edir. Digər tərəfdən, "Kitabi-Dədə Qorqud" dastanı elə bir ümmandır ki, sözü-söhbəti, sirri, tədqiqat obyektləri bitib-tükənmir, öyrəndikcə yeni oxunmamış səhifələr, qatlar üzə çıxır, tədqiqatçını daha dərinliklərə baş vurmağa sövq edir. Məhz bu sehr, möcüzə Əzizxan Tanrıverdini ovsunlayaraq onu bu mövzuda biri digərinin ardınca, amma çox müxtəlif səpgidə 10-dan çox əsəri elmi ictimaiyyətə təqdim etməyə imkan yaratmışdır.

Əzizxan Tanrıverdi müasir dövrümüzdə Azərbaycan dilçiliyinin istedadlı alimi, Qorqudşünas, dil tarixçisi filologiya üzrə elmlər doktoru, professordur.

Əzizxan Tanrıverdi API-nin (indiki ADPU-nun) keçən əsrin 80-ci illər məzunlarındandır. Daha doğrusu, 1981-ci il məzunudur. Məhz 1981-ci buraxılışının məzunları hal-hazırda Aazərbaycan filologiyasının aparıcı alimləri, sanballı elmi tədqiqat işlərinin müəllifləri, filologiya üzrə elmlər doktorları, professorlarıdır. Onlar Azərbaycan dilçiliyinin, türkologiyasının, ədəbiyyatşünaslığının, ədəbi tənqidinin, folklorunun və s. ağırlığını öz çiyinlərində daşı-yırlar (f.ü.e.d., prof., Əzizxan Tanrıverdi, f.ü.e.d., prof.,Təyyar Salamoğlu, f.ü.e.d., prof., Şamil Vəliyev, f.ü.e.d., prof., Elman Quliyev, f.ü.e.d., prof., Sayalı Sadıqova, f.ü.e.d., prof., Mahirə Hüseynova, f.ü.f.d., dos., Rəhilə Hümmətova, f.ü.f.d., Atəş Əhməd-ov).

Əslində, bu nəslin nümayəndələri öz sələflərinin dediyi kimi müəllimlərinin xahişi və təkidi ilə deyil, daha çox öz arzu və istəkləri ilə elm aləminə sevgi ilə qədəm qoymuşlar. Əlbəttə, bu sevgini onların qəlbində unudulmaz müəllimləri, elm korifeyləri Ə.Dəmirçizadə, İ.Şıxlı, A.Qurbanov, H.Mirzəyev, Q.Kazımov, N.Xudiyev, C.Cəfərov, H.Balıyev yaratmışdır. Indi də onlara istinad edir, onlardan öyrənirik.

XX əsrin son onilliklərindən etibarən indiyə kimi olan dövrü Azərbaycan elminin intibah dövrü saymaq oar. Bu həm də böyük təlatümlər dövrü idi. Yenidən müstəqillik qazandıqdan sonra tarix boyu siyasi mübarizələrin strateji mərkəzi sayılan Azərbaycanda diqqəti azadlıq uğrunda mübarizədən yayındırmaq üçün lokal və regional münaqişə ocaqları yaradıldı. Lakin heç nə xalqın azadlıq arzusunun qarşısını ala bilmədi. Dünya xəritəsinə müstəqil dövlətinin bayrağını sancmış Azərbaycandan bu müstəqilliyi əbədiləşdirmək üçün böyük səy tələb olunurdu.

Tarixi həqiqətləri üzə çıxarmaq, bədxah qonşuların niyyətlərini ifşa etmək, milli kimliyini sübut etmək üçün Azərbaycan tarixinin, dilinin bir çox məsələlərinin yenidən yazılması bir zərurətə çevrildi. Azərbaycan xalqının, dilinin, mənşəyinin

öyrənilməsi, tarixi həqiqətlərin aşkara çıxarılması üçün ciddi araşdırmalar tələb olunurdu. Zəngin tarixi keçmişi olan dilin tarixini müxtəlif aspektlərdə araşdıran çox qiymətli tədqiqat işləri məhz bu dövrün məhsuludur. Belə əsərlərdən biri də Əzizxan Tanrıverdinin "Azərbaycan dilinin tarixi qrammatikası" (Bakı, 2010) dərsliyidir.

H.Mirzəzadənin "Azərbaycan dilini tarixi qrammatikası"ndan sonra yaranmış boşluğu dolduran bu dərslik elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı. Dərslik Azərbaycan dilinin tarixinə aid yeni elmi tədqiqat işlərinin əsasında yazılmışdır. "Azərbaycan dilinin tarixinə dair", "Azərbaycan dili tarixinin mənbələri" bölmələri yeni elmi faktlara istinadən işlənmişdir. Müəllif göstərir ki, Azərbaycan dilini, tarixini öyrənmək üçün Şumer dili və ona aid mətnlər mühüm əhəmiyyət kəsb edir. Dilin tarixini öyrənmək üçün istinad edilən digər mənbələr ("Orxon-Yenisey abidələri", M.Kaşğarinin "Divani lüğət-it-türk" əsəri, "Kitabi-Dədə Qorqud", Azərbaycan şifahi və yazılı ədəbiyyatı nümunələri) yeni elmi baxış bucağından təhlil edilərək təqdim olunmuşdur. Dərslikdə verilmiş "Kitabi-Dədə Qorqud"da «Dilin funksiyaları» bölməsi də diqqəti cəlb edir. Müəllif özü bu mövzuya xüsusi önəm verərək yazır: "Türkologiyada "Kitab"ın fonetik, leksik-semantik, onomastik və qrammatik sistemi geniş şəkildə tədqiq edilsə də, dilin funksiyaları, xüsusən də ictimai (sosial) funksiyaları sosiolinqvistik baxımından araşdırılmayıb." Əzizxan Tanrıverdi "Kitabi-Dədə Qorqud"da dilin funksiyalarının ümumi mənzərəsi kimi: 1) Dilin emotiv funksiyası; 2) Dilin apelyativ funksiyası; 3) Dilin konativ funksiyası; 4) Dilin fatik funksiyası; 5) Dilin referent funksiyasını göstərir. Ə.Tanrıverdi bu funksiyalar əsasında "Kitabi-Dədə Qorqud" da Oğuz türklərinin bütövlükdə fəlsəfi dünyagörüşünü, dövlətçilik tarixini, həyat tərzini, yəni "Oğuz cəmiyyyətinin siyasi idarəçilik sistemini, Oğuz elinin təbiəti, onun əsrarəngiz gözəlliyini, coğrafi koordinatlarını, igidlərininn döyüşkənliyini və məğlubedilməzliyini, ticarət əlaqələrini" müəyyən etmək imkanını artırır.

Ə.Tanrıverdi yaradıcılıq diapazonu geniş alimdir. Lakin ana kitabımız "Kitabi-Dədə Qorqud" dastanları haqqında əsərləri və "Azərbaycan dilinin tarixi qrammatikası" dərsliyi onun vizit kartıdır. O, "ustadımdır" deyən bir müəllim ordusu yetişdirmişdir. Sadə, ədalətli, eyni zamanda tələbkar, qətiyyətli, dosta sadiqlik kimi mənəvi keyfiyyətlərə malikdir. Əzizxan müəllim qədim türk elində, türk ruhunda böyümüşdür. Fikir verirsiz, soyadı da türk inamını, etiqadını, türk əqidəsini simvolizə edir. Deyirlər, insana verilən ad onun gələcəyində böyük rol oynayır. Əzizxan müəllimin soyadı onun hətta həyat yolunu müəyyən edib. Bu enişli-yoxuşlu, lakin şərəfli, onu əbədiyyətə qovuşduracaq həyat yolunda Əzizxan müəllimi daha önəmli, kəşf edilməmiş elmi zirvələr fəth etməyi arzulayıram.

*Məhərrəm Məmmədli*
*professor*

## DƏDƏ QORQUD NURLU ALİM

Əzizxan müəllimlə tanışlığım 1986-cı ildən başlayır. İlk dəfə "Kitablar aləmi"ndə məcmuəsinin redaksiyasında Sədulla müəllimin yanında tanış olduq. Həmin illərdə o, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, mən isə Nəsimi adına Dilçilik İnstitutunun əyani aspirantı idim. Söhbətimiz çox maraqlı oldu, tədqiqatımızdan, görəcəyimiz işlərdən, mənbələr barədə xeyli danışdıq. Sədulla müəllim də yazılarımıza baxıb, hər ikisini qəbul elədi və eyni nömrədə çap elədi. Həmin illərdə məcmüələr, elmi toplular az nəşr olunurdu. Məqalələrin qəbul olunmasına çox sevindik və bundan sonra dostluğumuz və elmi əlaqələrimiz başladı. Dostlarımızla müqayisədə Əzizxan müəllim çox çalışırdı, aspirantura müddəti başa çatmamış, 18 ay ərzində dissertasiyanı tamamlayıb rəhbəri prof. A.Qurbanova təhvil verdi. Beləliklə, o, dostlarından, yaşıdlarından əvvəl dissertasiyanı müdafiə eləyib, filologiya elmləri namizədi elmi dərəcəsi aldı. Bu, onun üçün bir stimul oldu, tezliklə doktorluq dissertasiyasının mövzusunu tədqiq etməyə başladı. Qarşısına qoyduğu məqsədə tezliklə nail oldu və filologiya elmləri doktoru adını qazandı.

İndi də Əzizxan müəllimlə tez-tez görüşür, hal-əhval tutur, bir-birimizə gördüyümüz işlər barədə hesabat veririk. Onun vasitəsilə Pedaqoji Universitetdə çalışan elmdə öz dəsti-xəti, sözü olan alimlərlə tanış oldum, xeyli dostlar qazandım. Əzizxan müəllimin əksər kitablarının ilk oxucusu və rəyçisi olmuşam, təqdimat mərasimlərində iştirak etmişəm və mətbuatda öz fikirlərimi söyləmişəm. Hər dəfə görüşəndə xeyli məsələləri müzakirə edirik, fikir və mülahizələrimizi bölüşürük. Növbəti kitabın və ya məqalənin "bünövrəsini" qoyuruq. Tale elə gətirdi

ki, yaşıdım, ən yaxın həmkarımı 2006-cı ildə mənim doktorluq dissertasiyama rəsmi opponent təyin etdilər. Onun geniş və obyektiv rəyi şuranın üzvləri tərəfindən yüksək qiymətləndirildi. Söylədiyi haqlı iradları sonrakı tədqiqatlarımda öz yerini tutdu.

Əzizxan müəllim türk dünyasında dil tarixçisi kimi tanınır. Bu sahəyə dair, xüsusilə ana kitabımız olan "Kitabi-Dədə Qorqud" abidəsi ilə bağlı çoxsayda kitabların müəllifidir. Azərbaycan dilçiliyində H.Mirzəzadədən sonra dil tarixinə aid mükəmməl dərsliyin müəllifidir. Hazırda ali məktəblərin filologiya fakültələrində tələbələr bu fənni onun dərsliyindən öyrənirlər.

Əzizxan müəllim həm də təcrübəli pedaqoq, xeyirxah və qayğıkeş müəllim dir. Bütün tələbələrə, magistrlərə, doktorantlara eyni prizmadan yanaşır, məsləhətlərini verir, lazımi köməklik göstərir. Onunla ilk dəfə görüşəndə alimin səmimiliyinə, mehribanlığına, təvazökarlığına, az vaxtda gördüyü işlərə heyran qalırsan. BDU-nun Türkologiya kafedrası ilə müntəzəm əlaqə saxlayır, keçirilən müzakirələrdə və tədbirlərdə yaxından iştirak edir.

Əzizxan Tanrıverdi ömrünün yeddinci onilliyinə qədəm qoyur. Ona qarşıdakı illərdə ailəsi ilə birlikdə, dostlarının əhatəsində sağlam uzun ömür, elmi və pedaqoji fəaliyyətində uğurlar arzulayıram!

***Fərrux Rüstəmov,***
***ADPU-nun ibtidai təhsil fakültəsinin dekanı,***
***pedaqoji elmlər doktoru, professor,***
***Əməkdar elm xadimi***

## AĞAC KÖKLƏRİ İLƏ YAŞAR, İNSAN DOSTLARI İLƏ

Həyatımın 1978-ci ildən sonrakı dövrü ölkədə ali pedaqoji kadr hazırlığının beşiyi olan Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə bağlıdır. Burada tələbə, aspirant, laboratoriya və kafedra müdiri vəzifələrində işləmişəm. Namizədlik və dokturluq dissertasiyaları müdafiə etmişəm. Hazırda fakültə dekanı kimi fəaliyyət göstərirəm. Bu 40 ildə qədim elm və tədris məbədində onlarla insanla tanış olmuşam, münasibət qurmuşam, elmi məclislərində iştirak etmişəm, çoxları ilə eyni süfrəni bölüşmüşəm. Onların içərisində bu gün də dost deyə biləcəyim insanlar o qədər də çox olmayıb. Dostlarımın bir qismi dünyasını dəyişib, bir qismi yolunu, izini "dəyişib". Bizim dost itirən vaxtımız olmasa da, bəzi dostlarımızı itirmişik. Bir neçəsi də özü "itib". Tələbəlik illərindən tanıdığım, dost deyə müraciət etdiyim həmkarlarımdan biri də Əzizxan müəllimdir. Onunla ali məktəbdə təxminən eyni illərdə, müxtəlif fakültələrdə oxumuşuq. O, filologiya fakültəsində oxuyurdu, dərs əlaçısı, sinif nümayəndəsi, fəal komsomolçulardan biri idi. "Cəfər Cabbarlı" təqaüdü alırdı. Mən pedaqoji fakültədə oxuyurdum, fakültə TEC-nin sədri idim. "Lenin" təqaüdü alırdım. Tez-tez komsomol iclaslarında, universitet tədbirlərində, tələbə yataqxanasında görüşərdik. O, institutu bir il məndən əvvəl bitirərək Dəvəçi (indiki Şabran) rayonuna təyinat aldı. Bir il sonra mən Quba rayonunun Rəngidar kənd məktəbinə getməli oldum.

Əzizxan müəllimlə 1985-ci ilin yazında biz yenidən görüşdük. Hər ikimiz aspiranturaya sənəd vermişdik. Həmin il ikimiz də əyani aspiranturaya sənəd verdik. Mən pedaqogikanın tarixi

və nəzəriyyəsi ixtisasına qəbul olundum. O, isə Azərbaycan dilçiliyi ixtisasına qəbul olundu. Həmin ilin dekabr ayında ilyarım müddətinə hərbi xidmətə getdim. Əzizxan müəllim aspiranturada prof.Afad Qurbanovun rəhbərliyi ilə elmi araşdırmalara başladı, aradı-axtardı, yuxusuz geçələr, narahat gündüzlər yaşadı. Vaxtından xeyli əvvəl namizədlik dissertasiyası müdafiə etdi. Tədqiqatlarına ara vermədi, sistemli araşdırmaları ilə həmyaşıdları arasında fərqləndi, silsilə məqalələri, bir-birinin ardınca nəşr olunan monoqrafiyaları ilə dədəqorqudşünasların sırasında özünün layiqli yerini tutdu. Türk mənşəli Azərbaycan şəxs adlarını ilk dəfə sistemli şəkildə tarixi-linqvistik müstəvidə tədqiq etdi.

"Kitabi-Dədə Qorqud"dastanında şəxs adları, dağ kultu, at kultu, obrazlar sistemi, assonans və alliterosiya kimi məsələləri kompleks və sistemli şəkildə doktorluq dissertasiyası səviyyəsində araşdırdı. Filologiya elmləri doktoru kimi dilçilik sahəsində səlahiyyətli söz sahibinə çevrildi. Azərbaycan dilçiliyi kafedrasına professor vəzifəsinə seçildi. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının filologiya elmləri üzrə ekspert Şurasının və pedaqoji elmlər üzrə dissertasiya şurasının üzvü kimi elmi-pedaqoji kadr hazırlığında mühüm xidmətləri oldu. Təhsil İnstitutunda və ADPU-da fəaliyyət göstərən Dissertasiya Şuralarında birlikdə çalışdıq. 9 il ADPU-da fəaliyyət göstərən Dissertasiya Şurasına rəhbərlik etdiyim zaman Əzizxan müəllimdə yüksək insani keyfiyyətlərin şahidi oldum. Onun çıxışları həmişə maraqla qarşılanırdı. Elmi arqumentasiyalı və məntiqli çıxışları ilə diqqəti cəlb edirdi. Ciddi tənqidi fikirlərini elə peşəkarlıqlı ifadə edirdi ki, iddiaçının onları qəbul etməkdən başqa çıxış yolu qalmırdı.

Əzizxan müəllim respublika və beynəlxalq konfranslardakı çıxışları ilə də həmişə diqqət mərkəzində olub. Türk xalqlarının folkloru, onomastikası və ortaq əbədi abidələri ilə bağlı beynəlxalq konfranslarda (Türkiyə, Qazaxıstan, Özbəkistan) Azərbaycan elmini ləyaqətlə təmsil edib.

Geniş erudisiyası, nəzəri hazırlığı, fakt və hadisələrə münasibəti, dərin və elmi ümumiləşdirmələri, təşkilatçılıq qabiliyyəti

ilə seçilən Əzizxan müəllim artıq neçə illərdir ki, Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiridir. Prof.Ağamməd Abdullayevin əsasını qoyduğu bu kafedranın son illərdəki uğuru onun adı ilə bağlıdır. Azərbaycan dili və onun tədrisi metodikası kafedrası elmi potensialına görə Universitetimizin sayılıb-seçilən kafedralarından biridir. Kafedranın əməkdaşlarından 8 nəfəri elmlər elmlər doktoru, professor, 19 nəfəri fəlsəfə doktorudur. Kafedrada elmi və işgüzar mühitin yaradılması, müəllimlərin peşəkarlığının artırılması, elmi seminarların, dəyirmi masaların, tədris diskussiyaların sistemli şəkildə keçirilməsi onun bacarıqlı təhsil təşkilatçısı kimi uğurlarının ifadəsidir.

Əzizxan müəllim yerişi, duruşu, asta-asta danışığı, xeyirxalığı, təvazökarlığı ilə klassik kişiləri xatırladır. Əsl yazı-pozu adamıdır, heç kimin "bostanına daş atmaz", arxaslınca danışmaz. Kindən-küdurətdən, dedi-qodudan uzaq aqil bir insan ömrü yaşayır Əzizxan müəllim. Dədə Qorqud haqqında o qədər yazıb ki, özü də dədələşib, bir elin-elatın, obanın, nəslin ağsaqqalına çevrilib.

Əzizxan müəllim xoşbəxt insandır. Mayası saflıqdan, hallalıqdan, sevgidən, qarşılıqlı hörmət və ehtiramdan yoğrulan böyük bir ailənin başçısıdır. Millətə yüksək təhsil almış üç gözəl öğul bəxş edib: hər biri ata qəlbinin vüqarı, ata ocağının hərarəti, ağzının dadı, gözünün nuru, qolunun qüvvəti. Nəvələrini gözünün işığı qədər sevən babadır. Nüfuzlu alim, bacarıqlı kafedra müdiri və əsl dostdur. Budda deyirdi ki, ana öz uşağı üstündə necə əsirsə, biz də dostlarımız üçün o cür əsməliyik. Çünki dostluq əntiq əşya kimidir- zaman keçdikcə qiyməti artır (Höte).

Əziz dostum Əzizxan müəllim, ilk tanışlığımızdan 40 il keçsə də, zamanın acı rüzigarı səni zərrə qədər də dəyişə bilməyib. Çünki sən vəzifə qövğalarından, mənəmlik iddiasından uzaq olmusan, yüksək əxlaq və fəzilətinlə seçilmisən. Elmi rütbən və titulların, sosial statusun yüksəlsə də, sən əksinə, daha da sadələşmişən, müdrikləşmisən, daha təmkinli və səbrli olmu-

san. Obyektivliyinə və prinsipiallığına görə tək dostlarının deyil, həm də əhatəndə olan hər kəsin rəğbətini qazanmısan. V.Şekspirin dediyi kimi, sən misilsiz xəzinə qədər dəyərli olan əsl dostsan. Dostlarımın sayı azaldıqca onların qiymətini daha yaxşı başa düşürəm. R.Emerson deyirdi ki, dostunu göstər, sənin kim olduğunu deyim. Mən qürur hissi ilə deyirəm: tanış olun – dostum, ADPU-nun Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Əzizxan Tanrıverdi…

***Amaliya Murad***
***dosent***

# FİLOLOGİYA ÜZRƏ ELMLƏR DOKTORU, prof. ƏZİZXAN TANRIVERDİNİN 60 İLLİK YUBİLEYİNƏ BƏNÖVŞƏ ƏTİRLİ TƏBRİKLƏRİM

Orta məktəbdə keçdiyimiz fizika dərsindən Ümumdünya Cazibə qanununun nə olduğunu bilirik. Bu qanuna əsasən, yer üzərində olan bütün cisimlər, o cümlədən fikir və düşüncə bir-birini cəzb edir (Şüurun materiya olduğunu nəzərə alsaq, bu qanunun sübutuna ehtiyac yoxdur). Kainatı bu qanunsuz təsəvvür etmək mümkün deyil. Bütün kainat cazibə qanununa tabedir.

Kainatın (mexanikanın) bu qanunu mənim uzun illər axtardığım sualların bir çoxuna Sizin əsərlərinizdəki təhlillərdə cavab tapmağımla bir daha təsdiq olunur. Əgər Cazibə Qanunu olmasaydı, sizin əsərləriniz məni özünə çəkməzdi. Ağlıma belə gəlməzdi ki, bu sualların cavabı sizin əsərlərinizdə tapıla bilər, çünki mən suallarıma tamamilə başqa sahədə cavab axtarırdım.

Sizin mənim həyatımda rolunuz böyükdür, məhz sizin əsərləriniz ömrüm boyu “nisgili qəlbimdə qalmış” fikirlərimi ifadə etməyə imkan verdi...Ürəyimdən keçənləri sərbəst yaza bilərəm, çünki səhv etmək qorxusu yoxdur.

Əzizxan, yubileyiniz olduğunu eşidəndə ürəyimdən keçənləri yazmaq məqsədilə keçdiyiniz həyat yoluna nəzər saldım. Ömrünüzdən keçən illəri və gələn illəri bir nöqtəyə topladıqda “taleyinizlə görüş yeri” kimi gördüm yubileyinizi.

Sözün və fikrin qüdrətini bilən insan fikrin və sözün canlı olduğunu da bilir və mütləq bilməlidir. Düşüncənin insan həyatını dəyişdirmək qüdrətinə malik olduğu şübhəsizdir, mən bunu dəfələrlə yoxlamışam, istəsəniz siz də yoxlaya bilərsiniz. Səbəbini izah edə bilmərəm, siz də heç soruşmayın, amma elə bilirəm ki, mənim uşaqlıq illərimdə erkən yazda kolların

dibindən toplayıb məktəbə apardığım bənövşə dəstələrini görmüsünüz. (Əslində, sizin mənim topladığım bənövşə dəstəsini görməyiniz mümkün deyil). Bu bönəvşə dəstələrini xatırlayanda ağladığımı da bilirsiniz və ya təxmin edirsiniz. Çünki o bənövşələri o zaman müqəddəs hesab edirmişəm. O zaman dünyaya inanırdım, həyata lazım olmağıma inanırdım.

Dünya yaranandan bu günə qədər insan övladı xoşbəxtlik axtarışındadır. Buna baxmayaraq, hələ də xoşbəxtlik qədər insana aydın olmayan bir hiss, yəqin ki, yoxdur. İnsanın alın yazısı barədə düşüncələr də dünya qədər yaşa malikdir. Alın yazısına görə, uğurlar bütün insanın çalışmağı ilə bərabər, Allahın iradəsi ilə baş verir. Cəmiyyətdə insanlar arasında fərqlərin sirri də elə bundadır. İnsanların istedad və qabiliyyətləri də Yaradan tərəfindən verilir. Sizin Yaradanın məqamında yeriniz xüsusidir, siz getdiyiniz dərinliklərə Allahın izni ilə gedirsiniz.

Insan bədənində "könül" adlı bir orqan yoxdur. Amma hər şey könüldən keçir. Yazımda romantik cümlələr işlətməyimə baxmayın, sizi romantik insan hesab eləmirəm. Romantik insan dərin tədqiqatçı ola bilmir, əgər olsa belə, sonda real olmayan nəticə çıxarır.

"Könül" sizin ilkin enerjinizi mütləq bənövşələrdən aldığınıza inanır. İnsan oğlunun daxili dünyasında saf yer məhz ilkin enerjinin mühafizə etdiyi yerdə saxlanır. O vaxtlar, bəlkə, siz Əzizxan Tanrıverdi olacağınızı bilməzdiniz. Amma ilkin enerji o vaxtlardan yaranmağa və sizi yaratmağa başlayıb, sizdən xəbərsiz...

Siz Allahın bəxş etdiyi xoşbəxtliyin qədrini bilirsiniz, yaşadığınız gözəl həyatın müsbət elementlərini dəyərləndirirsiniz. Bu, çox vacibdir. Siz öz həyatınızı elə bir istiqamətə yönəldə bilmisiniz ki, bu yol hətta bir çox dahilərə qismət olmayıb. Böyük Yaradan sizə xoşbəxt olmaq huququ verib, həm də xoşbəxt olmaq üçün sizə dərin təfəkkür də verib. İnanın ki, Allah sizi xoşbəxt olmaq üçün yaradıb, bir dönüb keçdiyiniz yola nəzər salın, sizi bu cür mükəmməl tədqiqatçı kimi yaradan məqsəd və missiyanızı xoş satda müəyən edib.

**Xoşbəxtlik insan taleyində ən fundamental kateqoriyadır.** İnsanın xoşbəxtliyi ətrafının onu lazımınca qiymətləndirdiyindən birbaşa asılıdır. Sizin yolunuzda istədiyini əldə etmək üçün daim mübarizə aparan insan görünmür, sizinki Allah vergisidir. Dünyada iki növ qanun var; insanlar tərəfindən qoyulmuş və təbii qanunlar. İnsanların qoyduğu qanunlarda səhv ola bilər. Amma təbii qanunlar çox dəqiqliklə ölçülür. Səbəb və nəticə əlaqələrinin fəlsəfəsini açanda hər bir uğurların səbəbləri olduğu məlum olur. Sizin Əzizxan Tanrıverdi olmağınızın səbəbləri var, bunu dərindən ancaq siz özünüz bilirsiniz. Nəticədən hamımıza pay düşür, çünki siz bizim xalqın oğlusunuz. Göylərdən alıb yerlərə payladığınız Dədə Sözləri İşığını gördüyüm üçün bunları deməyə haqqım var. İnsan öz əməlləri ilə taleyini dəyişdirə bilər. Dünyada öz missiyasını başa düşmək insanı daxilən dəyişdirir. Ruhunuzda sülh istəyi var. Bu istək sizin insanlarla rəftarınızda özünü göstərir.

Sizin tələbələrinizin idealı olduğunuzu bir konfransda eşitdim. Haqqınızda bu yaşda yazılmış kitablar çox alimlərin arzusudur. Amma bu xosbəxtlik sizə qismət olub.

**Siz dünyanın dəyərli adamlarındansınız, dünya rənglərini sizin kimi alimlərin qəlbindən alır. Günəş sizin kimi tarixi dəyərlərini əziz tutan alimlər üçün doğursa, ay da sizin üçün gecələri işıqlandırır. Yaradanın sizə göstərdiyi yolu və köməyi hər insan oğluna göstərmədiyini yəqin bilirsiniz. Hər alim sizin kimi zirvəyə qalxmaq gücünə qadir deyil. Yaradan sizə hər şeyi öz vədəsində qismət edib. Mən bunları dərindən dərk edib sevinirəm.**

Dünyada ilk yaranan **SÖZ** olub, **Loqos**! Söz yaranandan sonra söz sahibləri olub və olacaq. Söz sahiblərinin yazdıqlarını oxuyanlar olub və olacaq. İxtisaslaşma sonra gedəcək. Hər söz sahibi "Molla Pənah" olmayacaq. Çünki hər söz Kainata istiqamətlənmir, yerinə çatmayan, havada qalan sözlər də olub və olacaq. Sizin sözləriniz isə elmi-tədqiqatlara mənbə olacaq, çünki dəryadır. Sonu və əvvəli sehirlidir...

***Bilal Həsənli***
***pedaqogika üzrə fəlsəfə doktoru,***
***Əməkdar müəllim***

## TÜRKOLOGİYAYA VƏ QORQUDŞÜNASLIĞA BÖYÜK TÖHFƏLƏR VERƏN ALİM

Filologiya üzrə elmlər doktoru, professor Əzizxan Tanrıverdi Azərbaycan dilçiliyinin, türkologiyanın görkəmli nümayəndəsi, pedaqoji kadrların yetişməsində böyük əməyi olan müəllim kimi elmi ictimaiyyətin, tələbələrin, çoxsayli oxucularin dərin rəğbətini qazanmiş ziyalidır.

Vaxtilə Ziya Paşa yazırdı:

***"Ayinəsi işdir kişinin lafə baxılmaz,***
***Şəxsin görünür rütbeyi-əqli əsərindən".***

Əzizxan Tanrıverdinin "rütbeyi-əqlinin" göstəricisi onun böyük elmi yaradıcılığı, 30-dək kitabı, 250-dən çox məqaləsi, orta və ali məktəbdə 40 ilə yaxın müəllimlik fəaliyyətidir. Onun tədqiqatlarına verilmiş yüksək qiyməti, səmimi ürək sözlərini ilk dəfə görkəmli ədəbiyyat metodisti Soltan Hüseynoğludan və daha sonra tələbələrindən eşitmişəm. Müəllimlər İnstitutunda dərs bitdikdən sonra da, tənəffüslərdə onu daim tələbələrin əhatəsində görür, xoş, rəsmiyyətdən uzaq müəllim-tələbə ünsiyyətinin şahidi olurdum.

İfadəli oxudan seminar məşğələlərinin birində Bahar adlı fəal tələbənin mövzu ilə bağlı təqdimatını dinləyirdim. O, şeir parçasının dil-üslub xüsusiyyətlərini dərindən təhlil edir, şair sənətkarlığının, bədiiliyin, ifadəliliyin sirlərini açır, bu zəmində həmin əsərin ifadəli oxusunun qanynauyğunluqlarını şərh edirdi. Tələbənin mühakimələrində mövzu ilə bağlı, dərsdə heç kəsin toxunmadığı bir neçə fikir diqqətimi cəlb etdi. Afərin, söylədiklərin çox maraqlıdır. Bunları haradan öyrənmisən, -

deyə soruşdum. “Əzizxan müəllim öyrədib”, - deyə cavab verdi. Sonralar həmin tələbəni Pedaqoji Universitetdə gördüm. Əzizxan müəllimin kafedrasından çıxırdı. Aydın oldu ki, Ə.Tanrıverdinin rəhbərliyi altında magistr kimi tədqiqatlarını davam etdirir.

Gələcəyinə böyük ümidlər bəslədiyim digər tələbəmin – İlkinin doktorant kimi fəaliyyətini davam etdirməsi, kafedrada işlə təmin olunması zamanı Əzizxan müəllimin gəncliyə, istedadlı elmi qüvvələrin yetişməsinə diqqətli münasibətinin, istedadlara həssas yanaşmasının bir daha şahidi oldum.

Əzizxan Tanrıverdinin elmi yaradıcılığında “Kitabi-Dədə Qorqud” dastanının tədqiqi mühüm yer tutur. Alimin ardıcıl olaraq nəşr etdirdiyi əsərlər Qorqudşünaslığa töhfə kimi dəyərləndirilməlidir. Bu mənada “Kitabi-Dədə Qorqud”dan söz düşəndə digər görkəmli alimlərlə yanaşı, Əzizxan Tanrıverdinin də adının çəkilməsi təbii və məntiqlidir. Əzizxan Tanrıverdi, sanki “Hanı dediyim, bəy ərənlər” harayını eşidib Dədəmiz Qorqudun müdrik sözünün sehrinin cazibəsindən çıxa bilməmiş, Dədə Qorqud sevdalısına çevrilmişdir. O, hər əsəri ilə dastanın açılmamış gizlinlərinin üstündən zamanın çəkdiyi pərdələri qaldıraraq xalqımızın tale kitabının həqiqətlərini, fikir dünyasını üzə çıxarmışdır. Bu kitabları vərəqlədikcə heyrətini gizlədə bilmirsən, Sanki bu əsərlər bir alimin deyil, bir elmi tədqiqat institutunun yaradıcılıq məhsuludur. Bu mənada o, öz niyyətinə çatmaq üçün min əzab-əziyyətlə Bisütun dağını yaran Fərhad timsalındadır.

Ə.Tanrıverdinin elmi tədqiqatlarının diapazonu çox genişdir. Lakin onun uzun illər ərzində gərgin elmi yaradıcılığının cövhərini “Kitabi-Dədə Qorqud” dastanının tədqiqi təşkil edir. Bu mövzuya o, qəlbinin hərarətini vermiş, bütün gücünü, qüvvəsini sərf etmişdir. “Dədə Qorqud”un möcüzələr, mənəviyyat dünyası, söz dünyası, obrazlar aləmi, obrazlı dili, şəxs adları, Dədə Qorqudun zamanı və s. alimin araşdırmalarında dərindən təhlil olunmuş, dilçiliyimizi, ədəbiyyatşünaslığımızı zənginləşdirən elmi nəticələr əldə edilmişdir.

"Dədə Qorqud"un poetik dilinin zənginliyini, qüdrətini açan bu sanballı kitablar oxucuya dərin emiosional təsir göstərir, onu xalqımıza xas olan, ata-babalarımızın qoruyub saxlamağı vəsiyyət etdiyi, əsrlərin dərinliyindən gələn "Təkəbbürlük eyləyəni Tanrı sevməz, kül təpəcik olmaz, əski pambıq bez olmaz, qarı düşmən dost olmaz, ana haqqı Tanrı haqqı" kimi mənəvi dəyərlər sistemi ilə tanış edir. "Vətən namusu hər şeydən əfzəldir, xəyanəti, şəri bağışlamaq olmaz" düşüncəsi elmi tədqiqatların mənəvi qatında bir daha öz təsdiqini tapır. Bu tədqiqatlarda elmi yanaşma, mülahizələrin əsaslandırılması ilə yanaşı, dastana böyük məhəbbət və heyranlıq öz əksini tapmışdır. şərhlərin cəlbediciliyi, maraqlı kompozisiya bu kitabların oxunaqlılığını təmin etmişdir.

Fikrimizcə, alimin Azərbaycan və türk dünyası ədəbiyyatı tarixində misilsiz rol oynamış "Kitabi-Dədə Qorqud"la bağlı tədqiqatları orta məktəb müəllimlərinin stolüstü kitabına çevrilməlidir.

Əzizxan Tanrıverdinin "Türk mənşəli Azərbaycan antroponimləri", "Антропонимы в Азербайджанской литературе (XVII-XIX вв), «XVI əsr qıpçaq (poloves) dilinin qrammatikası", "Qədim türk mənbələrində yaşayan şəxs adları" və digər dəyərli əsərləri türkologiyanın açılmamış səhifələrinə işıq salan əsərlər kimi diqqəti cəlb edir.

Əzizxan Tanrıverdinin fərdi üslubu tədqiqatlarında ədəbiyyatla dilin, tarixlə müasirliyin qovuşmasında özünü büruzə verir. Alim tarixin dərinliklərinə baş vurarkən, əsərin linqvistik, poetik çalarlarını zərgər dəqiqliyi ilə araşdırarkən yalnız tarixdə baş vermiş hadisələrə qiymət vermir, həm də oxucunun diqqətini tarixin məntiqi davamı kimi müasir dövrə, keçmişlə səsləşən problemlərə yönəldir, bədii sözün möcüzəsi barədə düşünməyə sövq edir. Sanki müasir oxucu öz əcdadları ilə yanaşı durur, onların qarşısında duran, indi də mövcud olan problemlərin həllinə qoşulur.

Əzizxan Tanrıverdinin şəxsiyyət bütövlüyü, qədirbilənliyi özünü bir daha öz müəlliminə, elmi rəhbərinə həsr etdiyi

"Türkologiyamızın Afad Qurbanovu" kitabında təsdiqini tapır. Müəlliminə müraciətlə yazdığı sözlər hər bir tələbənin bir vəfa borcu, sədaqət andı kimi səslənir:" Siz bu gün də qəlbimdə, ruhumda, yaddaşımdasınız! Əlimə qələm alıb adi bir yazını yazmaq istəyəndə, sevincli anlarımda, şad günlərimdə və daha çox da problemlərlə üzləşəndə - mürəkkəb situasiyalara, çətinliyə düşəndə Sizi düşünür, sanki ruhunuzla danışır, fikir mübadiləsi aparır, tövsiyələrinizi eşidir və hər dəfə də uğur qazanıram. Başqa cür də ola bilməz. Çünki Sizdən real olaraq öyrəndiklərimlə ruhunuzun mənıə diktə etdikləri üst-üstə düşür, biri digərini qüvvətləndirir. Mən də məhz bu ruha köklənərək hərəkət edirəm."

"Türkologiyamızın Afad Qurbanovu" kitabı dil, üslub əlvanlığı, aydınlığı, faktların və elmi düşüncələrin axarı ilə bir xatirə romanı kimi maraqla oxunur, görkəmli alimin, müəllimin şəxsiyyəti və yaradıcılığı, elm, təhsil təşkilatçısı kimi fəaliyyəti haqqında oxucuda dolğun təsəvvür yaradır.

Hörmətli Əzizxan müəllim! Sizə- türk dünyasının görkəmli aliminə cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram. Dədəmiz Qorqud demiş: "Çaparkən ağ-boz atın büdrəməsin! Kölgəlicə qaba ağacın kəsilməsin! Allah verən umudun üzülməsin!"

Və özümdən də bu müqəddəs sözlərə əlavə olaraq Sizə dərin ehtiram və məhəbbətlə deyirəm: "Dədəm Qorqudun ruhu duaçınız olsun!"

***Pəri Paşayeva,***
***pedaqogika üzrə fəlsəfə doktoru,***
***dosent***

## YUBİLEY YAŞIN MÜBARƏK, ƏZİZ QARDAŞIM

*Alim var, görəndə gözlərin gülür,*
*Deyirsən: - Nə gözəl, nə mehribandır.*
*H.Arif.*

Müəllim! Bu ad nə qədər şərəflidirsə, o qədər də çətin və məsuliyyətlidir. Dünya şöhrətli şahlar, sərkərdələr, fatehlər də müəllimləri qarşısında özlərini çox gücsüz hesab ediblər. Yaradan yanında da müəllimin adı ucadır. Ulu peyğəmbərimiz Həzrəti Məhəmməd (s.ə.s.) da müəllimə yüksək qiymət verib. Onun bir hədisində deyilir: "Bir adama oxumaq öyrətmək, nəzir vermək qədər savabdır". Bu savabı doyunca qazanan müəllimlərdən biri də filologiya elmləri doktoru, professor Əzizxan Tanrıverdidir.

Görkəmli dilçi prof.Ə.Tanrıverdi ana dilimizin keşiyində namusla dayanan, onu yad təsirlərdən qoruyan və qorumağın yollarını aydın şəkildə göstərməyi bacaran ziyalıdır. Dilçiliyimizin ən məhsuldar alimlərindən olan prof.Ə.Tanrıverdi onlarla kitab, monoqrafiya, dərslik, dərs vəsaiti, yüzlərlə elmi-metodik məqalələrin müəllifidir. Bu əsərlər zəhmətkeş alimin yuxusuz gecələrinin bəhrəsidir. Sanki böyük Nizami:

***Hər gecə biliyə qapı açmadan,***
***Başımı yastığa qoymadın bir an –***

misralarını məhz Əzizxan müəllim üçün yazmışdır.

Ə.Tanrıverdi çox xoşbəxt adamdır. Ona görə yox ki, o, filologiya elmləri doktoru, professordur, ona görə yox ki, gözəl və səmimi insan, dərin zəkaya malik güclü alimdir, həm ona görə ki, o, müdrik el məsəlinə söykənən, Aşıq Ələsgərin dili ilə desək

***Yaxşılığı yerində et,***
***Dost itirməz, yad itirməz,***
***İmkanınla köməksizin***
***İmdadına çat itirməz.***

prinsipinə əməl edən və bu yolu ömrünün sonuna kimi qoruyub saxlayan, yaşadan və yaşatmağı bacaran bir şəxsiyyətdir.

Əzizxan Tanrıverdi 2011-ci ildən Azərbaycan dili və onun tədrisi metodikası kafedrasına rəhbərlik edir. Universitetin ən böyük və öz ənənələri ilə seçilən bir kafedrasını yüksək idarəetmə və təşkilatçılıq bacarığı ilə idarə edən Əzizxan müəllim kafedranın hər bir əməkdaşına qayğısı ilə yanaşır, qeydinə qalır, problemi ilə maraqlanır və onlara lazımi dəstəyini verir. Əzizxan müəllim sözün həqiqi mənasında işləməyi və işlətməyi bacaran bir rəhbərdir.

Alim ömrü çox dəyərli və dəyərli olduğu qədər də şərəflidir. Professor Ə.Tanrıverdi alim ömrünü şərəflə daşıyanlardan biri, bəlkə də, birincisidir. Onun məhsuldar elmi-pedaqoji fəaliyyəti gənc nəslə bir örnəkdir.

Bu yaxınlarda professor Əzizxan Tanrıverdinin 60 yaşı tamam olur. İnanıram ki, ömrünün 60 illik yubileyini qeyd edən, öz zəhməti, işgüzarlığı, zəngin və şərəfli elmi fəaliyyəti, filologiya sahəsində dəyərli tədqiqatları ilə diqqəti cəlb edən alim hələ uzun zaman kafedramıza rəhbərlik edəcək, ana dilinin təbliğinə, pak niyyətli nəsillərin formalaşmasına öz töhfəsini verəcəkdir.

... Həyatda təhsilindən, vəzifəsindən, tutduğu mövqedən asılı olmayaraq, çox insanlarla rastlaşmışam. Yaddaşımda parlaq obrazı ilə qalanlar da olub, xatirəmdən silinənlər də, ülvi duyğularımın lirik qəhrəmanına çevrilənlər də olub, tikanlı satiralarda tipikləşənlər də. Elələri ilə də rastlaşmışam ki, özü qəlbimə hopub, xoş rəftarı, şirin sözü, təmiz vicdanı, ilə professor Əzizxan Tanrıverdi kimi.

Tanrı yaşadığınız həyat yolunu nurlu, 60 illik ömrünü mübarək eləsin, əziz qardaşım!

***Elza ALIŞOVA DEMİRDAĞ***[1]

# TÜRK DÜNYASI TÜRKOLOGLARI EZİZHAN TANRIVERDİ (1959)

Türkolog, Prof. Dr. Ezizhan Tanrıverdi 10 Ocak 1959 yılında Gürcistan Cumhuriyetinin Dmanisi vilayetinin Aşağı Garabulag köyünde doğdu. 1973 yılında aşağı Garabulag köy ortaokulunu, 1975 yılında ise Kirovisi köy lisesini bitirir. 1977 yılında V.I. Lenin adına Azerbaycan Pedagoji Enstitüsü (şimdiki Azerbaycan Devlet Pedagoji Üniversitesi) filoloji fakültesine başlar. Öğrencilik yıllarında C. Cabbarlı isimli başarı bursu kazanan Tanrıverdi, 1981 yılında universiteyi yüksek onurla bitirir. 1981-1983 yıllarında Azerbaycan Cumhuriyeti Deveci vilayeti Dağguşçu köy ilkokulunda, 1983-1985 yıllarında ise Çaygaragaşlı köy ortaokulunda Azerbaycan Dili ve Edebiyatı öğretmeni olarak çalışır. 1985 yılında V. İ. Lenin adına Azerbaycan Pedagoji Enstitüsünde aspiranturaya (doktora[1]) başlar. 1987 yılında aspiranturayı zamanından önce bitirerek *XVII-XIX asır Azerbaycan Antroponimleri adlı namizedlik tezini*, 1998 yılında ise *Türk Menşeli Azerbaycan Antroponimlerinin Tarihi Lengüistik Tetkiki* adlı doktorluk tezini savunur. 1987 yılından itibaren Azerbaycan Devlet Pedagoji Üniversitesinde asistan, öğretim görevlisi, öğretim üyesi olarak çalışır. 1994 yılında doçent, 1999 yılında profesör olarak atanır. 2011 yılından itibaren aynı üniversitede Azerbaycan Dili ve Onun Öğretimi Metotları bölümünün başkanı olarak çalışır.

Azerbaycan dilciliğinin önemli araştırmacılarından biri olan Ezizhan Tanrıverdi onomastik, dil tarihi, edebi tenkit ve Dede Korkut üzerine yaptığı çalışmalarıyla bilinir. 30 kitap,

---

[1] Azerbaycan'da Sovyetler döneminde uygulanan ilimler namizedi ve ilimler doktoru unvanları Türkiye'deki sisteme göre farklılık göstermektedir.

250'den fazla bildiri ve makalenin yazarıdır. Afad Gurbanov'un öğrenci olan Tanrıverdi, onomastik alanında özellikle, antroponimler üzerine yaptığı çalışmalarıyla dikkat çeker. Azerbaycan şahıs adlarının ilk defa tarihi lengüistik olarak incelenmesi Tanrıverdi'nin adıyla bağlıdır. *Qedim Türk Menbelerinde Yaşayan Şexs Adları*, *Türk Menşeli Azerbaycan Antroponimleri, Türk Menşeli Azerbaycan Şexs Adlarının Tarixi-Linqvistik Tedqiqi, "Kitabi- Dede Qorqud"da Şexs Adları* kitapları onomastik alanda önemli kaynaklardır.

Tanrıverdi, aynı zamanda Dede Korkut üzerine yazdığı kitaplarıyla Azerbaycan dilciliğinde bir Dede Korkut araştırmacısı olarak bilinmektedir. Dede Korkut destanındaki şahıs isimleri, Dede Korkut Destanın Dili, Dede Korkut ve Batı Lehçesi, Dede Korkut destanının kelime hazinesi, Dede Korkut'taki dağ ve at kültü üzerine araştırmaları mevcutur. 2014 yılında Türksoy tarafından Kazakistan Cumhuriyetinin Kızılorda şehrinde organize edilen *Dede Korkut Türk Halklarının Ortak Atası* konulu uluslararası sempozyumda *Dede Korkut Türk Halklarının Ortak Abidesi* başlıklı bildiri sunar. Bu bildirisine göre, *"Türk Dünyasının Ulu Atası Korkut"* ödülünü alır. Tanrıverdi, Dede Korkut destanını sadece dilcilik değil, folklor, felsefe, tarih ve etnografya bağlamında inceleyen çalışmalarıyla bilinir. Bir Dede Korkut aşığı olan Tanrıverdi'nin bu alanda on iki kitabı mevcuttur. Tanrıverdi'nin Dede Korkut üzerine yaptığı araştırmaları o kadar dikkat çeker ki, 2015 yılında bu çalışmaların farklı bilim insanları tarafından değerlendirildiği *"Dedem Qorqudun Kitabı" Tedqiqat Işığında (Ezizxan Tanrıverdi Qorqudşünaslıqda)* isimli kitap basılır. Kitapta Tanrıverdi'nin Dede Korkut üzerine yaptığı her bir çalışma detaylı bir şekilde incelenerek Azerbaycan dilciliğindeki önemine dikkat çekilir.

Aynı zamanda bir dil tarihçisi olan Tanrıverdi, *Azerbaycan Dilinin Tarihi Grameri* kitabının da yazarıdır. Kitabda Azerbaycan Türkçesinin tarihi gelişimi detaylı bir şekilde ele alınarak, ses bilgisi, şekil bilgisi, sözcük bilgisi ve söz dizimi

Orhun Abideleri, Divanü Lüğati't- Türk, Nesimi, Hatai, Füzuli ve diğer klasiklerin eserleri, aynı zamanda Azerbaycan Türkçesinin tarihi şive ve ağızları bağlamında incelenir.

Altmış yaşını kutlamaya hazırlanan araştırmacının hayatı, çalışmaları, hakkında yazılan yazıların yer aldığı *Ezizhan Tanrıverdi-60* kitabı yakın zamanlarda okurlarıyla buluşmaya hazırlanır. Lisans hocam olarak hakkında çok güzel duygulara sahibim. Dede Korkut'u anlatmadığı, Orhun abidelerinden bahsetmediği, Divanü Lüğati't- Türk'ten örnek vermediği bir dersini hatırlamıyorum. Azerbaycan Dil Tarihi dersleri zevkle dinlediğimiz derslerdendi. Özellikle, Dede Korkut üzerine yaptığı konuşmalar, verdiği örnekler onu Dede Ezizhan olarak anmamıza sebep olmuştu. Değerli hocamı buradan sevği ve minnetle anıyorum. Kaleminiz keskin, yolunuz açık olsun.

***Maya Qasımova***
***pedaqogika üzrə fəlsəfə doktoru***

## BÖYÜK İNSAN...

1995-ci ildən Universitetdə çalışıram. İşlədiyim ilk illərdə Əzizxan müəllimi qonşu kafedranın müəllimi kimi qiyabi olaraq tanıyırdım. Onun ara-sıra kafedramızda professor Həsən Balıyevlə etdiyi elmi söhbətlərinin, polemikalarının şahidi olurdum. Ünsiyyətindəki canlılıq, məzmunluluq, iti ağlı və məntiqi istər-istəməz diqqəti cəlb edirdi. 38 yaşında artıq filologiya üzrə elmlər doktoru, professor olmasına baxmayaraq, davranışındakı sadəlik, təvazökarlıq, sözün yaxşı mənasında, təəccüb doğururdu. Əlbəttə ki, Əzizxan müəllimi yaxından tanıdığımız ana qədər...

2011-ci ildə Əzizxan müəllim kafedramıza müdir təyin edildi. İlk vaxtlar, təbii olaraq, "görəsən, necə olacaq?", "yeni müdir bizi yola verəcəkmi?" suallarına cavab tapmağa, "yeni müdiri qəzəbləndirməmək" üçün hər kəlməmizi yüz dəfə ölçübbiçməyə, hər addımımızda ehtiyatla davranmağa çalışırdıq. Lakin zaman keçdikcə hər birimiz onun timsalında özümüzə böyük qardaş, mənəvi ata qazandığımızı dərk etdik. Uğradıqları haqsızlıqlardanmı, tənbəllikdənmi artıq elmi iş yazmaqdan vaz keçənlər onun təkidi ilə əlinə yenidən qələm aldı, laborantlar müəllim, baş müəllimlər dosent adı qazandı. Əzizxan müəllim bir çoxumuz üçün ümid yeri, pənah qapısı oldu. O, əsl ailə başçısı, qorxmaz gəmi kapitanı kimi lazımi məqamda, lazımi kürsüdən ailəsinin hər bir üzvü – kafedrasının hər bir əməkdaşı üçün sinəsini sipər etdi, heç bir təmənna ummadan hər birimizə mənəvi dayaq oldu. Bu gün içimizdən: "Nə yaxşı ki, ömrümüzün tale-qismət yolları kəsişdi və biz Əzizxan müəllimi tanıdıq" kəlmələri keçir. Göstərdiyi sonsuz qayğı və dəstəyə görə Əzizxan müəllimə duyduğumuz minnətdarlıq hissi heç bir ölçü vahidi ilə ölçülməz.

Əzizxan Tanrıverdi Azərbaycan elmində özünəməxsus yeri və çəkisi olan sanballı alim, gerçək ziyalı, istedadlı müəllim olmaqla yanaşı, yüksək mənəvi keyfiyyətlərlə zəngin bir şəxsiyyət, gözəl İNSANDIR. Əgər Əzizxan müəllimi bir neçə sözlə ifadə etmək lazım gələrsə, onu belə səciyyələndirmək olar: humanist, vicdanlı, xeyirxah, çoxlarına örnək ola biləcək bir insan, gözəl ailə başçısı və atadır. Əzizxan müəllim o şəxsiyyətlərdəndir ki, möhkəm əqidəyə, heç bir şəraitdə imtina etməyəcəyi düzlərə sahibdir. İçindəki haqqı, ədaləti kimsəyə təslim etməz, inandığı, düzgün hesab etdiyi hər şeyin arxasında sonuna qədər durar. Əzizxan müəllim mənim üçün ədalətliliyin, prinsipiallığın, obyektivliyin, düzgünlüyün, işinə məsuliyyətli və ciddi münasibətin, fədakarcasına bağlılığın ən bariz nümunəsidir. Onun ilk baxışda sərt görünən duruşunun arxasında həssas qəlbi, söhbətlərində hər zaman hiss etdiyimiz səmimiyyəti durur. Əfsuslar olsun ki, bu gün Əzizxan müəllim kimi insanlar çox azdır.

İllər, əslində, insanı qocaltmır, onu daha da gücləndirir, müdrikləşdirir, səbirli edir. Qazanılan bu keyfiyyətlər həyata baxışımızı yeni pilləyə qaldırır. Elə bir pilləyə ki, oradan əsl dəyərlər daha aydın görünür, məişət xırdalıqları önəmsizləşir. Artıq dərk edirsən ki, həyatda əsas olan – sənin doğmalarına və onların sənə olan münasibəti və sevgisidir. Əzizxan müəllim qısa bir zamanda bizim doğmamız oldu: çətin anlarımızda üstünə qaça biləcək, problemimizlə rahatlıqla paylaşacaq və hər birimizə gücü çatan və gücü çatmayan köməyi edəcəyindən əmin olduğumuz doğmamız...

Əzizxan müəllim həyatının elə bir çağındadır ki, artıq çox şeyə sahibdir. Bundan sonra ona yalnız sağlam, uzun ömür arzulayırıq: elə bir ömür ki, bu ömür içində Azərbaycan elminə bu vaxta qədərki yorulmazlığı ilə xidmət edə bilsin; yazdığı kitablarla elmimizə töhfə, gələcək nəsillərə zəngin irs buraxsın; elə bir ömür ki, onun mənəvi zənginliyindən, işığından neçə-neçə nəsil qidalana bilsin; elə bir ömür ki, Ərtacla Toğrulun to-

yunda qol qaldırıb oynaya, Aytacla Selcanı öz əlləri ilə gələcək sahiblərinə təslim edə bilsin!

Biz – bütün kafedra üzvləri Sizi çox sevirik, hörmətli professor... Sizə qarşı olan ehtiram hissimizi ifadə etmək üçün kəlmələr də aciz qalır. Sözün gücü yetdiyi qədər ifadə edə bidiklərimizin daha artığını beynimizdə, ürəyimizdə daşıyırıq. Hər şeyə görə çox sağ olun!!!

***Nabat Beydulla qızı Cəfərova***
***pedaqogika üzrə elmlər doktoru***

## SADƏ FİKRİN BÖYÜK HİKMƏTİ

Kiçik bir haşiyə çıxmaq istəyirəm: bir dəfə söhbət əsnasında "İstəyirəm ki, məni professor Əzizxan Tanrıverdiyev kimi yox, elə Əzizxan Tanrıverdi kimi tanısınlar"-dedi, Əzizxan müəllim. Əvvəlcə təəccübləndim, niyə professor kimi yox? Bir anlıq ifadənin fərqinə vardım. Bəli, böyük şəxsiyyətlər, dahilər, müdriklər həmişə tarixə öz adları ilə iz salmışlar. Məhz Əzizxan Tanrıverdi dərin zəkası, elmi yaradıcılığı, yüksək insanpərvərliyi, müdrikliyi ilə bu böyüklüyü qazanmış elm xadimidir.

Ə.Tanrıverdini tanıyanlara onu təqdim etməyə ehtiyac yoxdur, hər kəs Əzizxan müəllimi dərin zəka sahibi, elm fədaisi, gözəl dost, sədaqətli insan, vətənin keçmişinə və gələcəyinə məhəbbətlə yanaşan və dərindən sevən şəxsiyət, mükəmməl alim kimi tanıyır.

Zəngin mənəvi söz xəzinəmiz olan "Dədə Qorqud dastanı"nı məxəzini tədqiq edən, ən kiçik nüanslara qədər incələyən, gələcək nəslə zəngin elmi xəzinə qoyan Əzizxan Tanrıverdiyevin Dədə Qorqud müdrikliyinə yüksəlməsi onunla ünsiyətdə olan hər kəsə məlumdur.

Gözəl insan, dərin tədqiqatçı, yüksək mənəvi dəyərlərə malik zəhmətkeş və məhsuldar alim, professor Əzizxan Tanrıverdi rəhdərlik etdiyi kafedrada işlədiyim üçün özümü şanslı sayır və bununla qürur duyuram.

Kafedra müdirimiz Əzizxan Tanrıverdi haqqında fikirlərimi ürəyimcə çözə bilməyəcəyimdən çox ehtiyatlanıram. Bəzən insan illərcə tanıdığı, ünsiyyətdə olduğu, birgə çalışdığı, qəlbən və ruhən çox yaxın olduğu bir kəs haqqında da danışmağa çətinlik çəkir. Ancaq mənə qanad verən başlıca məqam o idi ki, uzun illər elmi araşdırmalarla bağlı üz tutduğum mənbələrdə professor Əzizxan Tanrıverdi adına çox rast gəlmiş, əsərlərindən

yetərincə bəhrələnmişdim. Dünyagörüşünə də yaxşı bələd idim. Taleyin qismətindən Əzizxan müəllimin rəhbərlik etdiyi kafedranın əməkdaşı oldum. Hesab edirəm ki, bu kollektiv mənim üçün doğma bir ocaqdır.

Bir ərəb məsəlindəki "Mən sənin adını bilirəmsə, sənin haqqında hər şeyi bilirəm" fikrinə istinadən, mən cəsarətlə deyə bilərəm ki, Əzizxan müəllim haqqında hər şeyi bilirəm. Bu təkcə mənim kəşfim deyil, həm də çiyin-çiyinə çalışdığım həmkarlarımın, onu tanıyan çoxsaylı insanların ortaq fikridir.

Müasir Azərbaycan dilçilik məktəbinin ən layiqli tədqiqatçısı kimi Əzizxan müəllim özünü gənc yaşlarından tanıda bilib, prinsipiallığı ilə həmişə diqqət mərkəzində olub, qətiyyəti və elmi təfəkkürünün səviyyəsi ilə ünlü elm adamlarının sırasında özünə yer alıb. Şəxsiyətinin bütövlüyü Əzizxan müəlllimi yaşadığı cəmiyətdə sevilən, seçilən və sayılan elm adamına, yaxın dosta, qayğıkeş həmkara çevirib.

Bəşər övladı özünü tanıyan gündən ilahidən qismətinə düşünmək və danışmaq payı düşüb. Bu hikmət, əslində, insanları bir biçimdə görmək kimi başa düşülməməlidir. Hesab edirəm ki, zəka sahibləri düşünmək və danışmaqdan savayı, həm də yaratmaq əzmində olan insanlardır. Belə ki, Əzizxan müəlllimin yaradıcılıq biblioqrafiyası son dərəcə zəngin, coqrafiyası geniş, palitrası isə yetərincə əlvandır. Ancaq bütün bunlar hələ con deyildir. Əzizxan müəlllimin qazandığı uğurların, elmi adların sırası hələ tamamlanmayıb. Ən xoş arzularla 100 yaşınızı qeyd edəsiniz hörmətli filologiya elmləri doktoru, professor Əzizxan müəllim! Gələcək axtarışlarınızda uğurlar diləyirəm. İnanıram ki, Əzizxan müəllim yazmaqdan yorulmayacaq, çünki yazdıqları bir elm adamı kimi dünənin, bugünün, sabahın və gələcəyin unikal kodudur.

Sizin kimliyiniz haqqında bildiklərimin bir qismini yubileyinzə ərməğan etdiyimdən özümü xoşbəxt sayıram.

***Vaqif İsrafilov***
***ADPU-nun Azərbaycan dilçiliyi***
***kafedrasının dosenti***

## ZƏHMƏTLƏ UCALAN ALİM ÖMRÜ

Əziz dostum, gənclik illərimin yadigarı Əzizxan müəllim haqqında yazmaq mənim üçün olduqca şərəfli və məsuliyyətli bir işdir. Onu hamı fədakar, dürüst, işgüzar, istedadlı bir alim olaraq tanıyır. Amma onu əsl dost, gözəl ailə başçısı kimi yalnız yaxın dostları tanıya bilər. Belə bir deyim var: "Nə yaxşı ki, dünyada yaxşı var, yoxsa tərk olarıq yaman əlindən". Dilimizdə tez-tez işlənən "yaxşı" sözü Əzizxan müəllimin varlığı qarşısında yerini tapmış ən gözəl sözdür. Yaxşı ki, həyatda dostum, qardaşım Əzizxan müəllim kimi təmiz, saf dəyərli insanlar var.

Tale, qismət elə gətirdi ki, tələbəliyimiz eyni dövrə təsadüf etdi. Əzizxan müəllim məndən bir kurs yuxarı oxuyurdu, yataqxanada bir otaqda qalırdıq, acılı-şirinli günlərimiz bir yerdə keçirdi. O zamandan onu daha yaxından tanıdım. Öz istedadı, çalışqanlığı ilə çoxlarından seçilirdi. Fakültədə əla qiymətlərlə oxuduğu üçün "C.Cabbarlı" adına təqaüdə layiq görülmüşdü. Həm də ictimai işlərdə yaxından iştirak edirdi. Fakültə komsomol təşkilatı katibi seçilmişdi. Elmə marağı elə o vaxtlardan yüksək idi. Bu sətirləri yazarkən tələbəlik illərimiz gözlərimin önündə canlanır. Necə də gözəl günlər idi, o günlər. Əzizxan müəllimin əzmkarlığı, zəhmətsevərliyi gələcəkdə uğurlara gedən bir yolun açarı oldu. O, namizədlik və doktorluq dissertasiyalarını uğurla müdafiə edərək alimlik dərəcəsi aldı, professor elmi adına yüksəldi. Müdafiələrində görkəmli alimlər onun elmi işinə yüksək qiymət verərək, gələcəyi parlaq, istedadlı bir dilçi kimi xarakterizə etdilər.

Əzizxan müəllim hal-hazırda ölkəmizdə tanınan, sayılıb-seçilən dilçilərdən biridir. Qiymətli tədqiqat əsərləri, neçə-neçə kitabların müəllifidir. ADPU-nun "Azərbaycan dili və onun təd-

risi metodikası" kafedrasının müdiridir. Əzizxan müəllim gözəl dost, həm də gözəl ailə başçısıdır.

Əsl ziyalı, müdrik insan Əzizxan müəllim təkcə respublikamızda deyil, digər türkdilli dövlətlərdə də tanınan dilçilərimizdəndir.

O, Qazaxıstan, Özbəkistan, Türkiyə və digər türkdilli dövlətlərdə elmi və Beynəlxalq konfranslarda respublikamızı layiqincə təmsil etmişdir.

Məhərrəm Hüseynovun Əzizxan müəllimə həsr etdiyi poemasından bir bəndi xatırlatsaq, onun portreti gözlərimiz önündə daha aydın canlanır:

***Elmin zirvəsinə gedən yolunun***
***Borçalıdır əzəl izi, Əzizxan!***
***Ürfan aləmində adın gələndə***
***Ağ olur elmin üzü, Əzizxan!***

Əziz dostum, çətin günlərimizin şahidi, qardaşım, Əzizxan müəllim! Səni 60 illik yubileyin münasibətilə ürəkdən təbrik edir, sənə gözəl ailənlə birlikdə uzun ömür arzulayıram.

*Ayətxan Ziyad (İsgəndərov),*
*yazıçı-jurnalist, tədqiqatçı*
*Azərbaycan yazıçılar və*
*jurnalistlər birliklərinin üzvü*

## 60 YAŞIN ÖMÜR YOLUNA SALDIĞI NUR

İlk baxışda müəyyən mənada soyuq, qılıqsız təsiri də bağışlaya bilər. Amma yaxın olduqca dünyagörüşünə, həyata baxışlarına nüfuz etdikcə tamam özgə təbiətdə olan bir insanla üz-üzə qalırsan: qılıqlı, sənə qəmxar, həmdəm, tövsiyələri ilə ürəyinə sərinlik gətirən; həyatın cənglərinə tab gətirməkdə sənə qol-qanad verən; şirinindən, yaxud acısından asılı olmayaraq sözü üzə dik deyən; təbiətən sakit, ancaq zərurət olanda döyüşkən, çılğın; düşüncələrinin isbatı üçün cəng-cidala girməyə qadir; bu gün cəmiyyətimizin ehtiyacda olduğu xarakter insan! Bir qənaətdə oldumu, əqidəsindən, niyyətindən daşındırmaq qeyri-mümkün. Bu şəxsiyyət – Əzizxan Tanrıverdidir. Azərbaycan dilçiliyində, folklorşünaslığında, qorqudşünaslıqda özünü çoxdan təsdiq bir ziyalı, dilçi alim, ali məktəb müəllimi, professor. Azərbaycan elminin və ADPU-nun tanınıb-qəbul edilən mükəddər söz sahiblərindən biri.

Əsərlərinin dil zənginliyi, çox qələm sahibinə müyəssər olmayan cilalanmış təhkiyələri, ustad redaktor süzgəcindən çıxmış əsərləri ilə dərin tanışlıqdan sonra oxucuda bu güman yaranır ki, bayaqdan söz-söz, cümlə-cümlə oxuduqları, bəlkə, peşəkar jurnalist, publisist, ədəbiyyatçünas qələmindən çıxıb. Oxuduqlarına heyranlıqdan vücudunda dolaşan ilk sorğu bu olur: ixtisasca jurnalistdirmi? Fakt olaraq, heç də yox! İxtisasca filoloqdur, ADPU-nu dil-ədəbiyyat müəllimliyi ixtisası üzrə bitirib. Hazırda filologiya üzrə elmlər doktoru, professor, “Azərbaycan dili və onun tədrisi metodikası” kafedrasının müdiridir.

Tədqiqat sahəsi 60 illik ömrünün 35 ilini həsr etdiyi dilçilik və ədəbiyyatşünaslıq elmləridir: dil tarixi, onomastika, ədə-

bi tənqid... Bu mövzuda 30 kitabın, 200-dən artıq məqalənin müəllifidir. Bu istiqamətlərin hər biri haqqında mükəmməl bilgi vermək imkanındayıq.

Elə təkcə dilçiliyə həsr etdiyi əsərləri haqqında ayrı-ayrı müəlliflər tərəfindən 56 məqalə yazılmışdır ki, bu da "Dil sevgisindən dilçiliyə" (2018) toplusunda (*tərtibçi və redaktor İlham Abbasovdur*) oxuculara təqdim edilmişdir.

Azərbaycan dilçiliyinə gətirdiyi elmi yenilikləri ilə qürurlanmaq haqqıdır Belə ki, türk mənşəli Azərbaycan şəxs adlarının tarixi-linqvistik müstəvidə ilk dəfə tədqiqi Ə.Tanrıverdinin adı ilə bağlıdır. "Kitabi-Dədə Qorqud"da şəxs adları, dağ kultu, at kultu, obrazlar sistemi, assonans və alliterasiya kimi məsələləri kompleks və sistemli şəkildə ilk dəfə məhz Ə.Tanrıverdi araşdırmış, eyni zamanda "Dəli Kür" romanının poetik dili"ni tarixiliklə müasirliyin sintezində təhlil süzgəcindən keçirmişdir.

*Bəhram Cəfəroğlu*
*filologiya üzrə fəlsəfə doktoru*

## ƏZİZXAN TANRIVERDİ-60

Professor Əzizxan Tanrıverdinin adı çəkiləndə gözünün önündə bir-biriylə iç-içə, bir-birini tamamlayan iki fərqli portret canlanır. Birinci portretdə professor Əzizxan Tanrıverdi gözəl bir ailə başçısı, vəfalı dost, gənclərə yol göstərən, dövlətinə və millətinə bağlı bir müəllim, ikinci bir portretdə isə Azərbaycan filologiyasına xidmət edən, yorulmadan yazıb-yaradan, 30-a yaxın monoqrafiyanın müəllifi qorqudşünas alim, dil tarixçisi canlanır.

Əzizxan Tanrıverdi olmağın, 60 illik bir ömrə bütün bunları sığdıra bilmənin tək səbəbi isə millətini sevmək, vətənini sevmək, dilini sevmək və bütün bunları heç bir qarşılıq gözləmədən edə bilmək əzəmətinə sahib olmaqdır.

Bir dəfə söhbət edərkən Əzizxan Tanrıverdi söylədi ki, mən gecələri əlimdə qələm qarşımda kağız sabahladım. Professorun, söylədiyi bir cümlə mənə "XVI əsr qıpçaq (poloves) dilinin qrammatikası", "Kitabi-Dədə Qorqudun söz dünyası", "Azərbaycan dilinin tarixi qrammatikası" və bu kimi onlarca sanballı elmi əsərlərin, dərsliklərin monoqrafiyaların necə ərsəyə gəlməsini xatırlatdı. Onun yazdığı monoqrafiyalar, dərsliklər öz elmi yeniliyi, araşdırdığı sahədə nadir tapıntıları ilə seçilir.

Ə. Tanrıverdi təkcə "Dəli Kür" romanının poetik dili moonoqrafiyasında filologiyamızda uzun illər diqqətdən kənarda qalan, əhəmiyyətsiz görünən, lakin ədəbi-bədii əsərlərin öyrənilməsi  üçün həyatı əhəmiyyət daşıyan onlarla elmi faktlara rast gəlirik. Adı çəkilən əsərdə "obrazlığın fonetik səviyyədə təzahürü" bölməsi bu baxımdan xüsusilə səciyyələnir. "Sulu əllərini əvvəlcə saçına, sonrada saqqalına çəkdi", cümləsində "sakitlik" məna çaları cümlənin ümumi semantik  yükündən  doğur ki, bu da məhz "s" alliterasiyası ilə qüvvətləndirilmişdir. "Dəli Kürün

poetik dili" monoqrafiyasından götürdüyümüz bu nümunədə müəllif sanki oxucuları ilə romanın sehirli cazibə qüvvəsinin elmi sirrini bölüşür.

Professor Əzizxan Tanrıverdinin müəllifi olduğu monoqrafiyaların ən əsas cəhəti odur ki, tədqiqata cəlb etdiyi mövzunun elmi tapıntıları məhz onun özünə məxsusdur. Təkrar etməyi sevməyən Əzizxan Tanrıvedi özünəqədərki tədqiqatlara, araşdrmalara hörmətlə yanaşır, əldə etdiyi, müəyyənləşdirdiyi yeni faktları sadə bir dillə təqdim edir. "Çal qılıncını, Xan Qazan" monoqrafiyası da bu qəbildəndir. Monoqrafiyada oxuyuruq:" Sadaqda oxum kişin dələr. Maraqlıdır ki, bu oxunuş forması son dövrlərdə "Kitaba" dair çap olunuş lüğətlərdə eyni saxlanılmış bir sıra monoqrafiyalarda isə işləndiyi misra (Sadaqda oxum kişin dələr) daxilində təhlilə cəlb edilmişdir". Qorqudşünaslıqda uzun illər təkrarlanmış bu oxunuşu qəbul etməyən professor, "Kitabi-Dədə Qorqud" dastanından, "Divanü-Lüğətü-it-türk" və digər abidələrimizdən onlarca tutarlı fakt ortaya qoyaraq yazır: "Bu mənada mübahisə obyektinə çevrilmiş misranın "Sadaqda oxum kişin dilər" şəklində transkripsiyasını düzgün hesab edir və onun poetik imkanlarına sintaktik bütöv daxilində diqqət yetirməyi zəruri bilirik".

Professor Əzizxan Tanrıverdinin Azərbaycan dilçiliyi və ədəbiyyatşünaslığı baxımından müdaxilə etdiyi məsələlər, cərrahın xəstəyə cərrahi müdaxiləsi kimidir. Əsaslandırır, müdaxilə edəcəyi nöqsanın dilçiliyə verə biləcəyi ziyanı hesablayır, faktlar ortaya qoyur və yazır: Postmodern düşüncəyə görə, hazırda bəşəriyyət sitatlar, frazalar, epizodlar dövründə yaşayır. Yeni heç nə yoxdur və mümkün də deyildir. Deyilən və yazılanlar isə artıq çoxdan mövcud olan fikirlərin təkrarıdır. Lakin Əzizxan Tanrıverdinin elmi əsərləri ilə tanış olduqca onun monoqrafiyasını vərəqlədikcə bunun tam əksi ilə rastlaşırıq. Professor yazdığı hər monoqrafiyada bunun əksini sübut etmiş, yeniliyə, yazılmamış, söylənməmiş fikirləri elmi faktları canlandırmışdı. Onun elmi əsərlərini oxuduqca gözünün qabağında dahi Nizaminin bu misraları canlanır:

***Yorulmaq bilmədən gündüz və gecə***
***"Məxzənüf-əsrari yazdım əvvəlcə.***
***İncəlik, şirinlik, yığarıq ondan,***
***"Xosrov və Şirin" üçün düzdüm bir dastan.***
***Sonra başqa yerdə çadırı vurdum,***
***"Leyli və Məcnun"un eşqini qurdum.***
***Bitirdim dastanı, bir nəşə tapdım.***
***Atımı "Həft peykər" üstünə çapdım.***
***İndi söz mülkində büsat qururam.***
***İsgəndər dövründən təbil vururam.***

Müqayisəm səbəbsiz deyil. Əzizxan Tanrıverdi 60 illik bir ömrə "Türk mənşəli Azərbaycan antroponimləri" (1996), "Kitabi-Dədə Qorqud"da şəxs adları (1999), "Kitabi-Dədə Qorqud"un obrazlı dili (2006), "Dilimiz mənəviyyatımız" (2008), "Poeziyanın dili,dilin poeziyası (2008), "Qədim türk mənbələrində yaşayan şəxs adları (2009), "Dədə Qorqud kitabı"nda at kultu (2012), "Dədə sözü işığında" (2014), "Dədəm Qorqud"un zamanı(2015), "Koroğlunun şeir dili" (2015), "Türkologiyamızın Afad Qurbanovu" (2018) və adını çəkmədiyim monoqrafiyalarını sığdırmışdır. Həm də professor hər monoqrafiyanı tamamladıqda, digərini yazmağa, bütün ruhu, varlığı ilə yeni əsərinə köklənir. Türkologiyamız, filologiyamız üçün bu qədər əsəri ərsəyə gətirmək heç şübhəsiz, ona vurğunluq, gərgin zəhmət, bitib-tükənməz enerji tələb edir. Əzizxan Tanrıverdinin elmi əsərlərini diqqətlə nəzərdən keçirdikdə onun tədqiq etdiyi sahələrin təsadüfü olmadığı türkilogiyamız üçün ən zəruri və həm də ədəbiyyatımızda müstəsna yerə malik olan əsərlər olduğu qənaətinə gəlirsən. “Kitabi-Dədə Qorqud” türklərin ana kitabı, “Koroğlu” dastanı, bütün türk dünyasının diqqətində olan bir əsər "Dəli Kür" romanı Azərbaycan ədəbiyyatının incilərindən biri, "Türkologiyamızın Afad Qurbanovu" Azərbaycan elmində xüsusi yeri və çəkisi olan akademik Afad Qurbanov haqqında və Azərbaycan dilinin tarixi köklərini yığcam, sadə bir dillə dərsliyə çevirən "Azərbaycan dilinin tarixi

qrammatikası" dərsliyi zəngin yaradıcılığın bəhrəsidir.. Ali məktəblərdə, xüsusən, filologiya fakültələrində tədris olunan, “Tarixi qrammatika” fənninə aid son dərslik 1990-cı ildə H.Mirzəzadə tərəfindən çap edilmişdi. Ötən 20 il ərzində türkologiyamızda, Azərbaycan dilçiliyində dilimizin tarixi inkişafına aid əldə edilən faktlar pərakəndə halda müxtəlif monoqrafiyaların tərkibində əriyib getmişdi. Bu isə, öz növbəsində Azərbaycan dilinin tarixi köklərinin öyrənilməsində, bu sahəyə aid kadrların yetişdirilməsində xüsusi çəkiyə malik olan Tarixi qrammatika fənninin tədrisini çətinləşdirirdi. Uzun illər ADPU-da bu fənni tədris edən professor Əzizxan Tanrıverdi bu çətinliyi aradan qaldırmaq üçün "Azərbaycan dilinin tarixi qrammatikası" dərsliyini gərgin əməyi, zəngin elmi axtarışları sayəsində yenidən yazdı. Bu dərslikdə dilçiliyimizdə həllini tapmayan, mübahisə doğuran, bəzən yanlış bilinən və yaxud yanlış öyrədilən onlarla dil faktına aydınlıq gətirildi. "Azərbaycan dilinin tarixi qrammatikası" dərsliyndən bir neçə fakta diqqət yetirək: "......XIV-XIX əsrlər ərzində yazılmış ədəbi əsərlərin dilində bu şəkilçinin "dilə" sözünün tərkinində qaldığını müşahidə edirik.....Müəllifin fikirləri ilə razılaşmaq olmaz. Çünki diləmək, boşamaq, yaşamaq kimi feillər nəinki "Kitabı"n hətta Orxan Yenisey abidələrinin dilində işlənmişdir.

“Orxan Yenisey”, “Divanü-lüğətü-it-türk”, “Kitabi-Dədə Qorqud”, “Nəsimi”, Xətayi və digər ədiblərimizdən seçilmiş yüzlərlə orijinal misallarla zəngin olan “Azərbaycan dilinin tarixi qrammatikası” dərsliyi 2017-ci il təkrar nəşri ilə daha da zənginləşdi. Müəllif dərsliyin son nəşrinə “Kitabi-Dədə-Qorqud”da zaman anlayışının ifadəsi, Temporal isimlər, nisbətən böyük zaman kəsiklərini ifadə edən isimlər, temporollığın qrammatik şəkilçilərlə ifadəsi kimi bölmələr artırmaqla dilimizin tarixi inkişafını, dilçiliyimizdə yeni sayıla biləcək elmi faktlarla arqumentlərlə sadə axıcı bir dil ilə filoloq tələbələrə, geniş oxucu kütləsinə təqdim edir. Məhz bu bölmədə “gün”, “dünən”, “gündüz”, “gecə”, “ay” kimi sözlərin tarixən necə yaranmasını, ilin 4 fəslinin yaz, yay, qış, payız sözlərinin məna tutumu tam məzmunu,

dolğunluğu ilə açılır. Adı çəkilən leksik vahidlərlə yanaşı, günəşlə bağlı yaranmış morfoloji zaman göstəriciləri isə xüsusilə diqqəti cəlb edir. Oxucu kitabı vərəqlədikcə öyrənir ki, şühudi keçmiş zaman şəkilçiləri dönmək feili əsasında yaranıb. İndiki zaman şəkilçiləri, gələcək zaman şəkilçiləri işıq anlamlı yar (yarın) ismi əsasında yaranmışdır. Həmçinin $ar^2$ $an^2$ feli sifət şəkilçiləri –$anda^2$, -$araq^2$, $arkən^2$ feli bağlama şəkilçiləri də bu sistemə daxildir.

Orta Asiyadan Avropaya qədər geniş bir coğrafiyaya yayılmış 50 milyondan çox azərbaycanlının danışdığı Türk dilləri içərisində öz zərifliyi ilə seçilən bir dilin tarixi inkişafını tarixi qrammatikasını yazmaq asan deyil. "Azərbaycan dilinin tarixi qrammatikası" sadəcə Azərbaycan türklərinin deyil, bütün türklərin tarixidir. Bu kitabın yazılması ağır araşdırma tələb etmiş, mümkün olduğu qədər bu sahəyə aid çap olunmuş mətnlərin, aparılan araşdırmaların nəzərdən keçirilməsini tələb etmişdir. Professor Əzizxan Tanrıverdi bu mənada ən mötəbər mənbələrdən istifadə etmiş, dilimizin tarixini yazarkən, ilk növbədə, atalarımızın bizə miras qoyduğu "Kitab"dan, "Divan"dan, Qazi Bürhanəddin, Nəsimi, Füzuli, Kişvəri və bu kimi onlarla klassiklərdən yararlanmışdır. Şübhəsiz ki, tarixsiz dil tarixi öyrədilə bilməz. Tarix öz növbəsində coğrafiyanı aktuallaşdırır. "Tarixi qrammatika"da tarix-coğrafiya və dil qanunlarından bəhs edən əsərlərdən qarışıq şəkildə yararlanılmışdır. Əzizxan Tanrıverdinin elmi yaradıcılığı ilə yaxından tanış olduqca görürsən ki, onun yaratdığı monoqrafiyalar peşəkarlıqdan ziyadə bir hiss, bir ruh məsələsidir. O, bir elmi fakta, tədqiqat aparacağı hər hansı bir mövzuya ruhən bağlı olmasa, həmin əsəri yaza bilməz. "Türkologiyamızın Afad Qurbanovu" (2018) monoqrafiyası da elmdə onun əlindən tutan ustadı və müəllimi akademik Afad Qurbanova olan minnətdarlıq duyğusundan, dilçilik tariximizə olan sevgisindən yaranmış bir monoqrafiyadır. Təsadüfi deyildir ki, "Ön söz"ün müəllifi Arif Kazımov bu əsəri ruhun mükaliməsini xatırladan əsər adlandırır. "Ustadını xatırlayarkən", "Akademik Afad Qurbanovun əsərləri haqqında", "Akademik

Afad Qurbanov Azərbaycan onomostikası məktəbinin banisi kimi", xüsusilə seçilən bölmələr, eyni zamanda akademik Afad Qurbanovun bir alim kimi dilçiliyimiz qarşısında geniş, müstəsna xidmətlərini işıqlandıran Afad Qurbanovu çoxsaylı oxucuları qarşısında yenidən şirin təhkiyə ilə canlandıran digər bölmələr tarixi salnamə kimi yaddaşlara hopur. "Türkologiyamızın Afad Qurbanovu" son 50 ildə Azərbaycan dilçiliyinin əldə etdiyi nailiyyətlərə işıq salan bir əsərdir. Göründüyü kimi, professor Əzizxan Tanrıverdinin elmi əsərlərinin hər birində müəllifin, alim şəxsiyyətini, elmi təfəkkürünün qeyri-məhdudluğunu aydın şəkildə müşahidə etmək olur.

Professor Əzizxan Tanrıverdinin həyat yolunu, yazıb-yaratdığı elmi əsərlərini vərəqlədikcə dahi Nizaminin bu misralarını xatırlayırsan.

***Dünyada boşuna keçmədi ömrün,***
***Yeməkdən, içməkdən başqa iş gördün.***
***Hər gecə biliyə qapı açmadan,***
***Başını yastığa qoymadın bir an.***

Heç sübhəsiz ki, professor Əzizxan Tanrıverdi yaradıcılığını kiçik bir məqalə çərçivəsində təhlil etmək mümkünsüzdür. Ümidvarıq ki, onun yaratdığı dilçilik məktəbi gələcək tədqiqatçıların əsas araşdırma obyekti olacaqdır.

*Razim Məmmədov*
*filologiyaüzrə fəlsəfə doktoru, dosent*

## MƏNƏVİ BORCUN QİYMƏTLİ ABİDƏSİ

Azərbaycan elminə nadir incilər bəxş edən, yeni-yeni ixtiralar, tədqiqatlarla zənginləşdirən, xalqımızın qədim tarixə və nadir istedada malik olduğunu sübüt edən dünya şöhrətli alimlərimiz, söz ustadlarımız bütün dövrlərdə olmuşdur. Əsl ziyalı xarakterinə malik olan bu ustadlar xalqın arzusunu, istəyini mənafeyini ön plana çəkmiş, həqiqəti söyləməyi, yazmağı hər şeydən üstün tutmuş, onun tərəfində durmagı özlərinin müqəddəs borcu bilmişlər.

Özünəməxsus yaradıcılıq üslubu ilə seçilən görkəmli elm xadimlərimizdən olan filologiya elmləri doktoru akademik Afad Qurbanovun da həyatının mənasını bu amal təşkil etmişdir. Öz bütövlüyü və səmimiyyəti ilə seçilən əsl Azərbaycan ziyalısının şəxsiyyətinə , elmi yaradıcılığına , pedaqoji fəaliyyətinə, təşkilatçılq bacarığına yaxından bələd olanlar onun necə həssas qəlbə malik olduğunu yaxşı bilirlər. Alimin dilçilik elminin hansı sahəsindən yazmasından asılı olmayaraq, fərqi yoxdur, istisnasız olaraq bütün əsərlərində, eləcə də pedaqoji fəaliyyətində öz xalqına sədaqətlə və namusla xidməti öz əksini tapmışdır.

Filologiya üzrə elmlər doktoru, professor Əzizxan Tanrıverdinin bu yaxınlarda işıq üzü görmüş "Türkologiyamızın Afad Qurbanovu" kitabı (Bakı, 2018) da bütün varlığını elmin təhsilin və mədəniyyətin inkişafına sərf etmiş ağsaqqal alimin həyat salnaməsindən bəhs edir. Əzizxan Tanrıverdi kitabda ustadını "bənzərsiz insan, nüfuzlu alim, bacarıqlı elm təşkilatçısı kimi xatirələr kontekstində səciyyələndirir, onun elmi-pedaqoji fəaliyyəti daha çox haqqında yazılmış məqalələrə istinad olunmaqla izah edir ".

Bu maraqlı kitabın "Afad Qurbanovu bir alim, türkoloq kimi dəyərləndirmiş alimlərin əsərlərindən sətirlər" bölməsində Əzizxan Tanrıverdi böyük aliminin şəxsiyyəti, insani keyfiyyətləri, zəngin elmi dühası, pedaqoji bacarığı, müəllimliyi, təşkilatçılığı, idarəçiliyi və s. keyfiyyətləri haqqında söhbət açan 43-dən çox alimin Afad Qurbanov haqqında yazdığı məqalə və kitablardan sitatlar verməsi maraq doğurur. Akademiklərdən Andrey Kononov, Əbdüləzəl Dəmirçizadə, Məmmədağa Şirəliyev, Mahmud Kərimov, Arif Mehdiyev, Bəkir Nəbiyev, Rasim Əfəndiyev, Teymur Bünyadov, Fuad Qasımzadə, Abel Məhərrəmov, Toğrul Şaxtaxtinski, Kamal Abdulla, professorlardan Şükrü Malik Akal, Xəlil Açıqgöz, Yusif Seyidov, Timurçin Əfəndiyev, Nizami Xudiyev, Buludxan Xəlilov, Himalay Qasımov, Zahid Xəlil, Kamil Bəşirov, Məhərrəm Hüseynov və başqaları onu Azərbaycan ümumi dilçilik elminin, bu elmin müxtəlif sahələrinin mahir bilicisi, bayraqdarı, əsasını qoyan zəngin biliyə malik olan əvəzsiz dilçi alim kimi dəyərləndirməklə yanaşı, onun əsərlərinin dünya türkoloji dilçiliyi üçün də qiymətli olduğunu vurğulamışlar. Akademik M.Şirəliyev onun "Azərbaycan dilinin onomalogiyası" sərlöhəli əsərindən bəhs edərkən yazırdı: "Afad Qurbanovun "Azərbaycan dilinin onomalogiyası" adlı əsəri təkcə bizim dilçiliyimiz üçün deyil, dünya türkoloji dilçiliyi üçün də çox qiymətlidir. Mən tam məsuliyyətlə deyə bilərəm ki, Afad Qurbanov bu əsəri ilə Azərbaycan Onomastika Məktəbinin əsasını qoymuşdur. Böyük alimin kitablarına, onun gəldiyi elmi nəticələrin xüsusi əhəmiyyətə malik olduğunu vurğulayan akademik Andrey Kononov isə yazırdı: "Afad Qurbanovun bu kitabı yalnız Azərbaycan dili materiallarını deyil, həm də başqa türk dillərinin materiallarını əhatə edən mövzunu işıqlandırır".

Azərbaycan dilçiliyinin çoxsahəli tədqiqatçısı, ümumi dilçilik problemlərinin fundamental araşdırıcısı, onomastikanın nəzəri, elmi və əməli problemləri sahəsində aktual tədqiqatları ilə seçilən, onomatika elmi məktəbinin yaradıcısı Afad Qurbanovu kitabın müəllifi Əzizxan Tanrıverdi isə belə qiymətləndirir:

"Azərbaycan dilçiliyində fonetika Ə.Dəmirçizadənin, leksikologiya S.Cəfərovun, dialektologiya M.Şirəliyevin, morfologiya M.Hüseynzadənin, sintaksis Ə.Abdullayevin, dil tarixi H.Mirzazadə, Ə.Dəmirçizadə və T.Hacıyevin, morfonologiya F.Cəlilovun, ümumi dilçilik və onomalogiya isə A.Qurbanovun adı ilə bağlıdır".

Kitabın ən maraqlı və qiymətli fəsillərindən birinin "Ustadımı xatırlayarkən" bölməsinin olduğunu qeyd etsək yanılmarıq. Etiraf edim ki, memuar janrında yazılmış əsərləri, xatirələri oxuduğum zaman aldığım zövqü böyük sənətkarlıqla yazılmış bədii əsərdə belə ala bilmirəm. Ola bilsin ki, bu qənaətim mütəxəssislər tərəfindən bir manada qarşılanmasın. Lakin əsl reallıq belədir. Əzizxan Tanrıverdinin böyük insan və alim Afad Qurbanov haqqında yazdığı xatirələri də bir nəfəsə oxudum və eyni zövqü aldım. Hər cür sünilikdən uzaq olan bu xatirələr təbiiliyi, səmimiliyi, şirinliyi ilə diqqəti cəlb edir. Müəllif "böyük şəxsiyyət müəlliminin, dekanının, kafedra müdirinin, rektorunun, elmi rəhbərinin" bütün xarakterik cizgilərini – xeyirxahlığınlı, qayğıkeşliyini, alimliyini, pedaqoji ustalığını, müəllimliyini, işgüzarlığını, mərdliyini, məğrurluğunu, idarəçiliyini, təşkilatçılığını, tələbkarlığından, əxlaqi saflığını, ziyalılığını, mədəniyyətini və mənəviyyatını sadə dillə, amma elə ustalıqla qələmə almışdır ki, insanın gözü qarşısında canlı Afad Qurbanovun surəti dayanır. Ustadına olan əvəzsiz məhəbbəti, onun yaxşılıqlarını unutmaması şagirdin nəcibliyindən, əxlaqi keyfiyyətindən, sadiqliyindən, "bir şagird ki, ustadına kəm baxa, onun gözlərindən qan damar" prinsipindən irəli gəlir. O, Afad müəllimlə ilk tanışlığından, tələbəlik illərində ona yardımçı olmasından ətraflı söhbət açmış, bu tarixi şəxsiyyətin kafedra müdiri, filologiya fakültəsinin dekanı, institut rektoru kimi ətraflı xarakterizə etmiş, ona işə düzəlməkdə təmənnasız yardım etməsini, namizədlik və doktorluq dissertasiyalarının müdafiəsində iştirakını hörmətlə xatırlamış, nüfuzlu konfranslara sədrlik etməsini, kafedra iclaslarının aparmasını yada salmış, bütün sahədə də onun peşəkarlığını oxucularla bölüşmüşdür.

Əzizxan Tanrıverdi böyük ustad adlandırdığı Afad müəllimi yüksək intellektli, geniş erudisiyalı görkəmli alim, tələbkar dilçi, əsl pedaqoq, nüfuzlu müəlim, həssas qəlbli insan kimi dəyərləndirərək yazır: "O, əsl müəllim idi, nüfuzlu alim idi, bacarıqlı elm təşkilatçısı idi, öz xalqının maariflənməsi, intellektual səviyyəsinin yüksəldilməsi uğrunda yorulmaq bilmədən çalışırdı. Açığını deyək ki, Afad müəllim Azərbaycanda elmin və təhsilin inkişafı ilə bağlı planlaşdırdığı işlərin, demək olar ki, hər birini uğurla başa çatdırırdı. Ona görə də xalqımız onu sevir, şəxsiyyətinə hörmət edirdi...".

Kitabda diqqəti cəlb edən ən yaxşı məziyyətlərdən biri də ustadını müxtəlif bucaqlardan işıqlandırarkən müəllifin bir sıra səviyyəvi cəhətlərə əl atmasıdır. O, fikirlərini daha da dolğunlaşdırmaq üçün müxtəlif alimlərin Afad müəllin haqqında yazdıqları fikirlərdən nümunələr gətirməsi bu böyük şəxsiyyətin insan portretini daha da dolğunlaşdırır. Məs: Əzizxan Tanrıverdi "əsl pedaqoq, müəllimlər müəllimi" adlandırdığı Afad Qurbanov haqqında yazırdı: "Ustad! Sizi həmkarlarımız, tələbələrimiz, hətta doğmalarımız da belə çağırırdı: Afad müəllim! Siz bu adla tanındınız, bu adla yaşadınız, elə bu adla da haqqın dərgahına qovuşdunuz. Bu ad Sizin professor elmi adınızdan, akademik titulunuzdan çox yüksəklərdə dururdu". Bu fikrin davamı olaraq müəllif professor Yusif Seyidovun Afad müəllimi əsl müəllim kimi dəyərləndirməsindən nümunə verir. Y.Seyidov yazısında oxuyuruq: "Mən sənə müəllim deyə müraciət etdim. Sənin elmlər doktoru, professor elmi dərəcə və elmi adın var, Elmlər Akademiyasının üzvüsən, Dövlət mükafatına layiq görülübsən. Bunlar sənin elmi və ictimai fəaliyyətin haqqında çox şey deyir. Lakin bunların hamısından şərəflisi müəllim adıdır. Sən, sözün əsl mənasında müəllimsən. Oturuşunda – duruşunda, insanlara münasibətində – bütün hərəkətinlə böyük müəllimsən tədrisin, elmin təşkilində böyük işlərin məlumdur. Bunların da hamısı müəllimlik fonunda cərəyan edib və yüksəlibdi".

Afad Qurbanovun qayğıkeşliyindən, düzgün tövsiyələrindən söhbət açanda professor Ramazan Qafarovdan, onun ağsaq-

qalığından, nüfuzlu ziyalı olmasından danışanda professor Məhərrəm Hüseynovdan, gənclərə göstərdiyi təmənnasız qayğıdan yazanda professor Şamil Vəliyevdən, ustada qarşı edilən ədalətsizlikləri qeyd edəndə professor Mahmud Allahmanovdan və başqalarından kitaba daxil etdiyi sitatlarla, fikrimizcə, Əzizxan Tanrıverdinin bu mənəvi borc abidəsini daha da sanballı etmişdir.

Afad Qurbanov Bakıya gələnə qədər həyatının bir hissəsini Borçalıda keçirməsi məlumdur. Bu qədim türk yurdu barədə ustad-şagird arasında dəfələrlə söhbət olmuş, Borçalıda keçirdiyi günləri xatırlamışdı. Nə yaxşı ki, Əzizxan Tanriverdi bu söhbətləri yaddaşına həkk etmiş, müəlliminin asta-asta şirin dillə danışdığı xatirələri oxucularla bölüşmüşdü. Kitab müəllifi bildirir ki, söhbətin əsas məğzini "Borçalının başı qarlı dağları, buz bulaqları, gur axan qıjıltılı çayları, qalın meşələri, sıldırımlı qayalar, çöl düzündəki saysız-hesabsız gülləri, çiçəkləri, eləcə də digər təbiət möcuzələri, Başkeçid dağlarında olan kəkotu (kəklik otu), yemlik, quzuqulağı, çobanyastığı bitkilərin can dərmanı olması, dağlarda kərənti ilə ot biçərkən kərəntinin altından çıxan, biçilmiş sahədə qalan kəsilmiş çiyələyin ətri, dadı, tərəkəmə həyatı, arandan dağa, dağdan arana köçlər, çobanların ayıq-sayıqlığı, yaylaqdakı dəyələr, çadırlar, motal pendiri, qarın yağı, qurut, qaymaq, qatıq, çoban əppəyi, çoban basdırması, o dağlarda, o düzlərdə, o daşlı-kəsəkli yollarda at belində gəzdiyi, toylarda at çapdığı, anası Aişə balının qurutlu xəngəli, sacda bişirdiyi əppəyi (sac çörəyi), odun peçinin üstündə dəmlədiyi itburnu çayı, aşıqların dilindən eşitdiyi dastanlar, nağıllar, bayatılar, nənələrindən öyrəndiyi çoxsaylı oxşama və laylalar, Borçalı türklərinin ən qədim məskənləri, xüsusilə də Başkeçidin Hamamlı kənd orta məktəbində direktor vəzifəsində işlədiyi illər, ağır məclislərdə, toylarda olması, bu qədim elin dadlı, ləzzətli nemətləri" və sairə mövzular təşkil edirdi.

Afad Qurbanov Borçalını türklərin ən qədim yaşayış məskəni hesab etmiş, "Kitabi-Dədə Qorqud" dastanının dilindəki ar-

xaizmlərin çoxunun Borçalı şivəsində mühafizə olunması barədə Əzizxan Tanrıverdinin mülahizələrinə haqq qazandırmışdır.

"Afad Qurbanovun elmi yaradıcılığı tədqiqatlarda", "Afad Qurbanov Azərbaycan onomastikasına dair konfransların təçkilatçısı və əsas məruzəçisi kimi" böllmələrində adını Azərbaycan dilçilik elm tarixinə qızıl hərflərlə yazdırmış alimin şəxsiyyəti və yaradıcılığı ilə bağlı həmkarlarının yazdıqları məqalələr müəllif tərəfindən incələnir, ustadı haqqında söylənilən fikirlər ümumiləşdirilir, dilçilik elminin, bütün sahiblərinə nüfuz etməyi bacaran bu məhsuldar və əməksevər alimin fəaliyyətinə yüksək qiymət verilir. A.Qurbanov oxuculara türkologiya elmində öz yeri olan alim, analitik təfəkkürülü dilçi, əsl müəllim, bacarıqlı elm təşkilatçısı, ideal insan kimi dəyərləndirilir, eyni zamanda onun ölməzliyi, əbədiyaşarlığı bir daha qeyd olunur.

Əzizxan Tanriverdi kitabda ustadının ancaq elmi-pedaqoji fəaliyyətinə həsr edilmiş məqalə və kitabların təhlilini verməklə kifayətlənməmiş, Azərbaycan ədəbiyyatında alimə həsr olunmuş poetik nümunələri ədəbi tənqid müstəvisində təhlil etməyi də özünə mənəvi borc bilmişdir. O, kitabda Firudin Şimşəyin "Sevindi", Oqtay Rzanın "Səsi yurd harayı, Vətən səsidir", Zəki İslamın "Var", "100 dilər", Zahid Xəlilin "O, Qurbanov Afaddı", Akif Azalpın "İzlər", Həcər Hüseynovanın "Ey alim" və başqalarının şeirlərindən bəhs edərək yazır ki, "Afad Qurbanov da məhz nüfuzlu alimlərimizdən olduğuna görə haqqında bir sıra şeirlər yazılıb. Afad müəllimə həsr edilmiş şeirlərdə onun alim obrazı ilə yanaşı, əsl müəllim, ideal insan obrazları da qabarıq şəkildə görünür. Bu şeirlərin hər biri təbii və canlıdır, hər birində Afad Qurbanov obrazı ustalıqla yaradılıb".

"Türkologiyamızın Afad Qurbanovu" kitabını professor Əzizxan Tanriverdinin yeni bir uğurudur. Orijinallığı ilə seçilən bu mənəvi borc abidəsi türkologiyamızın aqsaqqalı Afad Qurbanovanın ruhuna layiqli töhfədir.

***Razim Məmmədov***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## ELİMİZİN VƏ ELMİMİZİN ƏZİZXANI

Poeziyada bu və ya digər həyat hadisələrini, insan münasibətlərini, məişət qaygılarını təsvir etmək və bu zaman təbiiliyi qorumaq, şairdən bökük bacarıq, qələmindən püxtəlik tələb edən bir işdir. Mənəvi böhran şəraitində nəciblik anlayışını şərtləndirən, saflıq, müdriklik bütövlük kimi dəyərlərlə çağrılmaq, bütün bunları anlaya bilmək isə şairlik və vətəndaşlıq borcudur. Cəsarətlə qeyd etmək olar ki, istedadlı şair Məhərrəm Hüseyinov tanınmış dilçi alim, professor Əzizxan Tanırverdiyə həsir edildiyi "Əzizxan" poemasında öz vəzifəsini yaxşı anlamış və ortaya maraqlı bir poetik əsər qoymuşdur.

Poema pisixoloji, mənəvi və poetik cəhətdən o qədər məharətlə qurulmuşdur ki, orada təsvir olunan alimin portret cizgiləri, insani keyfiyyətləri, şəxiyyəti, elmi yaradıcılığı, pedaqoyi fəaliyyəti, təşkilatçılığı, səmimiyyəti və sairə haqqında aydın təsəvvür yaranır.

Şair lirik qəhrəmanını xalqını və vətənini sevən, onun mənafeyini hər şeydən uca tutan zəhmətkeş alim, yorulmaq bilmədən çalışan ziyalı kimi səciyyələndirir, elin, obanın sevimlisi olan alimə bu yolda yeni-yeni uğurlar arzulayır.

***Elmin zirvəsinə gedən yolunun***
***Borçalıdır əzəl izi, Əzizxan !***
***Urfan aləmində adın gələndə***
***Ağ olur elin üzü, Əzizxan !***
***Hər kitabın bir hünərdir, min zəfər,***
***Hər kəlamın bir müjdədir, xoş xəbər,***
***Çovğunlara,tufanlara sinə gər,***
***Sevindir uğurla bizi Əzizxan !***

Şəxsiyyətinə böyük hörmət bəslədiyim səmimiyyəti və bütövlüyü ilə seçilən tədqiqatçı-şair Məhərrəm Hüseyinov heç vaxt nəyinsə xatirinə hər hansı bir insanın ünvanına tərifli söz söyləməyib, bunu öz ziyalı ləyaqətinə sığışdırmayıb, lakin yeri gələndə ləyaqətli, nüfuzlu insan, əsl ziyalı, alim barəsində onlarla layiq olduğu xoş sözləri deməkdən də çəkinməyib. Bu məziyyətlərinə görə də universitetdə, kollektivdə ona böyük hörmət bəslənilir. Şairin dostları, onun poetik duyumuna yaxından bələd olanlar haqlı olaraq vurğulayırlar kı, Məhərrəm müəllim insan gözəlliyini, xüsusilə də onun daxili gözəlliyini özünəməxsus bir heyranlıqla vəsf edir. Onun bu keyfiyyəti "Əzizxan" poemasında da bariz şəkildə öz əksini tapır. O, bir elm adamının bədii obrazını yaradarkən qəhramanının insani və mənəvi keyfiyyətini, onun alimliyini , müəllimliyini, istəyini, arzularını və s. şair dili ilə şərh etməyi bacarır.

***Qadir qələm hədəfləri haqlasın,***
***Ulu tanrı bəd nəzərdən saxlasın***
***Elmi müjdə şəfəq saçıb parlasın***
***Elmimizin dan ulduzu Əzizxan !***
***Dərbəndi, Kərkükü, Göyçəni səslə,***
***"Bütöv Vətən!"— söylə odlu nəfəslə,***
***Allaha üz çevir, tanrını səslə,***
***Haqq bitirsin bu murazı Əzizxan!***

Sözün qüdrəti, sözün şirinliyi, sözün ecazkarlığı, sözün kəsəri bütün dövrlərdə, bütün xalqlar tərəfindən yüksək qiymətləndirilib. O da bir həqiqətdir ki, söz vaxtında və yerində deyiləndə daha kəsərli, daha mənalı olur. Şair təfəkürünün gücünə, mənəvi aləminin zənginliyinə güvənərək professor Əzizxan Tanrıverdinin 60 illiyi ərəfəsində reallığı və səmimiliyi ilə seçilən bir poema yazmışdır. Həqiqəti, reallığı söyləməyi özünə borc bilən şair bu bədii sənəd nümunəsində Əzizxanı təkcə görkəmli alim kimi deyil, həm də ləyaqətini, şəxzsiyyətini və mənliyini qoruyan ziyalı kimi təqdim edir, onun mütərəqqi fikirli ziyalılar-

dan biri kimi Azərbaycan içtimaiyyəti tərəfindən sevildiyini göstərir.

***Qələmin dürr sacan, vərəqin hikmət***
***Ədəb, ürfan sənin ruhuna qüvvət,***
***Bir yanda söz dura, bir yanda sərvət,***
***Uca tutar qızıl sözü Əzizxan !***

***Pak xislətin heyran qoyur hər kəsi,***
***Könül ocağının yoxdur tüstüsü,***
***Elmin zirvəsinə yetir istisi,***
***Möcüzə yaradır közü, Əzizxan!***

M.Hüseynov vətəndaş şairdir. Yaradıcı insan üçün torpaq, xalq, vətən, millət dərdi adətən daha ağır olur. O, "Göyçə gülü" poemasını yazmaqla öz vətəndaşlıq mövqeyini təsdiqləyib. Bu poemada şarin mübarizlik hissi onu bədbin olmağa qoymur, haqq və ədalətin gec - tez öz yerini tutmağına inanır.Şair "Əzizxan" poemasında da milli ruhu vətənpərvərliyi təbliğ edir, gələcək nəsillərin onun bədii qəhrəmanı kimi vətənpərvərlik ruhunda böyüməsini arzulayır.

***Başa çatsın zəfəri söz ordunun,***
***Səsi gəlsin Göyçədən boz qurdunun .***
***Ürəkdən sevdiyin Odlar yurdunun***
***Qoy sağalsın el yarası , Əzizxan!***
***Fəth etdiyin ürəklərdə ucasan,***
***Ürəklərə hopmaq deyildir asan,***
***Hər nöqtəndən, vergülündən duyasan***
***Millət qeyrəti, el havası Əzizxan!***

Poemada bədii qəhrəman savadsızlara, dil pəhləvanlarına, elm aləmindəki naşılara qarşı mübarizədə susmayan, sınmayan göstərməyi bacaran, bütün varlığını elmin, təhsilin və mədəniyyətin inkişafına, Azərbaycan dilinin saflığının təmin olunmasına həsir edən əvəzsiz dilçi alim, mübariz insan kimi təsvir olunur.

Şair onu “Dil tarixinin vüqarı tacı” “Türk elinin dağ ürəkli nər oglu” adlandırır, çovğunlara, tufanlara sinə gərməyi, “hər bir çətini sevinclə qarşılamağı” məsləhət bilir, “Elmə əyriliklə yol tapan” cahillərə, nadanlara baş qoşmamağı tövsiyə edir.

***Qələminlə şirinləşib çox acı,***
***Zəkan cox qaranlıq mətləb əlacı,***
***Dil tarixinin vüqarı, tacı,***
***Qorqudşünaslığın gözü Əzizxan!***
***Sözün cəngavəri, dilin mətini,***
***Qürurla vəsf edir məmləkətini,***
***Sevinclə qarşılar hər bir çətini,***
***Alın yazısından qazı Əzizxan!***
***Şərlə vuruşmada keçir anların .***
***Gödəndən saz olan ölü canların,***
***Elmə əyriliklə yol tapanların***
***Dilindən kökünü qaşı Əzizxan!***

“Elmin və poetik təfəkürünün parlaq işığı” sərlövhəli məqaləsində filologiya üzrə fəlsəfə doktoru Ağasən Bədəlzadə “mürəkkəb obrazlar sistemi” olmayan “tək qəhrəmanlı” poemanın məziyyələrindən söhbət açarkən haqlı olaq vurğulayır ki, “Burada mürəkkəb obrazlar sistemi yoxdur. Amma poema müəllifi bu tək obrazın səciyyəsini elə təsəvvür edir ki, oxuyan xəyalən bu alim-müəllim obrazının əhatəsində müxtəlif tipli obrazları, sifətləri gözümüzün qabağına gətirir. Qəhrəman tələbələr qarşısında, dostlar arasında, bədnam ideya opponentləri içərisində, kitablar aləmində, xalqın əhatəsində təqdim edilir. Biz, hər şeydən əvvəl, onu vətən və xalq üçün yanan bir vətəndaş kimi görürük.”

Son olaraq vurğulamaq istəyirəm ki, elm adamının bədii obrazı məharətlə yaradılmış, qəhramanın bütün xüsusiyyətləri zəngin təsvir vasitələri ilə ifadə olunmuş bu poemanı insan mənəviyyatını gözəlləşdirən poeziya da adlandırmaq olar.

*Elşad Abışov*
*Filologiya üzrə fəlsəfə doktoru*

# TÜRKOLOQ-ALİM AFAD QURBANOVUN ÖMUR YOLU TÜRKOLOJİ DÜŞÜNCƏ KONTEKSTİNDƏ

Tarixin uzaq keçmişindən başlayaraq türk xalqlarının dili, tarixi, etnoqrafiyası ilə bağlı orijinal nəzəri mülahizələri özündə ehtiva edən türkologiya elmi minillik təkamülü dövründə türk dünyasına türkologiyanın inkişaf istiqamətlərini müəyyən edən görkəmli simalar bəxş etmişdir. O simalar ki, onlar türkçülük və bütövlükdə Turançılıq konsepsiyasının elmi əsaslarını yaratmışlar.

Fikrimizcə, filologiya üzrə elmlər doktoru, professor Əzizxan Tanrıverdinin bu böyük alim və ictimai xadimin həyat yolundan bəhs edən monoqrafik tədqiqatını "Türkologiyamızın Afad Qurbanovu" adlandırması məhz bununla əlaqədardır.

Müəllifin akademik Afad Qurbanovun həyat və fəaliyyəti ilə bağlı mülahizələri əsərin "Afad Qurbanovu bir alim, türkoloq kimi dəyərləndirmiş alimlərin əsərlərindən sətirlər", "Afad Qurbanovun elmi yaradıcılığı tədqiqatlarda", "Afad Qurbanova həsr edilmiş şeirlər ədəbi tənqid müstəvisində", "Afad Qurbanov Azərbaycan onomastikasına dair konfransların təşkilatçısı və əsas məruzəçi kimi" və s. bölmələrdə ümumiləşdirilmişdir.

Professor Əzizxan Tanrıverdi əsərin "Ustadımı xatırlayarkən" adlandırdığı bölməsində mənim də ustadım, elmi rəhbərim olmuş o böyük şəxsiyyətin-akademik Afad Qurbanovun zahiri portretinin eskizlərini cızaraq onu İsmayıl Şıxlının əsl Azərbaycan kişisinin siması kimi təqdim etdiyi Cahandar ağa və əzəmətli, məğrur görkəmi ilə diqqəti cəlb edən oğuz igidləri ilə müqayisə edir. Müqayisə fonunda bu əzəmətin, bu məğrurluğun insanın mənəvi dünyasından qaynaqlandığını göz önündə canlandıran müəllif zahiri görnüş və daxili keyfiyyətin harmoniyasını öz şəxsiyyətində sintez edən Afad müəllimi yüksək insani dəyərlərə malik bir insan kimi xarakterizə edən keyfiyyətlərdən söz açır: "Sözübütöv, gözütox insan idi: alicənablığı və qayğı-

keşliyinə söz ola bilməzdi: dostuna dar gündə dayaq olmayanlar onun üçün heç idi: özü isə əsl dost idi; boşboğaz, lovğa adamlar gözünün düşməni idi: qazandığı çoxsaylı uğurlarla öyünməz, təvazökarlıq nümayiş etdirərdi".

Akademik Afad Qurbanov sözün əsl mənasında ana dilinin imkanlarından, onun təsir gücündən məharətlə istifadə etməyi bacaran peşəkar natiq, ustad pedaqoq idi. Onun dilinin aydın, səlis, nitqinin məzmunlu və zəngin olmasını səciyyələndirən amillərə münasibət bildirən professor Əzizxan Tanrıverdi obrazlı şəkildə "...çox uzaqlardan gələn bu səsə qədim əcdadlarımızın, ulu Dədə Qorqudun ruhunun hopduğunu qeyd edərək bu canlı nitqdəki doğmalığın, gözəlliyin qaynağını doğru olaraq xalqın ruhunda axtarır ki, bu da müəllifin mükəmməl dilçi kimi dilin canlı bir orqanizm olaraq mənsub olduğu xalqın ruhunu özündə yaşatdığını dərindən dərk etməsi ilə izah oluna bilər. Afad müəllimin bir insan kimi ruhən, mənən öz xalqına, doğma dilinə bağlılığı və təmmanasız sevgisi Əzizxan Tanrıverdi ilə söhbətində daha qabarıq şəkildə öz təsdiqini tapır. O, bu barədə yazır: "Onun elmi yaradıcılığına həsr etdiyim sonuncu məqaləni "Görkəmli türkoloq" başlığı altında çap etdirmək istəyirdim. O isə bununla razılaşmayaraq həmin yazının "Şöhrətli xalq dilçisi" adı ilə çap edilməsinin daha məqsədəuyğun olduğunu tövsiyə etdi". Bu fakt deməyə əsas verir ki, görkəmli akademik üçün ən şərəfli ad bütün titul və adların fövqündə dayanan "Xalq dilçisi" adıdır. Afad müəllim elmi fəaliyyəti ilə hələ sağlığında bu adın zirvəsinə yüksələ bilmişdir.

Professor Əzizxan Tanrıverdi onun dilçilik elminin inkişafındakı xidmətlərindən söz açaraq qeyd edir ki: "Azərbaycan dilçiliyində fonetika Ə.Dəmirçizadənin, leksikologiya S.Cəfərovun, dialektologiya M.Şirəliyevin, morfologiya M.Hüseynzadənin, sintaksis Ə.Abdullayevin, dil tarixi H.Mirzəzadə, Ə.Dəmirçizadə və T.Hacıyevin, morfonologiya F.Cəlilovun, ümumi dilçilik və onomalogiya isə A.Qurbanovun adı ilə bağlıdır".

Bu mülahizənin davam kimi bir faktı da qeyd edək ki, Afad müəllim dilçiliyin təkcə onomalogiya və ümumi dilçilik deyil, türkoloji dilçilik, Azərbaycan dilçiliyinin aktual problemləri, müasir Azərbaycan ədəbi dili, bədii mətnin linqvistik

təhlili və s. sahələri ilə bağlı yazdığı monoqrafiya, dərslik və metodik vəsaitlərdə öz uğurlu elmi nəticələrini təqdim etdikdən sonra, dilçiliyin ayrı-ayrı yaruslarında müşahidə olunan problemlərdən söz açır və bu problemlərin həlli yollarının nəzəri əsaslarını müəyyənləşdirir. Akademik Bəkir Nəbiyev bu haqda yazır: "Afad Qurbanov dilçilik elminin ən görkəmli və məhsuldar nümayəndələrindən biri kimi Azərbaycan və region ölkələrində böyük nüfuz sahibi olmuşdur. Bunun əsas səbəbi hər şeydən əvvəl alimin çoxşaxəli yaradıcılığı və bu sahələrin hər birində əldə etdiyi sanballı elmi nəticələrlə bağlı idi". (bax. Ə.Tanrıverdi. "Türkologiyamızın Afad Qurbanovu" - səh.16)

Professor Əzizxan Tanrıverdi elmdə davamlı və sistemli inkişafın onun gələcək nəsillərə ötrülməsindən keçdiyini yaxşı bilən yüksək intellektə, geniş erudisiyaya malik Afad müəllimin elmə gəlmək istəyən istedadlı gənclərə xüsusi qayğı ilə yanaşmasına da toxunaraq onlara verdiyi tövsiyələrə diqqət çəkir." Elmi fəaliyyət sahəsinə qədəm qoyan hər bir tədqiqatçı üçün əsas və ilkin şərtlərdən biri onun sevdiyi elmin vəziyyətini, dünya elmləri sistemində yerini, digər elmlərdən fəqli olan başlıca əlamətlərini bilməsidir. Elm nümayəndəsi tədqiq etdiyi elm sahəsinin keçmişi, indisi və gələcəyi ilə maraqlanmalı, geniş axtarışlar, geniş müşahidələr əsasında elmi məsələnin tədqiqi istiqamətlərini özü üçün müəyyənləşdirməkdə əməyini əsirgəməməlidir. "Afad müəllimin bu cür bir baş hədəfə yönəlmiş məntiqli, düşünülmüş fikir və mülahizələri yetişdirdiyi altmışdan çox doktorant (fəlsəfə doktoru və elmlər doktoru) üçün Əzizxan Tanrıverdinin dediyi kimi, bir növ, proqram səciyyəsi daşıyırdı. Akademik Afad Qurbanovun rəhbərliyi altında yetişən bu dilçilər onun yarımçıq qalmış elmi ideyalarını davam etdirməklə Azərbaycan dilçiliyinin və türkologiyanın inkişafına töhfə verməkdədirlər.

Afad müəllimi şəxsiyyət kimi xarakterizə edən mühüm keyfiyyətlərdən biri də bacarıqlı təşkilatçı, çevik, düşünülmüş qərarlar qəbul edən, yüksək idarəçilik qabilliyətinə malik ədalətli rəhbər olması idi.

Professor Əzizxan Tanrıverdinin " Türkologiyamızın Afad Qurbanovu"nun ömür yoluna işıq salan bu əsərində gör-

kəmli Xalq dilçisinin Pedaqoji Universitetdə dekan, daha sonara rektor olduğu dövrdəki təşkilatçılıq fəaliyyətinə geniş yer verilir. Azərbaycan dilçiliyinin və türkologiyanın inkişafını hədəf kimi seçmiş Afad müəllimin rəhbərliyi dövründə tanınmış yazar və elm adamları ilə tələbələrin görüşünü təşkil etməsi, bir-birinin ardınca müxtəlif mövzulu elmi konfransların keçirilməsi ,” Sovet Türkologiyası “ jurnalının baş redaktoru, akademik E.Tenişev kimi görkəmli türkoloqları Pedaqoji Universitetə dəvət etməsi haqda əsərdə sistemli məlumat verilir. Və bütün bunlar doğru və məntiqli olaraq Afad müəllimin yorulmaz təşkilatçılıq fəaliyyətinin təzahürü kimi xarakterizə olunur.

Əsərin “Afad Qurbanovun elmi yaradıcılığı tədqiqatlarda” adlı bölməsində professor Əzizxan Tanrıverdi görkəmli alimin elmi-pedaqoji fəaliyyətinə iki yüzdən artıq yazının həsr edildiyini və bu yazıların Afad müəllimlə bağlı üç kitabda çəmləşdiyini bildirir. O, Afad müəllim haqqında yazılmış məqalələri Ümumi dilçilik məsələləri; Müasir Azərbaycan ədəbi dili problemləri; Azərbaycan dilçiliyi problemləri; Azərbaycan dilinin onomalogiyası; Türkoloji dilçilik; Bədii əsərlərin dili və s. istiqamətlərdə qruplaşdıraraq Bəkir Nəbiyev, Adil Babayev, İsmayıl Məmmədov, Nəbi Əsgərov, Həsən Balıyev, Qara Məşədiyev, Sayalı Sadıqova, Mirvari İsmayılova və başqa tanınmış dilçilərin bu istiqamətdəki mülahizələrini dilçi peşəkarlığı ilə linqvistik təhlil süzgəcindən keçirir.

Akademik Afad Qurbanov zəngin mənəvi varlığı, elmi-pedaqoji görüşləri ilə qəlbən bağlı olduğu xalqına, millətinə şöhrət gətirən, onun adını ucaldan bu ucalıq fonunda özü də əlçatmaz bir yüksəklikdə ədəbi qərarlaşan bir şəxsiyyətə çevrilmişdir. Bu ucalıq məqamı bədii söz sənəti ilə məşğul olan söz adamları tərəfindən vəsf edilmiş, nəticədə Afad müəllimin şəxsiyyətinin tərənnümünə həsr edilmiş gözəl poetik nümunələr yaranmışdır.

Professor Əzizxan Tanrıverdi əsərində bu nümunələri ədəbi tənqid müstəvisində ayrıca təhlilə cəlb edərək o, böyük alim haqqında yazılmış şerlərlə bağlı təəsüratlarını belə dilə gətirir: “Afad Qurbanov haqqında yazılmış şeirləri oxuduqca xəyyalara dalmalı olursan. Və bu məqamda o böyük şəxsiyyətin hərəkət trayektoriyası assosiativ olaraq gözlərin önündə canlanır…

xəyallar aləmində sanki onun səsini də eşidirsən. Bu səs bəzən lap yaxında eşidilir, bəzən isə Qərbi Azərbaycandan, Borçalıdan və daha çox, uzaq türk ellərindən gəlir".

Professor Əzizxan Tanrıverdi Afad Qurbanovun ömür yoluna həsr etdiyi əsərin sonuncu bölməsini "Afad Qurbanov Azərbaycan onomastikasına dair konfransların təşkilatçısı və əsas məruzəçisi kimi" başlığı altında təqdim edir.

Əsərin bu bölməsində akademik Afad Qurbanovun 1986-ci ildən başlayaraq Azərbaycan dilinin onomastikası, nitq mədəniyyəti, Azərbaycan terminologiyasının müasir vəziyyəti ilə bağlı təşkil etdiyi konfranslar və bu konfranslarda əsas məruzəçi kimi onun Azərbaycan dilçiliyinin ayrı-ayrı sahələri və türkologiya elmi qarşısında duran vəzifələrdən bəhs edən proqram səviyyəli məruzə və tezislərinin şərhinə geniş yer verilir.

Akademik Afad Qurbanovun uzun müddətli və gərgin araşdırmaları nəticə etibarı ilə dilçiliyin ayrı-ayrı sahələrində müşahidə olunan bir çox zidiyyətli məqamlarını aradan qaldırılması ilə yanaşı, Azərbaycan dilçiliyinin müstəqil şöbəsi olan onomalogiya elminin yaranmasına gətirib çıxarmışdır.

Professor Əzizxan Tanrıverdi bu barədə yazır: "Professor Afad Qurbanov dilçiliyin bir çox sahələrini əhatə edən çoxcəhətli elmi yaradıcılığa malikdir. XX yüzilliyin II yarısı Azərbaycan dilçiliyinin inkişafında xüsusi dövr hesab edilə bilər. Bu dövrdə Azərbaycan dili onomalogiyasının müstəqil bir nəzəri dilçilik şöbəsi kimi formalaşması bilavasitə professor Afad Qurbanovun adı ilə bağlıdır".

Professor Əzizxan Tanrıverdi Afad müəllimin son 40 ildə dünyanın bir sıra böyük şəhərlərində dilçiliyə, xüsusilə türkologiyaya aid keçirilən konfransların əksəriyyətində aktual mövzularla çıxış etdiyini əsərlərinin Almaniya, Rusiya, İran, Türkiyə, Qazaxıstan, Türkmənistan, Özbəkistan və s. ölkələrdə yayıldığını qeyd edir.

***Rəhilə Hümmətova***
***fililogiya üzrə fəlsəfə doktoru, dosent***

## 60 YAŞIN İŞIĞINDA

Mənə elə gəlir ki, insanı ucaldan, mənəviyyatca zənginləşdirən onun məsləki, əqidəsidir. Məslək, inandığı əqidə, tutduğu yol, uğrunda illərini, gəncliyini verdiyi ideal qədər insanı şəxsiyyətə çevirən başqa bir qüvvə yoxdur. Günlər, aylar, illər tələsdikcə insan, həqiqətən, amalı, əqidəsi, məsləki ilə vəhdəti-vücud olur, bir canda birləşir. Dahi Nəsimi demiş, " Can necə tərk eyləsin, ey can, səni, Çünki canın canısan, ey canımız".

Bu fikirləri fədakar alim, qayğıkeş müəllim, sadə, səmimi, humanist İnsan ömrü yaşayan Bizim Əzizxan müəllimə şamil etsək, qətiyyən yanılmarıq. Çünki Əzizxan müəllim bütün ömrü boyu türk-oğuz xalqının böyük ədəbi-tarixi abidəsi olan " Dədə Qorqud " un söz dünyasını, dil möcüzəsini, obrazlı dilini, dilimizin poeziyasını, poeziyamızın dilini, onun keçdiyi inkişaf yollarını, "Qədim türk mənbələrində yaşayan şəxs adları" nı yorulmadan araşdırmış, tədqiq etmiş, Dədəm Qorqudun zamanına enərək ağsaqqallı, ağsaçlı müdrik Dədə olaraq qayıtmışdır. Əzizxan müəllim Dədə Qorqudun zamanına endikcə dilimizin, soykökümüzün ilkin çağlarına gedən yolun, əslində, gələcək tariximizin, dilimizin tale yollarına işıq saldığını bilirdi. Özü də bu yolda – ilkin çağlarla indiki zaman arasındakı yollarda Simurq quşu kimi odlara qalandı, bu uğurlu yolda ömrünü-gününü tükətdi, yoruldum demədi. Dilimizin qədim çağlarına endikcə hər biri "Dədə Qorqud" sanbalında onlarla əsərlər araya-ərsəyə gətirdi Əzizxan müəllim!

Alim çox gözəl dərk edirdi ki, dilin bugünkü taleyi yazılı qədim abidələrimizin, folklorumuzun sarsılmaz özülünə borcludur, ona söykənir. Bu abidələrin dil xüsusiyyətləri nə qədər dərindən və əsaslı şəkildə araşdırılsa, bugünkü dilimiz o qədər güclü və əzəmətli olacaq. Əzizxan müəllimin Dədəm Qorquda, klassik

ədəbiyyatımıza, folklorumuza vurğunluğu onun soykökünə, milli-mənəvi dəyərlərə, türkçülüyə bağlılığından qaynaqlanır. Fədakar alim bütün ömrünü "Kitabi-Dədə Qorqud" adlı mənəviyyat, tarix, söz ümmanının dərinliklərində üzməyə sərf etmişdir. Mahir bir qəvvas kimi "Dədə Qorqud" bəhrinin ən dərin yerlərindən zaman-zaman nadir incilər tapıb üzə çıxartmış, o incilərin parıltısında dilimizin qüdrəti, fonetik sistemi, leksik tərkibi, qrammatik quruluşunu yaratdığı elmi əsərlərlə daha qabarıq göstərmişdir. " Dədə Qorqud " un söz dünyasına, qəhrəmanlıq tarixinə bitməz-tükənməz sevgisi alimin, sözün əsl mənasında, həyat amalına çevrilmişdir. Oğuz bahadırlarının qəhrəmanlıqlarını araşdırdıqca özü də əlinə qılınc götürdü, "Çal qılıncını, ağam Qazan, yetdim" deyib, savaş meydanına tələsdi Əzizxan müəllim! Dədəm Qorqudun getdiyi yollarda yürüdükcə bu yollar onu böyütdü, Dədə Qorquda olan Məcnun eşqi onu cavankən " dədələşdirdi ", müdrikləşdirdi. Bax tariximizə, dilimizə təmənnasız sevgidir Əzizxan müəllimin şəxsiyyəti ilə amalını, əqidəsini vəhdəti-vücud halına gətirən! Bu eşqdir böyük alimi yorulmağa qoymayan! Bu əziyyətli yolda fədakar alimimizə, əziz dostumuza Uca Tanrıdan can sağlığı diləyirəm!

Əzizxan müəllimin alimliyi, ensiklopedik biliyi, geniş dünyagörüşü, dərin və güclü məntiqi, müəllimliyi haqqında kifayət qədər gözəl fikirlər söylənib. Mən bu haqda çox danışmaq istəmirəm. Çünki "görünən dağa nə bələdçi? "

Əzizxan müəllim həddindən artıq mülayim, sadə bir insandır. Elə onun böyüklüyü də bu sadəliyindədir. Sadənin izaha ehtiyacı olmur. Mən də sadə və sadə olduğu qədər də böyük, alicənab İnsan olan Əzizxan müəllim haqqındakı qeydlərimi sadə bir dillə yazmaq istəyirəm. 60 ilin işığında Əzizxan müəllimin ömür karvanının gəldiyi yollara boylananda 40 il bundan əvvəlki 19 yaşlı Əzizxanı xatırlayıram. Hələ sadəcə Əzizxan! Mənim tələbə yoldaşım Əzizxan! Bəzən sakit, mülayim, bəzən odlu-alovlu, bəzən də "qəzəbli" Əzizxan! "Qəzəbli" olmağını daha çox 1980-ci ildə Stavropola tələbə-inşaat dəstəsinin rəhbəri olaraq gedəndə görmüşdüm. Əslində, bu qəzəb deyildi. Bu

qəzəbin içərisində bir canıyananlıq, qayğıkeşlik gizlənirdi. Heç vaxt kimsənin haqqını tapdalamağa imkan vermirdi Əzizxan. Onu qəzəbləndirən biz idik. Bir də görürdün, tələbələrin bəziləri onun tapşırığını vaxtında yerinə yetirmir, icazəsiz kanala gedir. Əzizxan da bundan qəzəblənirdi. Axı filologiya fakültəsinin bütün məsuliyyəti Əzizxanın çiynində idi. Mən də Əzizxanın briqadiri idim. Deyirdim, Əzizxan, bizə böldüyün sahənin işini vaxtında qurtaracağıq, ancaq icazə ver, qızlar kanala getsin. O da sağ olsun, icazə verirdi. Deyə-gülə Stavropol çöllərində xiyar-pomidor yığaraq SSRİ-yə "öz borcumuzu" verirdik. Əzizxana o qədər böyük hörmətimiz var idi ki, o gəlmədən süfrəyə oturmazdıq. Bu sevgini və hörməti insanlığı, sadəliyi, mülayimliyi ilə qazanmışdı. Di gəl, qəzəbləndə üzünü görmə. O da yaz yağışı kimi tez keçirdi. Əzizxanda kin yox idi. Burdan dalaşıb, burdan da barışardıq. Hirslənəndə bir ispan kepkası var idi, onu yerə çırpırdı. Bu da qızlarımızın yamanca xoşuna gəlirdi. Mənə yalvarırdılar ki, sən allah, Əzizxanı tez-tez hirsləndir. Təbii ki, mən də onların sözünü yerə salmırdım. Hələ Matanova hirsləndiyini görəydiniz. Bir dəfə Əzizxan Matanova (qrup yoldaşlarımızdan idi) tapşırmışdı ki, traktorçu tapıb gətirsin. Matanov da rus dilini bilmirdi. Birtəhər əl-qol hərəkəti ilə traktorçunu tapmışdı. Bir də gördük ki, Matanov qabaqda, traktor da onun arxasınca gəlir. İşarə ilə başa salıbmış ki, mən hara gedirəmsə, sən də arxamca sür. Bu hadisəni danışanda Əzizxan nə qədər gülmüşdü, gözündən yaş gəlirdi.

Öz aramızdır, rusların da yaxşıca dərsini verirdin ha, Əzizxan. Bizə ləzzət edirdi. Axşamlar da konsert olardı. Oxuyan kim, oynayan kim...

Bax beləcə, ömür karvanımızın getdiyi yolun düz dörd ilini eyni auditoriyalarda bərabər keçirdik əziz tələbə yoldaşımızla.

Daha sonra tale yollarımız bizi doğma elm məbədində yenidən bir araya gətirdi. Bu dəfə Əzizxan müəllim oldu mənim üçün. Baxmayaraq ki, görkəmli alim, professor, qalaq-qalaq kitabların müəllifi idi, yenə də qarşımda o sadə, humanist, mülayim, təvazökar Əzizxan dayanmışdı.

Əzizxan müəllimi bizim kafedranın (Azərbaycan dili və onun tədrisi metodikası) müdiri vəzifəsinə seçiləndən sonra daha dərindən kəşf etdim. Adətən, deyirlər ki, "Adamı tanımaq üçün ona pul, bir də vəzifə ver. Bu iki şey qədər onu tanıdan heç nə olmaz ". Bu, həqiqətən, belədir. Lakin vəzifə Əzizxan müəllimin şəxsiyyətini qətiyyən dəyişdirmədi. Əksinə, bu böyük alim daha yumşaq, hamının dərdini anlayan, daha mülayim, daha insanpərvər oldu. Bu insani keyfiyyətlər, əslində, Əzizxan müəllimin fitrətindədir, qanındadır. Dərs dediyi, dil tarixinin inkişaf yollarına, ilkin çağlarına gedən yollarda bələdçilik etdiyi, elm öyrətdiyi tələbələr də məhz bu cür mənəvi zənginliyinə, humanistliyinə görə çox sevirlər Əzizxan müəllimi. Əzizxan müəllim ən böyük statusu – " tələbələrin atası " statusunu qazanmış alimdir. Fikrimcə, bundan böyük fəxri ad ola bilməz müəllim üçün, alim üçün!

Ömür karvanının getdiyi yollarda uğuruna xeyir çıxsın, əziz tələbə yoldaşım, qayğıkeş kafedra müdirim, səmimi Əzizxan müəllim! 60 yaşın mübarək! İnşaallah 90-dan 60-a boylananda nə qədər uğurlara imza atdığını bir-bir xatırlayıb qürur hissi keçirəsən!

***Şəhla Əhmədova***
***Bakı Slavyan Universiteti***
***Müasir Azərbaycan dili kafedrasının dosenti***

# DİLÇİLİYİMİZİN TANRI VERGİSİ – ƏZİZXAN TANRIVERDİ

Əzizxan müəllimin əvvəlcə tələbələrini tanımışam. O qədər ağızdolusu, heyranlıqla danışıblar ki, savadından, insanlığından, mühazirələrindən. Yusif Novruzov deyir ki, Əzizxan müəllimin bir dərsi belə "Kitabi-Dədə Qorqud"dan gözəl bir nümunə demədən bitməzdi. Aytən Naxçıvanski magistraturada dərslərin həmişə vaxtından çox uzandığını, Əzizxan müəllimlə vaxtın da nəzarətdən çıxdığını qeyd edir. Vüsalə Dəmirzadə Əzizxan müəllimin tələbələrdə sual vermək vərdişi yaratdığını, suallardan qaçmamağı Əzizxan müəllimdən öyrəndiyini söyləyir. İndi müxtəlif təhsil ocaqlarında işləyən yetirmələri öz müəllimləri haqqında həmişə sevgi ilə, sayğı ilə danışırlar.

Sonra Bəşir Əhmədovun "Etimologiya lüğəti"nin təqdimat mərasimində qarşılaşdıq. Əzizxan müəllim Bəşir müəllimin sağlığında pərakəndə şəkildə çap olunnmuş etimoloji tədqiqləri tələbələrlə toplayıb bir kitab halında nəşr etmək cəhdimizi yüksək dəyərləndirdi. Bu lüğəti nəşrə hazırlayan işçi qrupun gənc üzvlərinə münasibətindən onun gəncləri sevdiyini, qiymətləndirdiyini, qürurlandığını hiss etdim. Elə oradaca bu işi davam etdirmək, digər etimoloji tədqiqləri, məsələn, Ə.Dəmirçizadənin və b. bu sahədəki araşdırmalarını toplamaq istəyimizi bildirəndə bu işə Bəkir Çobanzadədən başlamağı tövsiyə etdi.

Dastanlarımızın leksikası, xüsusən "Koroğlu" dastanının lüğəti üzərində iş zamanı yenə Əzizxan müəllim dadımıza çatdı. "Koroğlu" dastanının lüğətini bu dastanın dilini tədqiq edən, "Koroğlu"nun şeir dili" monoqrafiyasının müəllifi olmuş bir aliməə deyil, kimə etibar etmək olar? Dedilər, tələbkar redaktordur, uzun müddətə oxuyacaq, çox zaman sərf edəcək. Əzizxan müəl-

lim nə uzatdı, nə gecikdirdi. Cərrah kimi, zərgər kimi işlədi. Hər məsuliyyətli alim həm də məsuliyyətli redaktor ola bilmir. Əzizxan müəllim göstərdi ki, redaktorluğa ayrılan vaxt hədər getmir, başqasına aid olsa da, bir çap məhsulunun keyfiyyətli alınmasında iştirak edirsənsə, bundan elm də, oxucu da qazanır.

Əzizxan müəllim mənim nəzərimdə akademikliyə gedən yolda inamla addımlayır. Buna onun potensialı da imkan verir, çap etdirdiyi elmi əsərlərin, monoqrafiyaların sayı da. "Dədə Qorqud"dan "Koroğluya qədər, İsmayıl Şıxlıdan Anara qədər onun tədqiqat obyektinin sərhədi genişdir. Son kitabının özü qədər adı da maraqlıdır: "Türkologiyamızın Afad Qurbanovu". Afad Qurbanov haqqında nə qədər desək tərif işlətmək olar. Amma böyük dilçilərin, böyük alimlərin tək adı yetər ki, onu tanıtsın, ifadə etmiş olsun. Əzizxan müəllimin Afad Qurbanov haqqında işlətdiyi ifadəni onun özünə də aid etmək olar: "Türkologiyamızın Əzizxan Tanrıverdisi"

Allah Tanrı vergisi Əzizxan Tanrıverdini bu millətə çox görməsin! Əzizxan müəllimə bir bu qədər də məhsuldar ömür arzulayıram.

***Esmira Fərhad qızı Məmmədova***
***pedaqogika üzrə fəlsəfə doktoru***

## YOLUMA İŞIQ SAÇAN MÜƏLLİM!

Sevdiyin, şəxsiyyətinə, mənliyinə böyük hörmət və ehtiram bəslədiyin, fəaliyyətini özün üçün örnək saydığın bir insanın ömür yolu barədə düşünmək nə qədər asandırsa, düşündüklərini hissə qapılmadan, doğru-düzgün qələmə almaq bir o qədər çətindir, mürəkkəbdir...

İnsan var ki, onu qohum-əqrabasından başqa, heç kəs tanımır. İnsan var ki, az iş görüb çox tanınmağa çalışır. İnsan da var ki, daim qəlbini yüksək mənəviyyatla doldurur,özünü təkmilləşdirir, müdrikliyini, qüdrət və cəsarətini artırır. Ömrünü çıraq edib milyonların yolunu işıqlandırır, qəlbinə, idrakına nur saçır. Yorulmaz fəaliyyətindən iz salan əməllərindən başqalarına da pay düşür. Müasirlərini, gələcək nəsilləri doğru yola istiqamətləndirir. Özü şam kimi əriyir. Vicdanının səsinə qulaq asa-asa başqalarını da haqqa, ədalətə səsləyir. Xoşbəxtlik, səadət təlqin edən düşüncələri ilə hamının hörmət və ehtiramını qazanır. Mən tam qətiyyətlə deyərdim ki, filologiya üzrə elmlər doktoru, professor Əzizxan Vəli oğlu Tanrıverdi məhz sonunculardandır. Qəti sözü, aydın fikri, orijinal yolu, güclü məntiqi, təmənnasız xeyirxahlığı, düz ilqarı olan professor barədəki düşüncələrimi ağ kağıza köçürmək istərkən xəyalım məni çəkib dörd il əvvələ apardı....

2014-cü il oktyabr ayının 28-i idi. Unutmayacağım bir tarix. Həmin gün pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almağım üçün ADPU-nun kiçik akt zalında müdafiəm təşkil olunmuşdur. Mən bir təhər həyəcanlı çıxışımı başa vurub titrəyə-titrəyə yerimdə əyləşdim. Professor Fərrux Rüstəmov: "İndi isə söz Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiri, professor Əzizxan Tanrıverdiyə verilir" - dedikdə, məni

dəhşətli həyəcan hissi bürüdü. Çünki qiyabi də olsa, Əzizxan müəllimin elmi fəaliyyəti, Azərbaycan dilinin tarixi qrammatikasını necə dərindən bildiyi haqqında məlumatım var idi.

Tiribunada Əzizxan müəllim dissertasiya işimlə bağlı çıxış etdi və əyləşdi. Onun mənim işimlə əlaqədar söylədiyi bütün fikirlər hələ də yadımdadır. Professor Əzizxan Tanrıverdinin natiqlik məharətinə, səlis və aydın nitqinə heyran olmuşdum. Ürəyimdə fikirləşirdim. Belə bir müəllimin tələbəsi olmaq mənə niyə nəsib olmamışdır?...

2016-cı ildə tale məni Əzizxan müəllimlə bir də görüşdürdü. Mən onun tələbəsi olmasam da, rəhbərlik etdiyi "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasının müəllimi oldum. Bu, həqiqətən də, mənim əlçatmaz arzum idi. Professor Əzizxan Tanrıverdi ilə çiyin-çiyinə çalışmaq həm çətin, həm də şərəflidir. Belə bir pedaqoqun, dilçi alimin kafedrasında işləmək böyük məsuliyyət tələb edir.

Artıq o gündən iki il vaxt keçir. Az müddət olsa da, mən professor Əzizxan Tanrıverdidən çox şey öyrəndim. Hələ də öyrənməyə davam edirəm. Onun Azərbaycan dili və onun tədrisi metodikası haqqında dəyərli, əvəzolunmaz fikir və təkliflərindən yararlanmamaq qeyri-mümkündür.

Hadisələri qabaqlama, proqnoz vermə cəhətdən Əzizxan müəllim başqalarında fərqlənir. Gənclərə dəstək olması, hər zaman bizə kömək etməsi, metodik cəhətdən tövsiyələr verməsi Əzizxan müəllimin sadə, təvazökar olmasında xəbər verir.

Yazdığı məqalələr, "Kitabi-Dədə Qorduq" dastanı haqqında çap etdirdiyi kitablar bizə verdiyi ən qiymətli xəzinədir. Onun "Azərbaycan dilinin tarixi qrammatikası" kitabı Azərbaycan dili müəllimlərinin stolüstü kitabına çevrilib.

Əzizxan müəllim! Bu gün tam əmin ola bilərsiniz ki, Azərbaycan dilinin inkişafında, Azərbaycan dili və onun tədrisi üzrə pedaqoq alim nəslinin yetişməsində haqqı-sayınız böyükdür, elmdə prinsipial, insanlara münasibətdə xeyirxahsınız.

Ünsiyyətdə olduğunuz adamların dərin hörmətini qazanmağa qabilsiniz. Hamıda heyranlıq doğuracaq bu hisslər Uli

Tanrıdan Sizə bəxşişdir. Siz zəngin təcrübə və nüfuz sahibisiniz. Qəlbiniz açıq, düşüncəniz aydın, niyyətiniz təmizdir.

Sizi yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edirəm! Çox şanslı biri oldum ki, Sizinlə eyni kafedrada çalışıram. Tələbəniz olmasam da, özümü Sizin yanınızda hələ də tələbə hiss edirəm. Heç düşünməzdim ki, Sizin kimi ləyaqətli, şərəfli və müdrik alim, pedaqoq haqqında mən düşündüklərimi yaza bilərəm. Bu, mənim üçün böyük şərəf oldu. Ad gününüz mübarək, əziz müəllimim! Yaşayın, yaradın!

***Sevinc Əlizadə***
***magistrant***

## BİR TÜRK QIZINDAN...

Əzizxan Tanrıverdi ilə tanışlığım tələbəlik illərinə, daha dəqiq desəm, 2013-cü ilə təsadüf edir. Bu tarix həm də təzə qədəm qoyduğum elm yolunda bir başlanğıc ,özül oldu. Çünki qarşımda sıradan biri yox idi. İlk vaxtlarda adi bir müəllim, pedaqoq kimi yanaşdığım insandan sonralar bir ağac toxumu kimi kök atıb bəhrələnəcəyim ağlıma belə gəlməzdi. Mövqeyi, elmi düşüncə tərzi, baxış bucağı, tələbələrinə qarşı duyduğu həssaslıq, vətənpərvərliyi, yurd sevgisi və saymaqla bitməyən onlarla müsbət keyfiyyəti ən əsası isə mənim üzərimdəki əzmi şəxsiyyətinə biganə qalmağıma mane olurdu. Tam ciddi şəkildə deyə bilərəm ki, Əzizxan Tanrıverdi mənim müəllim şəxsiyətimin memarıdır. Və bu şəxsiyyətin formalaşmasına birbaşa təsir də məhz özü ilə bağlıdır.

Əzizxan Tanrıverdi adı elmi aləmində öz sözünü əməlləri ilə demiş, varlığını dəlillərlə əsaslandırmış, hətta belə demək mümkündür ki, şəxs adı olma funksiyasını itirmiş, məktəb, yol məfhumlarına tay tutulmaqdadır. Böyük professorumuzun ismini hər dəfə xatırladıqca özümdən biixtiyar bir deyim yadıma düşür: " …müəllimlər peyğəmbərlik vəzifəsini üstlənmiş insanlardır." Bu fraza məni bir daha vadar edir ki , Əzizxan Tanrıverdiyə özgə məna yükləyim. Zənnimcə, o, bir missionerdir. Əks təqdirdə 60 ilə sığmayan bir həyatı necə yaşayardı ki bir başqası?! Bəli, Tanrı onu bizə bu missiyanı sonuna qədər icra etmək üçün verdi. Məsuliyyəti dərin, ağır, tutduğu yol müqəddəsdir. Həm də elə bir yoldur ki, əsrlərin elm bağı-nın üzərində qərar tutub. Bir ucu məşhur türkoloq alim Bəkir Çobanzadəyə, professor Əbdüləziz Dəmirçizadəyə və ustadımın dönə-dönə vurğuladığı, xatirəsinə ehtiramla yanaşdığı böyük dilçi, "Türkologiyamızın Afad Qurbanov"-una dayanan , bugünkü gündə isə ustadım sa-

yəsində mənə də mənəvi təsiri olan möhkəm bağlar öz yükünü daşıyır. Bəli, bütün bu saydıqlarım məni profess-sorumuza bir az da yaxınlaşdırır. Onunla paylaşa biləcəyim ortaq şeylərin olması sevincini yaşayıram. Ustad dili ilə desək, " Bütün bunlar təsadüfi oxşarlıq, yoxsa real zərurət olduğunu deməkdə çətinlik çəkirəm. Görünür, bu, bir taledir." Axı əks təqdirdə belə bir şəxsiyyət haqqında qələmimi sınamaq mənə necə nəsib ola bilərdi?! Qarşısında adicə danışığımı belə itirdiyim insan üçün bu qədər kəlməni necə bir araya qoyub yaza bilərdim?! Buna layiq olacaq nə et-mişdim ki?! Cavablandırmaqda çətinlik çəkdiyim bu sualların tək cavabı vardı - Əzizxan Tanrıverdi sevgisi.

Yenicə işıq üzü görmüş möhtəşəm "Türkologiyamızın Afad Qurbanovu" kitabını vərəqləyərkən ustadımın öz müəllimə, ustadına olan sonsuz ehtiramının, sevgisinin sahidi oldum. Sevmək, duyğuları və hissləri olan insanların ortaq özəlliyidir. Kitabla daha çox tanış olduqca duyğulara ortaq olmağın, sevincləri paylaşmağın, həsrəti bölüşməyin, həm də bunların müəllim-tələbə fonunda gerçəkləşdiyinə diqqəti cəlb etsəm, tam əminliklə deyə bilərəm ki, Əziz-xan Tanrıverdiyə elə bu rəvac verir ki, o özü də tələ-bələrinə qarşı bəslədiyi müəllim sevgisi şam kimi deyil, günəş olmuşdur. Gəncliyimizi bilgiləndirən, şəkilləndirən, tələbələrini sevən, onlara elmi sevdirən, sosial-akademik inkişafı izləyib rəhbərlik edən, olduğu hər mühiti yeniliyə,axtarışa sövq edən bənzərsiz müəllimlərimizdəndir Əzizxan Tanrıverdi.

Bu yazını yazmağa başlayanda necə bitirəcəyimi, hansı nüanslara toxunacağımı bilmirdim. İşə araşdırmaqdan başladım. Uzun zamandır tanıdığım professorumuzu öz kitablarında, məqalələrində, əsərlərində axtardım. Hər boylandığım sətirdə ayrı bir insan yaşayırdı. Müxtəlif mövzular, fərqli situasiyalar, sirli məqamlar- bir sözlə, hər işdə öz imzası, öz yanaşması vardı ustadın. Düzü lap başımı itirmişdim. Axı hər gün qarşılaşdığım o sadə görkəmli insan necə bu qədər mürəkkəb həyat yaşaya bilər?! Elmi fəaliyyətinə boylandıqda anladım ki, bura çox dərindir, nə mən, nə də bir başqasının üzə biləcəyi sular deyil. O səbəbdəndir ki, cümlələrimdə ona heyranlıq, mutilik var. Eynilə

onun özünün ustadına olan düşüncələri kimi, bəlkə, daha da cox. Ancaq bir şeydən şübhəm yoxdur ki, onun güvənini, az da olsa, qazanmışamsa deməli bu 24 ildə layiqli nəyəsə sahib olmuşam.

Hörmətli ustadım, (bəli, məhz sizin kimi xitab edirəm) Afad müəllimin əkdiyi o çinarlarda biz yetişdik, onun abadlaşdırdığı cansız auditoriyalarda biz doğulduq, gələcək bizim, biz də Siz müəllimlərin əsəriyik. İndi siz söyləyin mənə kim deyə bilər ki, çinarlar barsızdır?, kim məni inandıra bilər ki, daşlar, divarlar dilsizdir? Axı orada sizin, mənim və hamımızın səsi var və əmin olun ki, o səs dünyadakı bütün səslərdən fərqlidir. Çünki orada hər daş, hər yarpaq ustadların canlı seyircisi olub. Bəlkə də, dili olsa, deməyə nə çox sözləri vardır...

60 yaşınız qeyd etdiyiniz ən kiçik yubileyiniz olsun, dəyərli müəllimim! Hələ neçə-neçə 60 illiklər Sizi unutmayacaq. Unudulmayan ustadınız kimi. Hər kəlmədə, hər sözdə sizinlə yanaşı türk dilinin tarixi də yaşayır. Əsrlərə sinə gərən dilimiz kimi siz də əbədiyaşarsınız. Sizə yeni-yeni fəthlər arzu edirəm, boyük fateh! Mürəkkəbi alın təriniz olan qələminiz qılıncdan da kəsərli və ədalətli olsun!

***Şəhriyar Bəhmənov***
***magistrant***

## "DƏDƏ QORQUD" AŞİQİ

Artıq 6 ilə yaxındır ki, Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil alıram. Düzü, bu universiteti heç vaxt sevməsəm də, dünyagörüşümün formalaşmasında, həyat təcrübəmin artmasında, əhatə dairəmin genişlənməsində ADPU-ya borcluyam. Və ən əsası bu universitetin sayəsində həyatımda çox böyük rolu olan, mənim inkişafımda əvəzsiz xidməti olan müəllimlərimizi tanımışam. 4 il bakalavr, 2 il magistratura pilləsi üzrə təxminən 100-ə yaxın müəllimdən dərs almışıq. Bu illər ərzində az-çox nə öyrənmişiksə, birinci növbədə müəllimlərimizə borcluyuq. O müəllimlərimizə ki, öz biliklərini bizə böyük həvəslə ötürmüş, bizim keyfiyyətli kadr kimi yetişməyimizdə zəhmət çəkmişlər. N.Abdullayev, Z.Xəlil, N.Xudiyev, M.Hüseynov, N.Nəcəfov, R.Yusifoğlu, R.Hüseynov, Ə.Abbasov, T.Salamoğlu, Y.Babayev, M.Qasımov, Z.Rəsulov kimi əsl müəllimlərin tələbəsi olduğum üçün fəxr edirəm. Belə müəllimlərimizdən biri də Əzizxan Tanrıverdidir.

Əzizxan müəllimlə ilk tanışlığımız 2013-cü ilin sentyabrına təsadüf edir. O vaxt mənim 18 yaşım var idi və mən filologiya fakültəsinin II kursunda təhsil alırdım. Bu günə kimi yadımdadır. Bədən tərbiyəsi dərsindən sonra bizə ikinci dərs Tarixi qrammatika fənnindən mühazirə olmalıydı. Bu fənnin mühazirəsini Əzizxan müəllim, seminarını İradə xanım tədris edirdi. Hətta o da yadıma gəlir ki, onun ilk dərsinə gecikmişdik. Bizim birləşmə bir qədər nadinc, problemli birləşmə kimi fakültədə məşhur idi. Əzizxan müəllim tədricən birləşməni ələ aldı, əvvəlki biliklərimizi ümumi suallarla yoxlayıb müəyyən qənaətə gəldi. İlk dərsdə yadımda qalan onun bizə məşhur ifadənin (İlanın zəhləsi yarpızdan gedər, o da gəlib yuvasının ağzında bitər) əsl mənasını açması oldu.

Əzizxan müəllimin sonrakı dərslərində ən çox diqqətimi çəkən məqam o idi ki, o, bəzi müəllimlər kimi cansıxıcı, monoton, üzündənoxuma mühazirəyə yox, dialoji təlimə üstünlük verirdi. O, mövzunu elə mühazirədə mənimsətməyə çalışır, dərsdə bizi də müzakirəyə cəlb edir, fəal olmağa çağırırdı. Ona görə onun dərsləri digər müəllimlərin dərslərindən fərqlənirdi. Yeri gəldikcə, hər hansı sözün, ifadənin, şəkilçinin mənbələrdəki ilkin variantı ilə oxşar və fərqli cəhətlərini müqayisə edib bizə dolğun məlumat verərdi. Düzü, mən onun bu xüsusiyyətinə təəccüb edirdim. Çünki o, həmin sözü, ifadəni, şəkilçini hansı mənbədə, hansı əsərdə, kimin dilindən necə verildiyini olduğu kimi əzbər deyərdi. Ən çox da "Dədə Qorqud" dastanından, Mahmud Kaşğarinin "Divan"ından nümunələr gətirib fikrini əsaslandırardı. Və bizə təkidlə M.Kaşğarinin "Divan"ını almağı, oxumağı tövsiyə edərdi.

Deyirlər, ağac bar verəndə başını aşağı salar. Bu mənada Əzizxan müəllimdə əsl ziyalı sadəliyi var. Elə müəllimlər var ki, hər nə qədər bilikli olsa da, tələbələri ondan çəkinir, nəyisə soruşmağa utanırlar. Amma Əzizxan müəllim ünsiyyətə açıq insandır. Əzizxan müəllim elə şərait yaratmışdı ki, biz dərsdə və dərsdən kənarda hər hansı mövzu barəsində qaranlıq məqamları ondan çəkinmədən soruşa bilirdik. Elə indinin özündə də o, magistrantlara böyük diqqətlə yanaşır, hamının işləri ilə maraqlanır, lazımi məsləhətlərini verir.

**"Dədə Qorqud" aşiqi.** Yazıya bu başlığı verməyim təsadüfi deyil. Yuxarıda da qeyd etdiyim kimi, Əzizxan müəllim dərsdə ən çox "Dədə Qorqud dastanı"na istinad edirdi. Mən o vaxt elə zənn edirdim ki, bu təkcə illərin təcrübəsindən irəli gəlir və hər dəfə təzahür edir. Lakin sonralar dərk etdim ki, bu eposa müəllimin xüsusi sevgisi var. Bu sevgi onun elmi yaradıcılığında özünü aydın şəkildə göstərir. Təsadüfi deyil ki, onun yaradıcılığında "Dədə Qorqud" dastanına həsr olunmuş neçə-neçə əsər vardır ("Kitabi-Dədə Qorqud"un obrazlı dili", "Kitabi-Dədə Qorqudun söz dünyası", "Kitabi-Dədə Qorqud"da şəxs adları",

"Dədə Qorqud kitabı"nda at kultu"). Əlbəttə, bu qədər əsəri təkcə tədqiqat xatirinə yazmaq olmaz. Deməli, burada başqa bir sirr var. Müəllim yazılarının birində qeyd edir ki, "Kitab"ın hər sözü, hətta hər bir səsi belə məni rahat buraxmır, xəyallar aləminə aparır, yurd həsrətli "Qom qomlamım qoma yurdum!. Səni yağı nerədən darımış, gözəl yurdum" ...misraları əsəblərimi tarıma çəksə də, bütöv Azərbaycan uğrunda mübarizəmə güc-qüvvət verir; "Oğul, oğul , ay oğul!" misraları ruhumu tərpədir, anam yadıma düşür, özümü bir daha onun qucağında hiss edirəm"; "Saqım-salqım tam yelləri əsdigində,saqallu boz ac turğay sayradıqda" misraları məni sanki sirli təbiətin ağuşuna atır"; " Əri muradına yetürər səniŋ arxacığıŋ, At diməzəm saŋa, qartaş diyərəm" misraları at belində Vətən qoruyan türk ərənlərini yada salır, mən də özümü at belində görürəm".

Mən onun qədər bu dastanı əzbər bilən ikinci adam tanımıram. Əzizxan müəllim təpədən-dırnağa qorqudşünasdır. Onun dastana olan sevgisi ailəsində də əks olunmuşdur. Bir oğluna dastanın əsas obrazlarından olan Beyrəyin adını qoyması buna sübutdur.

İnşallah, bu kitab işıq üzü görəndə mən hərbi xidmətdə olacağam. Əminəm ki, bu kitab da onun əvvəlki kitabları kimi böyük maraqla qarşılanacaq. Qismət olsa, mən də bu kitabı məmnuniyyətlə oxuyacağam.

Sonda müəllimimizi 60 illik yubileyi münasibəti ilə qabaqcadan təbrik edir, ona uca Allahdan dünyanın ən şirin neməti olan can sağlığı, bitib-tükənməyən enerji, yaradıcılıq həvəsi, çalışqan tələbələr və bu şərəfli işində daha böyük uğurlar arzulayıram.


AZƏRBAYCAN



Ulu babası Vəli Tanrıverdi oğlu



Babası İmaməli Vəli oğlu



Atası Vəli İmaməli oğlu



Əzizxan Vəli oğlu



Rəşad Əzizxan oğlu



Rüfət Əzizxan oğlu



Beyrək Əzizxan oğlu



Ərtac Rəşad oğlu





Toğrul Rüfət oğlu

Alpər Beyrək oğlu





Aytac Rəşad qızı

Selcan Rəşad qızı



Babası İmaməli, nənəsi Gövhər, atası Vəli, anası Mahilə bacısı Firəngizlə, bibiləri Həqiqət və İzzət



Ana nənəsi Güllər öz bacısı Gülsünlə



Əzizxan Tanrıverdi
bir yaşında



Əzizxan Tanrıverdi
bacısı Firəngizlə



III sinifdə oxuyarkən(yuxarı cərgədə soldan ikinci)



Atası, anası və oğulları ilə




Ömür yoldaşı Tamara xanımla



Ömür yoldaşı Tamara, qardaşı Kərəm, oğulları Rəşad və Rüfətlə



Oğlu Rəşadla



Oğlu Rüfətlə



Oğlu Beyrəklə



Ailə üzvləri ilə



Beyrəklə Nuridənin nişan mərasimində



Ailə üzvləri ilə toy mərasimində



Qardaşları Füzuli, Namiq və Nazimlə



Bacısı Elminaz və oğulları ilə




Yaxın qohumları ilə



Tələbə yoldaşları ilə



Berlin, 12 fevral 1979-cu il



Tələbə inşaat dəstəsində, Stavropol, 1980



Şabran rayonu, Dağquşçu kəndində müəllim işləyərkən, 1982



Borjomidə



Lerik, 2012



Tələbə yoldaşları ilə Araz çayı üzərində



“Kitabi-Dədə Qorqud” abidəsinin açılışında. Bakı, 13 dekabr 2013-cü il



Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının kollektivi ilə



Kafedra əməkdaşları ilə istirahətdə. İsmayıllı, Buynuz k. 2017 iyun



Yazıçılar Birliyinin Natavan klubunda. İlham Abbasov,
Ədalət Əsgəroğlu və Arif Əmrahoğlu ilə



Tələbələri ilə Xəzər sahilində



Akademik Afad Qurbanov və kafedra yoldaşları ilə



Qazax şairi Oljas Süleymenovla görüşdə.
Şamil Vəliyev və İlham Abbasovla birlikdə



“Kitabi-Dədə Qorqud”un 1300 illik yubiley tədbirində,
Xalq şairi Bəxtiyar Vahabzadə, Türk Dil Qurumunun başqanı
Sadiq Tural, prof. Ramazan Qafarlı,prof. Şamil Vəliyev
və İlham Abbasovla birlikdə



Qazaxıstanda “Kitabi-Dədə Qorqud”a həsr edilmiş
elmi konfransda. Türküstan, 2014



prof. Kamil Bəşirov, filologiya üzrə fəlsəfə
doktoru Adil Balıyev və magistrantlarla birlikdə



Həmkarları ilə birlikdə çay süfrəsi arxasında



“Kitabi-Dədə Qorqud”un söz dünyası” (Bakı, 2007)
monoqrafiyasının təqdimat mərasimində. Xalq şairi Zəlimxan Yaqub,
akademik Afad Qurbanov, professor Buludxan Xəlilov
və professor Hüseyn İsmayılovla



ADPU-nun rektoru, professor Cəfər Cəfərov, TÜRKSOY-un
baş katibi Dyusen Kaseynov və Pedaqoji Universitetin əməkdaşları
ilə birlikdə TÜRKSOY kafedrasının açılışında



AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda elmi konfransda



Dostu İlham Abbasovla




AMEA-da keçirilmiş tədbirdə iştirak edərkən





Yazışılar Birliyində televiziyaya müsahibə verərkən



СВИДЕТЕЛЬСТВО
о восьмилетнем образовании

Настоящее свидетельство выдано Танрывердиеву Азизхану Вали оглы
родившемуся в 1959 году, в том, что он обучался в Нижне Карабулахской Азербайджанской восьмилетней школы Дманисского района Груз. ССР
окончил в 1973 году восемь классов и обнаружил при отлич. поведении следующие знания:

по грузинскому языку 5 (отлично)
по грузинской литературе 5 (отлично)
по русскому языку 5 (отлично)
по русской литературе 5 (отлично)
по родному языку (Азерб.) 5 (отлично)
по родной литературе (Азерб.) 5 (отлично)
по арифметике 5 (отлично)
по алгебре 5 (отлично)
по геометрии 5 (отлично)
по истории 5 (отлично)
по географии 5 (отлично)
по физике 5 (отлично)
по химии 5 (отлично)
по биологии 5 (отлично)
по иностранному языку ( ) —
по черчению 5 (отлично)
по пению 5 (отлично)
по рисованию 5 (отлично)
по физической культуре 5 (отлично)
по трудовому обучению 5 (отлично)

Директор школы
Учителя:

25 июня 1973 г.

А № 806347

8 illik kənd orta məktəbini bitirmə haqqında
şəhadətnamə. 1973



АТТЕСТАТ
о среднем образовании

Настоящий аттестат выдан Танрывердиеву Азизхану Вали оглы
родившемуся в с. Н-Карабулах Дманисского района Груз ССР 1959 года,
в том, что он в 1975 году окончил полный курс Кировисской сред. школы с. Кировиси Дманисского района Груз. ССР
и обнаружил при примерном поведении следующие знания:

по родному языку (азерб.) 5 (отличные)
по родной литературе (азерб.) 5 (отличные)
по грузинскому языку 5 (отличные)
по грузинской литературе 5 (отличные)
по русскому языку 5 (отличные)
по русской литературе 5 (отличные)
по алгебре и элементарным функциям 5 (отличные)
по геометрии 5 (отличные)
по истории СССР 5 (отличные)
по всеобщей истории 5 (отличные)
по обществоведению 5 (отличные)
по физике 5 (отличные)
по астрономии 5 (отличные)
по химии 5 (отличные)
по биологии 5 (отличные)
по географии 5 (отличные)
по иностранному языку ( ) —
по черчению 5 (отличные)
по начальной военной подготовке 5 (отличные)
по физической культуре 5 (отличные)
по трудовому обучению 5 (отличные)

Кроме того, выполнил (а) программу по изобразительному искусству, пению и музыке, а также изучил (а) факультативный курс —

Директор школы
Заместитель директора по учебно-воспитательной работе
Учителя: 1. 2. 3.

Выдан 30 июня 1975 г.
с. Кировиси
м. п.

Х № 726317

Orta təhsil haqqında attestat.1975




"Fərqlənmə" diplomu. 1981




"Elmlər namizədi" diplomu. 1987



Azərbaycan Respublikası
ALİ ATTESTASİYA KOMİSSİYASININ
16 dekabr 1996-cı il (protokol № 42)
QƏRARI İLƏ
Əzizxan Vəli oğlu Tanrıverdiyevə
Azərbaycan dilçiliyi kafedrasının
DOSENTİ
ELMİ ADI VERİLMİŞDİR
Ali Attestasiya Komissiyasının sədri
Ali Attestasiya Komissiyasının baş elmi katibi

РЕШЕНИЕМ
ВЫСШЕЙ АТТЕСТАЦИОННОЙ КОМИССИИ
Азербайджанской Республики
от 16 декабря 1996 года (протокол № 42)
Танрывердиеву Азизхану Вели оглы
ПРИСВОЕНО УЧЕНОЕ ЗВАНИЕ
ДОЦЕНТА
по кафедре Азербайджанского языкознания
Председатель Высшей Аттестационной Комиссии
Главный ученый Секретарь Высшей Аттестационной Комиссии

"Dosent" attestatı. 1996



AZƏRBAYCAN RESPUBLİKASI
ALİ ATTESTASİYA KOMİSSİYASI
Elmlər Doktoru
DİPLOMU
ED № 0405
Ali Attestasiya Komissiyasının
"8" yanvar 1999 il (protokol № 1)
tarixli qərarı ilə
Əzizxan Vəli oğlu Tanrıverdiyevə
filologiya elmləri
DOKTORU
ALİMLİK DƏRƏCƏSİ VERİLMİŞDİR
Sədr
Baş elmi katib
Qeydiyyat № 305 Bakı, 15.01.1999

THE REPUBLIC OF AZERBAIJAN
THE SUPREME CERTIFYING COMMITTEE
DIPLOMA
Doctor of Science
ED № 0405
It is hereby certified that the Supreme Certifying Committee, with its decision
dated 8 January 1999 (protocol № 1)
confers on
Tanriverdiyev Azizkhan Veli oglu
the degree of
DOCTOR
in Philological Sciences
Chairman
Academic Secretary
Registration No 305 Baku, 15.01.1999

"Elmlər doktoru" diplomu. 1999




Professor
attestatı.
2003






Təhsil Nazirliyi tərəfindən təqdim edilmiş
"Fəxri Fərman". 2008




"İlin Alimi" şəhadətnaməsi. 2009


ҚЫЗЫЛОРДА ОБЛЫСЫНЫҢ ӘКІМДІГІ
«ТҮРКСОЙ» ХАЛЫҚАРАЛЫҚ ҰЙЫМЫ

TÜRKSOY

СЕРТИФИКАТ

Азизхан ТАНРЫВЕРДИ

Рухани құндылықтың ең жоғарғы түрі көне дәуірден бастау алатын фольклорлық өнерді көздің қарашығындай сақтауға және дәріптеуге атсалысып халықаралық «Қорқыт және Ұлы Дала сазы» дәстүрлі музыкалық өнер фестиваліне қатысқаны үшін берілді.

Қызылорда облысының әкімі ______ Қ.Көшербаев

«ТҮРКСОЙ» халықаралық ұйымының Бас хатшысы ______ Д.Қасейінов

ҚЫЗЫЛОРДА – 2014

Qazaxstandanda keçirilmiş beynəlxalq konfransda təqdim edilmiş Sertifikat. 2014




Beynəlxalq konfransda təqdim edilmiş “Türk dünyasının ulu atası Korkut" medalı. 2014

# HAQQINDA YAZILMIŞ ŞEÌRLƏR

***Oqtay Rza***
***şair, Əməkdar müəllim***

## QORQUD RUHLU SƏNƏTKAR

"Öz yolu, dəst-xətti var,
Dövranla söhbəti var;
Borçalıda doğulub,
Qorqud ruhlu sənətkar –
Əzizxan Tanrıverdi.

Göyçə, Dərbənd, Ərdəbil,
Başkeçid soraqlıdır;
Pedaqoji ocağa
Həmişəlik bağlıdır
Əzizxan Tanrıverdi.

Ən möhtəşəm kitabı
Şagird ikən oxuyub…
Üç oğuldan birinin
Adını Beyrək qoyub.
Əzizxan Tanrıverdi.

Yaxşı, yaman, mücərrəd…
Adamlarla rastlaşıb;
İçərişəhərdəki
"Folklor…"la dostlaşıb
Əzizxan Tanrıverdi.

Kimliyində az deyil
Təzadlı aylar, illər;
Qorqud söz ümmanından
Tapıb yeni incilər
Əzizxan Tanrıverdi.

Sevir çətin sualı,
Hər gün xeyir-dualı,
Əsl alim-vətəndaş,
Qorqudsevər ziyalı –
Əzizxan Tanrıverdi!

***2007***

***Oqtay RZA,***
***şair, Əməkdar müəllim***

**EŞQ OLSUN!**

Əzizxan! Dəyərli təzə əsərin
Böyük ehtiramdır ulu ustada.
Xoş ovqat bəxş edir bizə əsərin,
Bir həzin tarixi salırsan yada.

Kitabın xəzinə - yer alıb onda
İsmayıl Şıxlının poetikası,
Ədib təfəkkürü, alim zəkası.
Sən qəvvas kimisən söz ümmanında.

Gözəl tərtibatlı, qızıl cildli –
İncilər düzülüb içində səf-səf.
...Mahal ağsaqqallı, mahal igidli –
Mayası, qayəsi milli şan-şərəf!

Kitabın xəzinə - hər varağında
Sevib-sevilənin duyğuları var,
"...Kürün" ləpələri, dalğaları var;
İsmayıl Şıxlının ruhu var onda.

Ümidlə baxırsan ulduzlu göyə,
Bağın hər fəsildə bar gətiribdir.
Eşq olsun Əzizxan Tanrıverdiyə,
Ona istedadı Tanrı veribdir.

***Oqtay Rza***
***şair, Əməkdar müəllim***

## ƏZİZXAN–QORQUDUN TƏRƏNNÜMÇÜSÜ

Əzəldən uğurlu- nurludur yolun,
Vətən şan-şöhrətin, adın-sanındır;
Hər təzə əsərin, qələm məhsulun
Xalqa, məmləkətə ərməğanındır!

Köçürüb köksünə Göyü və Yeri,
Dilin saflığını yenə də qoru!
Sən keçmiş APİ-nin professoru,
Böyük ədəbiyyat cəngavərisən!

Çağırır Borçalı, mahal, el-oba,
Halal mükafatın – alqış, mərhaba;
Əzizxan–Qorqudun tərənnümçüsü,
Üç oğul atası, əməkdar baba!

Bol olsun meyvəsi saldığın bağın,
Nə əyri işin var, nə səmt azmağın;
AFAD müəllimin xatirəsinə
Ən uca ehtiram – kitab yazmağın!

Şüarın – inkişaf, bilik, yenilik,
Ustad da, şəyird də sevib–sevinsin!
Əzizxan! Öndəki neçə onilli
İndiki yaşının üstünə gəlsin!

***Oqtay Rza***
***şair, Əməkdar müəllim***

**BEYRƏK**

Beyrək-Əzizxanın sevimli oğlu,
Fəal, səxavətli, səmimi oğlu,
Rəşada, Rüfətə vəfalı qardaş,
Beyrəyi qəlbində yaşadan adaş.

Bu iki qoçağı ayırır zaman -
On üç əsrdən çox vaxt məsafəsi,
Beyrək istəyir ki, saflaşsın insan,
Sarsıdaq günahı, tamahı, nəfsi.

Deyir: "Həmrəyliyə rəvac verək biz,
Düzlük meydanına girmək borcumuz.
Beş doğma parçanı birləşdirək biz,
Böyük Azərbaycan görmək arzumuz"!

Beş dəfə oxuyub "Dədə Qorqud"u,
Keçmiş - xəyalında canlı həyatdır.
Deyir: "Hər elmin də var rəngi, dadı,
Məni cəzb eləyən riyaziyyatdır".

Məşhur kəşfləri sayır bir-bir o,
Yarışda rəqibə qalib gəlir o,
Kodun, kompüterin qaynar çağında
Yüzlərlə bayatı, məsəl bilir o.

Inanla yol gedir sabaha doğru,
Zərdüşt dövrünə də qayıdır sanki.
Atası - söz, sənət professoru,
Özü - gələcəyin akademiki.

Beyrək-Əzizxanın sevimli oğlu,
Fəal, səxavətli, səmimi oğlu,
Rəşada, Rüfətə vəfalı qardaş,
Beyrəyi qəlbində yaşadan adaş.

***Mətləb Nağı***
***Dostum Əzizxana***

## GÖZLƏYİR

Ay Əzizxan, di uzatma, dur gedək,
Yaşıl donlu Xaçmaz bizi gözləyir.
Əlindəki o nöqtəni vur gedək,
Alimliyin qaçmaz… bizi gözləyir.

Nə böyüyük, nə balaca – sən deyən…
Quzu kəsim, sən xoşlayan, sən yeyən.
Mən alanam, Sultan içən , sən yeyən,
İsmayıl da keçməz, bizi gözləyir.

Qoşun çəkib odasını aldığım,
Yuxu yatıb butasını aldığım,
Bir gülüm var qadasını aldığım,
Sevilməsə açmaz – bizi gözləyir…

***iyun 1996***

*Mətləb Nağı*

## OLSUN

*Əzizxan oğlu Beyrəyin*
*kiçik toyuna*

Nə fərqi var, böyük olsun, ya kiçik,
Bir toy quraq, toy içində toy olsun.
Yallı gedək ayaqyalın, başaçıq,
Küy qaldıraq, hay eləyək, hoy olsun.

Bəhanədir, yaxın-uzaq yığışsın,
Tanış-biliş, qohum-qonaq yığışsın.
Bir ocağa neçə ocaq yığışsın,
Sevincimiz aşıb boyaboy olsun!

Seçirsənsə, seç bu atın yüyrəyin,
Çata bilsin hər ünvana səyrəyin.
Dədə Qorqud adın verib Beyrəyin,
Köhnə sözə bu ad təzə boy olsun!

Dədəsindən alacaqsa ədanı,
Bəri başdan tutsun əmri, nidanı.
Borçalıda eşitsinlər sədanı,
Səsə qalxan Göyçə olsun, Xoy olsun.

Tanrı sevsin bu nəsili, bu soyu,
Sozalmasın ürəklərin aloyu.
Bədnəzərdən qorumağa bu toyu
Dost sevgisi gözmuncuğu qoy olsun.

*31 oktyabr 1999*

***Mahirə Nağı qızı***

## DOLANDIN

Başkeçiddən başladığın yolunu,
Özün açdın, cığır-cığır dolandın.
Bircə dəfə sallamadın qolunu,
Yükün oldu dağdan ağır, dolandın.

Bu dünyaya baxdın türkün gözünnən,
Dədəm Qorqud söhbətinnən-sözünnən,
Qoca oğlu Qanturalın izinnən
Yolun tutdun, ağır-ağır dolandın.

Düşürmədin ərənləri atından,
Güc götürdün Salur Qazan zatından.
İç Oğuzun, Dış Oğuzun qatından
Məna tapdın, hayıl-mayıl dolandın.

Haqq axtarar Haqq deyənin qulları,
Dağ adlayar, dərə keçər yolları.
Gücün oldu Koroğlunun qolları,
Andın oldu Şah İsmayıl, dolandın.

Həyatının qayəsində-halallıq,
Abrında, hayasında- halallıq.
Ocaq qurdun-mayasında halallıq,
Çoxa qayıl, aza qayıl dolandın.

Əzizxansan- xan düzəni, xan tayı,
Qismətində, yazısında sərpayı.
Bu da sənə Mahirənin dost payı,
Bədəsillər qaldı sayıl, dolandın.

*Cəvahir Tanrıverdi*

## QORQUD RUHLU ALİM

Bəlkə, onu Günəş doğub,
Bəlkə, Aydır şah atası.
Axı belə yaza bilməz
Adi bir insan balası.

Bəlkə, deyib – "bizdən danış" –
Öz atası, anası.
Danış, de necə yaranıb
Beyrək adı – qurd balası?

Odur ki, hey yazır, yazır,
Hər bir sözü mənalıdır.
Bulaq kimi o çağlayır,
Qələmi iti alimdir.

Gələcəkdə çox nəsillər
O bulaqdan bəhrələnsin.
İçsin elmin saf suyundan,
Dünyaları çiçəklənsin.

Ondan soruş düz ilqarı,
O, vəfanı atda görər.
Dədə Qorqud boylarından
Sözlərinə nur süzülər.

Odur ancaq oxu ox tək,
Yayı yay tək təhlil edən.
Odur ancaq çiçəyinə
Çiçək kimi qiymət verən.

Dədəm Qorqud kimi versin
Dualarla adı-sanı.
İgidinə Beyrək desin,
Ərtac bilsin aslanını.

Ürəyinin alovuyla
Bildiyi də bizə yardı.
O, Mahilə tək ananın
Sevgisindən qüvvət aldı.

Dağa dağ tək yanaşmadı,
Ruhunu da duydu dağın.
Rəngləri də sözə saldı,
Danışdırdı bozu, ağı.

"Dəli Kür"ə işıq saldı,
Sevindi Şıxlının ruhu.
İsmayıl Şıxlı sağlıqda
Verdi ona belə haqqı.

Qələmini o nə qədər
Çalışdırdı səhvlər üstdə.
Səhv izah və fikirləri
Qovuşdurdu düzgünlüyə.

Şeirləri hərf-hərf
Yenidən o, sözə saldı.
Çox şairlər bundan sonra
O sözlərdən ilhamlandı.

Sən ildırım tək çaxırsan,
Yeri yerdən qoparırsan,
Göyü göydən ayırırsan,
Qələminlə aparırsan.

Sən ideal bir atasan,
Qızınırıq alovunla.
Azərbaycan alim gördü
Tanrıverdi Əzizxanla.

***dekabr, 2017***

**GÖZLƏYİR SƏNİ**

Dayanıb kitab üstdə
Qələm gözləyir səni.
Sükuta qərq olubdur,
Elm gözləyir səni.

Hanı arzun, diləyin?
Sevən, coşan ürəyin?
Dərsdə tələbələrin
Elə gözləyir səni.

Qazan xan yolun üstdə,
Qorqudundan söz istə.
Telli saz hey ahəstə
Tel-tel gözləyir səni.

Sarıdonlu Selcanın
Hələ sözü bitməyib.
Nəvə toyunu görmək-
Arzun kama yetməyib.

Hələ oynatmamısan
Alpərini doyunca.
Toğrula qələm tutmaq
Gəl, sən öyrət yolunca.

Ərtac üçün elçi get,
Sözü şəkərə cala.
Ürəyin dağa dönsün,
Nəvə toyunda oyna.

"Aytac davamçım olsun,
Bu kitablar onundur."
Arzular dilə gəlsin,
Qəlbimizi ovundur.

Nəfəsin kitablara
Ruh verib canlandırır.
Sözlər nöqtəsinədək
Elə səni andırır.

Elmin yuxusuzluğu
Gecəni paralasın.
Qaranlıqdan işığa
Qələminlə yol alsın.

Dağlar çöksün dənizə,
Dəniz qalxsın səmaya.
Qələminlə yaransın
Dünyada yeni dünya.

Elin Qorqud atası,
Sözün qılıncdan keçir.
Elə bircə baxışın
Sözdən də kəsərlidir.

Dayanıb kitab üstdə
Qələm gözləyir səni.
Yer kürəsi fırlanmır,
Həyat gözləyir səni.

***Cəvahir Tanrıverdi,***
***18 iyul 2018***

*Zahid Xəlil*

## SÖZ ƏKDİN, ÇİÇƏK BİTDİ

*Professor Əzizxan Tanrıverdinin "Dədə Qorqud"*
*dastanı haqqında yazdığı kitablarda Qorqud*
*Ataya böyük məhəbbət duydum*

Əziz dostum, Əzizxan!
"Dədə Qorqud" sözündən
Təzə dastan yaratdın.
Söz əkdin, çiçək bitdi.

Güllü bostan yaratdın.
Oxudum kitabını,
Düşdüm yolun ağına,
Baxdım yolun soluna,

Baxdım yolun sağına.
Heyran qaldım Dədənin
Sözündəki saflığa,
O şirin nəğmələri
Çəkir bizi paklığa.

Bir parça günəş sayaq,
Saz çalan hər aşığı.
Qaranlığa tuşlandı
Dədə Qorqud işığı.

Bu işığın üstünə
Qara buludlar axdı
Şöklü Məlik, Ağ Məlik
İldırım kimi çaxdı.

Başlarının üstünü
Kəsdi qorxu buludu.
Qollarına qalmışdı,
Oğuzların umudu

Xanlar xanı Bayındır
Bir anlığa hayqırdı.
Gördüm, Qaraca Çoban
Qaranlığa hayqırdı.

Namusdu, qeyrət idi,
Igidlərin ilk andı.
Torpağını qorudu
O Qaraca Çobanın
Qaya boyda sapandı.

Od götürdü kirpiyin,
Dədə Qorqud odundan.
Övladların ad aldı
İgidlərin adından.
Oğluna Beyrək dedin,

Ərtac qoydun nəvənin
O mübarək adını.
Burla Xatunmu saydın
O cəngavər qadını?!

Qorquddan işıq aldın
İşıqlaşdın elə bil
Sözün bala çevrildi
Ozanlaşdın elə bil.

Qədimdi, çox qədimdi
Bu sevginin nüvəsi.
Ululardanmı aldın,
Bu tükənməz həvəsi?!

Əziz dostum, Əzizxan!
“Dədə Qorqud” sözündən,
Təzə dastan yaratdın.
Söz əkdin, çiçək bitdi.
Güllü bostan yaratdın.

***Abbas ƏMBALA,***
***şair***

**BAYATILAR**

*Əzizxan Tanrıverdinin “Dəli Kür”*
*romanının poetik dili” monoqrafiyasından*
*təsirlənərək yazdığım bayatılar*

“Dəli Kür” qana hopur,
Zamana, ana hopur.
Dilinin aydınlığı
Lap ruha, cana hopur.
Tüfəng, patrondaşlı ər.

Bağlayıb gümüş kəmər.
Yaydan ox kimi çıxır
Cahandar bəylə Qəmər.

Söz nur səpir ömrümə,
Uludur, ona görə.
İsmayıl Şıxlı dili
Dad verir “Dəli Kür”ə.

Dilin tarixi sirdi,
Ona töhfələr verdi.
Sözdən ilmələr açdı
Əzizxan Tanrıverdi.

***Salman Qaralar (Balakişiyev)***

*Şair İnqilab İsaq ADPU-da olarkən tələbəlik yoldaşım, professor Əzizxan Tanrıverdi ilə görüşmüş, o da özünün iki kitabını mənə göndərmişdir. Mən İ.İsaqa Əzizxanı şeirlə belə tanıtdım–təqdim etdim.*

## QƏLƏMİ ŞİRƏLİ, YAĞLI – ƏZİZXAN

Səni nişan verdim: – sözləri ballı,
Qələmi şirəli, yağlı – Əzizxan.
Türkoloqdu…, bilir türkün taleyin
Necə var – qaralı–ağlı Əzizxan.

Təbrizlə danışan, Dərbəndlə dinən,
Qorquddan yazdıqca Qorquda dönən.
Beyrəkdi…, azadlıq eşqiylə sönən.
Bağrı el yolunda dağlı Əzizxan.

O, xan Bayandırdı – saqqalsız, saçsız,
Yurdu mal gönütək xərcsiz, xəracsız,
Doğranıb, satılıb…, qalıb əlacsız,
Gəzir əli-qolu bağlı Əzizxan.

O, yaxşı atadır, sevimli baba,
Həmişə düz olub haqqa-hesaba.
Qədim Gürcüstanın böyük Türkoba
Adlanan elinin oğlu Əzizxan.

Dəryada ayağı, buludda başı,
Məxəzdi, tarixdi ona çöl daşı.
Səksəni, doxsanı keçsə də yaşı
Qalacaq qələmi zağlı Əzizxan.

Palıddı – kök atıb Türk adlı bağda,
Poladdı – əyilməz yüz cür sınaqda.
Ona çox əzizdi aran da, dağ da,
Aranlı Əzizxan, dağlı Əzizxan.

Salman, yeni Turan qurmaq niyyətin,
Gec-tez gerçəkləşər, olsa da çətin.
Doğrudan Batıya ulu millətin.
Zehni, düşüncəsi, ağlı Əzizxan.

***Ağasən Bədəlzadə***
***filologiya üzrə fəlsəfə doktoru,***
***şair-publisist***

## ƏZİZXAN DOSTUMUZA

Müəllimin dərdin qanan çoxmu var?
Bu dərd gərək keçə qana, Əzizxan!
Kül olsaydıq, deyərdilər kül oldu,
Kül olmadıq yana-yana, Əzizxan!

Fərq qoyan yox, yaxşı ilə yamana.
Xırman uçub, dən qqarışıb samana.
Durum, necə zamin durum, zamana,
Düşməyibsə o, sahmana, Əzizxan!

Müəllimdə dəmirdənmiş baş beyin,
Ondan böyük şəhid varmı, bir deyin.
İmtahanı çoxdur hələ taleyin,
Hazırıqmı imtahana, Əzizxan!

Payımızı az verdilər, bəs dedik,
Biz özümüz baxtımıza nəs dedik.
Çox kiçiklər qabağında dərs dedik,
Vaxt gələndə düşdük sona, Əzizxan!

Biz yazığa yerdən-göydən qəm baxır,
Yaş quruyub, gözümüzdən nəm baxır.
Kəmsavadlar durub bizə kəm baxır,
Gəl özünü çək bir yana, Əzizxan!

Zəhər udsam, şəkər çıxar qanımdan,
Söykəndiyim dağ uçmasa yanımdan,
Vallah, qardaş, bu söz gəlir canımdan,
And içirəm əziz cana, Əzizxan!

Can öyrəşib min bir dərdə, yaşayır,
Ahı göydə, özü yerdə yaşayır,
Sənin adın ürəklərdə yaşayır,
Varmı bundan əziz xanə, Əzizxan!

Bir haqq bitib daha sənin dilində,
Varmı bundan daha sənin dilində?!
Yalan yoxdur Ağasənin dilində
İnam varsa, inan ona, Əzizxan!

***26.04.2018***

*Məhərrəm Hüseynov*

**ƏZİZXAN!**

Elmin zirvəsinə gedən yolunun
Borçalıdır əzəl izi, Əzizxan!
Ürfan aləmində adın gələndə
Ağ olur elinin üzü, Əzizxan!

Qələminlə şirinləşib çox acı,
Zəkan çox qaranlıq mətləb əlacı,
Dilin tarixinin vüqarı, tacı,
Qorqudşünaslığın gözü Əzizxan!

El naminə alovlanır qəlb odun,
Qələminlə tariximi qorudun
Dilə gəldi ruhu Dədəm Qorqudun,
Koroğlunun telli sazı, Əzizxan!

Sözün cəngavəri, dilin mətini,
Qürurla vəsf edir məmləkətini,
Sevinclə qarşılar hər bir çətini,
Alın yazısından razı Əzizxan!

Pak xislətin heyran qoyur hər kəsi,
Könül ocağının yoxdur tüstüsü,
Elmin zirvəsinə yetir istisi,
Möcüzə yaradır közü, Əzizxan!

Qələmin dürr saçan, vərəqin hikmət,
Ədəb, ürfan sənin ruhuna qüvvət,
Bir yanda söz dura, bir yanda sərvət,
Uca tutar qızıl sözü Əzizxan!

Hələ qabaqdadır ömrün xoş günü,
Mənalı həyatın şöhrəti, ünü,
Nəticələr toyu, nəvə düyünü
Qayıtsın ömrünün yazı, Əzizxan!!!

Filoloji fəhmin əngindən əngin,
Arqumentin dürüst, faktların zəngin,
Məntiqinlə çox öyüngən nəhəngin
Hüzurunda çöküb dizi, Əzizxan!

Əməlinlə altmışda da ucasan!
Ləyaqətin pik həddinə uç asan!
Səksənə, doxsana, yüzə uç asan!
Arxada qoyasan yüzü, Əzizxan!

Qürur yerin Dədəm Qorqud, Koroğlu,
Qələmindən şimşək çaxan ər oğlu.
Türk elinin dağ ürəkli nər oğlu,
Türk dilinin xoş avazı Əzizxan!

Dərbəndi, Kərkükü, Göyçəni səslə,
«Bütöv Vətən!» – söylə odlu nəfəslə,
Allaha üz çevir, tanrını səslə,
Haqq bitirsin bu murazı, Əzizxan!

Ömrünə Ərtac tək bala calandı,
Toğrul şəkər olub bala calandı,
Aytacınla dərdin balacalandı,
Selcan düzdü hər tarazı, Əzizxan!

Ürəyində sevgi, qəddində qürur,
Elmin zirvəsində qartal tək durur,
Qələmin hədəfi gözündən vurur,
Gerçəkləşir hər xülyası, Əzizxan!

Baxışların yeni, mövzuların ilk,
Məntiqin hökmündən umur dərinlik,
Sözlərin könlündən çəkib şirinlik
Coşdurubdur bal dəryası, Əzizxan!

Başa çatsın zəfəri söz ordunun,
Səsi gəlsin Göyçədən boz qurdunun.
Ürəkdən sevdiyin Odlar yurdunun
Qoy sağalsın el yarası, Əzizxan!

Qürurun, vüqarın göylərə dəyə,
Tanrıya diz çökə, başını əyə,
Qanad açıb pərvazlansın zirvəyə,
Hər balanın gül balası, Əzizxan!

Hər cümləndə novatorluq güllənir,
Mühitində şan-şöhrətin zillənir,
Sən sussan da, saf ürəyin dillənir,
Haray çəkir dil səfası, Əzizxan!

Gülsün qoy üzünə mənalı həyat,
İlhamdan güc alıb, daim yaz, yarat.
Xəyalına qucaq açsın kainat,
Yetərsizdir dar ərazi, Əzizxan!

Elmin qəvvasısan gənclik yaşında,
Qələmin dəfinə axtarışında,
Sənin duysa, ürəksizin, daşın da,
Dilə gələr dərd-bəlası, Əzizxan!

Təbsizlikdir sözün bəd dərdi-səri,
Şair deyil qondaran bu əsəri.
Zəif olsa sözlərimin kəsəri,
Gəl bağışla mən «yerazı», Əzizxan!

***13.07.2017***

*Məhərrəm Hüseynov*

## DƏDƏ ƏZİZXAN

Rəflərə sığışmır çilidli barın,
Qələm sərvətindir, kitablar barın,
Sənin ucalığın sənin vüqarın
Dərs olsun yamana, bədə, Əzizxan!
Dədə Əzizxansan, Dədə Əzizxan!
* * *
Qorqud ruhu pərçimidir yaxanın
"Dədə" sözü işığında çaxanın,
Qəlbi əyri, kəc, qıyğacı baxanın
Düşsün gözlərinə zədə, Əzizxan!
Dədə Əzizxansan, Dədə Əzizxan!
* * *
Pərvaz edir sənlə oğuzlu yurdun,
Səndən ülfət duyur könlü boz qurdun.
Qorqud dünyasını evində qurdun,
Alsan da yağıdan hədə, Əzizxan!
Dədə Əzizxansan, Dədə Əzizxan!
* * *
Qazan qılıncının şimşək səsindən,
Qorqud ətri saçan qərb ləhcəsindən,
"Qorqud"un dilinin möcüzəsindən
Möcüzə yaratdın adə, Əzizxan!
Dədə Əzizxansan, Dədə Əzizxan!
* * *
Sözün qılıncını qından çıxardın,
Elmin dəryasında tufan qopardın,
Bədxah paxılların bağrını yardın,
Bunu duymur hər zay gədə, Əzizxan!
Dədə Əzizxansan, Dədə Əzizxan!

* * *

Yazdığın kitaba yazılır kitab,
Sənin nur selinə gətirərmi tab?
Qadir qələm həsədçini asan tap
Səngər qurub o kölgədə, Əzizxan!
Dədə Əzizxansan, Dədə Əzizxan!

* * *

Süzgəcləndi şah dastanda şəxs adı,
Bu xislət nəsildən, kökdən qalmadı,
Qızıl qələmini kökdən salmadı
Nə Mahmud Kaşğari, nə də Əzizxan!
Dədə Əzizxansan, Dədə Əzizxan!

* * *

Pətək payı Ərtac, Toğrul əzəldir,
"Qorqud" Selcanından Selcan gözəldir,
Alpər altımışını təbrikə gəldi,
Ömrün düşdü təzə dada, Əzizxan!
Dədə Əzizxansan, Dədə Əzizxan!

* * *

Aytac yaraşıqdır ulu soyuna,
Sevin balaların baxıb boyuna,
Nəticə, kötücə, nəvə toyuna
Tanrı özü versin vədə, Əzizxan!
Dədə Əzizxansan, Dədə Əzizxan!

* * *

Fani demə, bu dünyadan bac al sən,
Sağlam yaşa, yüzü keçib qocal sən,
Qocaldıqca zirvə-zirvə ucal sən,
Alçaqkönül, şirin, sadə Əzizxan!
Dədə Əzizxansan, Dədə Əzizxan!

* * *

Böyüsün gülüstan Rəşad dağında,
Rüfət pirə dönsün pir ocağında,
Beyrəyin yeddinci baba çağında
Sağlıq söylə əldə badə, Əzizxan!
Dədə Əzizxansan, Dədə Əzizxan!

***25.06.2018***

***"Kitabi-Dədəm Qorqud" dastanına aid***
***12 fundamental kitabın müəlllifi Əzizxan***
***Tanrıverdinin şəninə***

## ON İKİ

Alim tanıyıram on iki ünlü,
Onun sözəsığmaz hikməti varmış.
On iki üstündə köklənən könlü
Zirvədən zirvəyə şöhrət aparmış.

* * *

Elmə qucaq acid arzu, amalı
Qorqud dünyasında aşıb-daşıbdır.
Düz on iki boydan uçan xəyalı
On iki kitabda məskunlaşıbdır.

* * *

Qızıl qanunu var təbiətin də,
On iki ay yoxsa, il başa gəlmir.
Yaradan insanın təbətində
Rəqəm mifi yoxsa, təb xoşa gəlmir.

* * *

Tanrının tək adı uğur dərsliyi
Ondan üz çevirsən, taleyin sönür.
On iki imamın müqəddəsliyi
Alim qələmində uğura dönür.

* * *

Əzizxan qələmi cəsarətini,
Türkün ulu oğuz soyundan aldı.
On iki kitab da təravətini
Dastanın on iki boyundan aldı.

* * *

On iki rəqəmin mifik təhlili
Mat qoyur bəşəri,çaşdırır ağlı.
Qədim təqvimlərdə ilin təhvili
On iki canlının adına bağlı.

* * *

Vurğun kəsildiyi türk ellərinin
Hər kəlmə başında Oğuz dayanır.
Adını sevdiyi ərənlərinin
Odlu sinəsində qopuz dayanır.

* * *

Turan-Türk şöləsi saçır qəlb odun,
Yad nəfəsdən, yad sazaqdan iraqdır.
Türk qibləsi olan Dədəm Qorqudun
Söz mülkünə hər kitabı çıraqdır.

* * *

On iki söz tək ünvanlı söz oldu,
Şöhrət köynəyini geydi əyninə.
Xalqın ruhu kimi canlı söz oldu
Gəlmədi acılar qələm eyninə

* * *

Sözdən qala qurdu–on iki qala,
İlhamı, zəhməti tutdu əlimdən,
Coşqun təb qoymadı söz tamsız qala,
Bal yağdı xalqının şirin dilindən.

* * *

Vərəqə köç etdi fikir savaşı,
Oğuz basılanda sözü qanadı.
Zəfərli səhifə şirin göz yaşı,
Türk qəlbində süzdü sözün qanadı.

*   *   *

Ruhuna qanaddır Qorqud nəfəsi,
Qorqudun özüylə bağrıbadaşdı.
Evində nur saçan beş bal nəvəsi,
Dastana dad verən adla adaşdı.

***Vaqif Qurbanov***

## ECAZÜ MƏHƏBBƏTLƏ TƏBRİKİ-BADƏ, BİR GÖZƏL HİMN İLƏ OLSUN İFADƏ

***

Ürək dilə gəldi, kükrəyib coşar,
Təbriklər söyləyər, nəğmələr qoşar,
Sevincdən çağlayar, fərəhdən daşar,
Saxlamaz qarşısın bəndi-Asuan,
Bu əziz günündə sənin, Əzizxan!
Arzuya yetənlər olur kamiran.

***

Taleyə veribsən yüz gəz imtəhan,
Olubsan bəndeyi-əziz mehriban.
50 yaşda bəydin, 60-da xan,
Rəbbim hifz eləsin hər cür bəladan,
Versin bəndəsinə polad kimi can,
Çatsın imdadına o ***sahimərdan***.

***

Kimsə deyib, müdriklərə sən inan,
Allahın hökmüylə verilir fərman:
«Həm gözəl alimdir, həm gözəl insan».
Yox bu sözdə heç bir şübhə, ya güman,
Tanrı verən paylar olur kamiran,
Qoşulur şəninə Rüstəmi-dastan.
Qüdrətin qələmi yazıbdır asan:
«O ki bir mələkdir ***cənnəti-ruzvan***».

***

Adları verirlər bizə hədiyyə,
Ləyaqət, şərafət gətirsin deyə.
Sədaqət, səxavət ucalsın göyə,
Bu qüdsiyyət bizə gəlsin xudadan.
Bir büllur ürəkdə vurur qızıl qan,
Cəlalı məlaldan çox yüksək duran,
50 yaşda bəydin, 60-da xan,
Ən gözəl alimdir, ən gözəl insan.

***

Şirin arzuları, büllur mətləbi,
Paklıqdan, saflıqdan güc alır təbi.
Gözəl tərbiyəsi, əxlaq məktəbi
Ayeyi-Qurandı, peyğəmbər yazan.
Qəlbində qoruyan haqqı nahaqdan,
Aza qane olan–Allaha şükran.
Ən gözəl alimdir, ən gözəl insan.

***

Yazıb-yaratmaqdır səyi, zəhməti,
Kitabları–kapitalı, sərvəti.
Səthiyə, dayaza ***hə*** deməz qəti,
Nankora, nadana verməz fürsəti,
Bir arifdir işarədən tez qanan,
«Qorqudşünas» tədqiqatçı bir oğlan.
Misirin əzizi– Yusifi Kənan,
Camalı, kamalı günəşdən alan
Bir dəryadır, bir ümmandır, bir ümman.

***

Elmdə saxlayan uca məqamı,
Nüfuzu, şöhrəti, şərəfi, şanı,
Əla təmsil edir Azərbaycanı.
Bir arzum da budur sağ olsun sanı!
Şirin dillə elm çələngi toxuyan
Ən gözəl alimdir, ən gözəl insan.
Allah olsun qardaşlara pasiban.

***

Min tərif de, heç birisin eşitməz,
Halını dəyişməz, özün itirməz.
Həya pərdəsini üzdən götürməz,
Əxlaqı gövhərdir uca əyardan,
Belə düşünmüşəm gördüyüm andan.
«Dəli Kür»dən yazır, ya xan Arazdan,
Qürur bayrağımı dalğalandıran
Heykəlləşən bir vicdandır, saf vicdan,
Qanı qanımdandır, canı canımdan,
Həm gözəl alimdir, həm gözəl insan.

***

Şairlər alimə deməz sərsəri,
Yerdə gəzən, göydə uçan bir pəri.
Hifz edir çiynində cinsi-bəşəri,
Peyğəmbər xatiri, getsin irəli,
Çatsın ali məqamına hər zaman,
***Elm xadimidir*** ona yaraşan.
***Akademik*** adı alsın tez zaman,
Əhdimizə yetək, kəsərik qurban!
Çün gözəl alimdir, çün gözəl insan.

***

Kim gətirməz ***kamirana*** de iman,
Həm alim olasan, həm gözəl insan.
Hünər sahibləri deyib ucadan:
Qazan xandı, Dirsə xandı Əzizxan.
Bir mirzə də olub bu sözə heyran
Ki, demişdir: beləsinə can qurban!
Bir vaxt məlum olar bu imza atan,
Təbrikdən, alqışdan, dua-sənadan.
İsmi Vaqif imiş, soyadı– Qurban.

***10.06.2018-ci il***

*Kamil Dərviş Sapand*

## ARZULARDAN QÜVVƏT, GÜC AL, ƏZİZXAN!

Dostlar içrə bir dostum var: xanzadə
Adı qoyan əcəb qoyub: Əzizxan!
Bu dostumun vurğunuyam ziyadə
Həm sirdaşım, həm qardaşım bir insan.

* * *

Hər keçən il ömrümüzdən bac alır,
İnsan olan gündə bir boy ucalır
Tay-tuşumuz yavaş-yavaş qocalır,
Sən də qocal, sən də ucal, Əzizxan!

* * *

Hər igidin özü boyda adı var,
Hər meyvənin öz ətri, öz dadı var,
Hər insanın arzusu, muradı var,
Arzulardan qüvvət, güc al, Əzizxan!

* * *

Sən olmusan əyriləri düzəldən,
Xeyirxahlıq peşən olub əzəldən,
Biz də deyək bir ağızdan, yüz dildən
Tanrı yenə versin macal, Əzizxan!

* * *

***Adil Həsənoğlu***
***Dostum Əzizxan Tanrıverdiyə***

## TANRI VERDİ

Bir omür payını verən Tanrının,
Sən oldun əzizi, sən oldun xanı.
İlhamını alıb "Dədə-Qorqud"dan,
Sözbəsöz ucaltdın böyük dastanı.
* * *
Ulu Borçalıdan başlanan yolun,
Dərbəndə, Kərkükə gedib çıxası.
Bir cəngə girmisən "Koroğlu" ilə,
Ya sən yıxasısan, ya o, yıxası.
* * *
Dədə qopuz çaldı, Koroğlu qılınc,
Sən sözlə toxudun yaddaş boğçasın.
Elminlə, səbrinlə dolaşa bildin,
Mahmud Kaşğarinin sənət bağçasın.
* * *
Sözün keşiyində mərdanə durdun,
Qoymadın vergüllər yeyə nöqtəni.
Tanrının verdiyi fəhmlə duydun,
Aşıq Ələsgəri, Yunus Əmrəni.
* * *
Qapını yad əllər döyəcləməsin,
Onun verdiyisən, hər an oyaqsan.
Tanrıdan güc alıb, hələ qabaqda,
Neçə cahilləri oyadacaqsan.

*Nizami MURADOĞLU*

## BOZ QURDUN ULASIN UCA DAĞINDA

*Mən Əzizxanı, bəlkə, bu kitabda imzası olanlardan ən sonda tanıyanıyam. Amma bu 4-5 il içərisində elə bilmişəm ki, onu lap uşaqlıqdan görmüşəm. Əzizxan özünün sadəliyi, səmimiyyəti ilə mənim qəlbimdə özünə isti yurd sala bilib. Onun qədim mədəniyyətimizə, elimizə, obamıza bağlılığı, Dədə Qorqud sevgisi, əsl vətəndaşlığı şəxsiyyətinin meyarlarıdır. 60 yaşına yetməsi nünasibəti ilə təbrik edir, uzun ömür və can sağlığı arzulayıram.*

Yaş gəlib altmışa çatdı, Əzizxan,
İllər ötüb keçir, özünü qoru.
Düzəndən başlayır yolu zirvənin,
Zirvə düzə möhtac, düzünü qoru.
Boz qurdun ulasın uca dağında,
Mərd də var, namərd də solun – sağında.
Ərənlər yurdunda, söz yaylağında –
Söz Dədə mülküdür, sözünü qoru,
Qardaşım Əzizxan, özünü qoru.

**Məhəbbət NİZAM**
***Filologiya üzrə elmlər doktoru,***
***professor, eloğlum***
***Əzizxan Tanrıverdinin***
***60 yaşına gül dəstəsi***

## ƏZİZXANA SİRR SÖYLƏDİ QORQUDUM

İlk sazımız-sözümüz, türkümüz Qorqudundu,
Dünyaya bəyan üçün görkümüz Qorqudundu.
Türkük, Oğuz oğluyuq, kimsə danammaz bizi,
Darda güvənc yerimiz, ərkimiz Qorqudundu.

* * *

Havalanıb qopuz səsi, ud səsi,
Oğulsansa, havadaca tut səsi.
Bayram edir – Oğuz eli ayaqda,
Şərbət kimi qurtum-qurtum ud səsi.

* * *

Dədəm Qorqud – umudgahım, umudum,
Qələmim var, yox qalxanım, əmudum.
Boy boylardın, söz söylərdin olana
Öyüdünü de, mən necə unudum?!

* * *

Oğulsansa, ara, qara bul ağda,
Çən çəkildi, güldü qara bulaq da.
Dədəm Qorqud arıtmağa dilini
Bir oğul doğdurdu Qarabulaqda.

* * *

Boy oxşadı, boy boyladı Qorqudum,
«Tuman» dağda oy oyladı Qorqudum.
Min il ötə tanıtmağa soyunu,
Əzizxana sirr söylədi Qorqudum.

* * *

Dil öyrəndin, o ki, gəldin dilə sən,
Hey aradın, çalışdın ki, biləsən.
Dədəm Qorqud bir gün gəlib, duşunda
Dedi: oğul, nə istərsən dilə, sən!

* * *

Hər oğulun işi deyil söz demək,
Söz içində qor qovurub, köz yemək.
Dağlar aşıb, min illərin dalından,
Olanları düz oxumaq, düz demək.

* * *

Açdın, güldü söz dünyası Qorqudun,
Nə böyükmüş düz-dünyası Qorqudun!
Min il əzəl varmış, yenə var olar,
Ölməz, yaşar öz dünyası Qorqudun.

* * *

Araşdırdın, incələdin adları,
Doğru seçdin yaxınları, yadları.
Odda-közdə qor olunca yanıbdı,
Dədəm Qorqud aşkar görüb odları.

* * *

Bir sirri-möcüzədi, açdıqca açılır hey,
İçindən dünyaya nur saçdıqca saçılır hey.
Nə qədər Qorqudşünas, nə qədər alim olsa,
Yenə Qorqud eşiqilə uçduqca uçulur hey.

* * *

«Yalan söz olmasa yey», yalan deyil yazdığın,
Qorqudundu, özgədən qalan deyil yazdığın.
«Qara başın qurbana» döndəribsən yolunda
Açacaq gül-çiçəyin, solan deyil yazdığın.

* * *

Qorquddan yaza-yaza Qorquda döndün özün,
Qorqud tək öyüd verib, Qorqud tək dindin özün.
Yalançıqlar, Aruzlar at oynadıb gəzəndə,
Qorquda arxalanıb, Qorquda sindin özün.

* * *

Gözümüz önündə «Tuman» qalası,
Çən-çisək, qar-boran, «Duman» qalası.
Tarixdə nə qədər duman, sis görüb,
Döndü «Dmanis»ə zaman qalası.

* * *

Qorqud nişanəsidi, bir oğul Beyrəyin var,
Qorqud ürəyi kimi saf, təmiz ürəyin var.
Sənin halal zəhmətin səni saxlar ucada,
Haramlıqdan aralı, halal düz-çörəyin var.

* * *

Şamdüyədən, Şindidən təbrik gəlir adına,
Qaf dağı qüvvət verir qoluna, qanadına.
60 yaşın 100 olsun, 100-ün də dönsün 1000-ə,
Dillərdə Qorquda dön, haqq yetişsin dadına.

*60 yaşınızı bir daha ürəkdən təbrik edir,*
*sizə möhkəm cansağlığı və yaradıcılığınızda uğurlar diləyirəm.*
*Bakı, 26.03.2018*

*Qüdrət Umudlu*

## DOSTA ƏRMƏĞAN

**Əziz** insan, əziz qardaş, əziz dost,
**Xan** çinara mən tuturam tay səni.
**Tanrı** səni Borçalıda göyərdib,
**Verdi** bütün millətimə pay səni.

On yeddi il o torpaqda dirçəldin,
Elm oxudun, kitablardan güc aldın,
Boy ataraq Bakıyadək ucaldın,
API-Filfak qəbul etdi yey səni.

Fəal idin tələbəlik illəri,
Hünər ilə keçdin çətin yolları,
Öyrənirdin, türkü, əski dilləri,
Görərdilər kitab ilə hey səni.

"Niyyət hara, mənzil ora" - deyiblər,
Zəhmət itməz, düşsən dara, deyiblər,
Himmətli ol, xalqa yara, - deyiblər,
Aparmasın sel gəlsə də, çay səni.

Sən çinarsan, altmış yaşlı bir çinar,
Neçə min il dərinlikdə kökün var,
Əsərlərin, o yazdığın kitablar,
Keçər zaman, xatırladar hey səni!..

Xatırladır o, Kəpəzi, Qoşqarı,
Palıd, çinar bu yerlərin vüqarı,
Saf adamın dəyişilməz ilqarı,
Dəyişəməz xəzan səni, yay səni!..

Elin, ailən, eşin sənin növrağın,
Övladların bu gün yanar çırağın,
Nəvələrin gələcəyə sorağın,
Bax, gözləyir neçə yığnaq, toy səni!

Bu şeirim Əzizxana,
Ərməğan Əzizxana,
Doxsanında, yüzündə,
Söz qoşum Əzizxana!

***01.V.2018-ci il***

*Telman Budaqlı*

## DUR, SƏN DƏ GƏL

Bir zamanlar çəmənlikdə gəzərdik,
Böyüklərlə kərənti də çəkərdik.
Yorulanda saf sulardan içərdik,
Mən gedirəm, dur sən də gəl, Əzizxan!

Səhər-axşam qoyun- quzu mələşər,
Çəmənlikdə ot otlayıb oynaşar.
Axşamçağı mışıl-mışıl göyşəyər,
Mən gedirəm, dur sən də gəl, Əzizxan!

Bir alim tək tanıyıbdır el səni.
Arzum budur, dağda görüm mən səni,
Gül-çiçəklə qarşılasın kənd səni,
Mən gedirəm, dur sən də gəl, Əzizxan!

Bil darıxır bizsiz dağlar, o ellər,
Yamacları ot qoxulu o çöllər.
Yol gözləyir Xram boyunca buz göllər,
Mən gedirəm, dur sən də gəl, Əzizxan!

Döyrüş bulaq kəndimizin açarı,
Axşam olur ora insan axarı,
Gur bulağı biraz ondan yuxarı.
Mən gedirəm, dur sən də gəl, Əzizxan!

Gedək,qardaş, bu yaz gəzək o eli,
Yağış yağsın qoy axıtsın gur seli.
Görsə bizi heç büdrəməz el beli,
Mən gedirəm, dur sən də gəl, Əzizxan!

Qəlbim yanır Qarabulaq deyəndə,
Kövrəlirəm o el yada düşəndə.
Yaş tökürəm, şehdə yalın gəzəndə,
Mən gedirəm, dur sən də gəl, Əzizxan!

Getməsək də, bil el bizi izləyir,
Dağ başında o tək armud gözləyir.
Ahılların incə qəlbi sızlayır,
Mən gedirəm, dur sən də gəl, Əzizxan!

Biz getməsək, yada salmaz el bizi,
Xoş sözlərlə qarşılamaz el bizi,
Tez-tez getsək, bil, unutmaz el bizi.
Mən gedirəm, dur sən də gəl, Əzizxan!

***İnqilab İsaq***

*Görkəmli Qorqudşünas alim*
*Əzizxan Tanrıverdiyə*

## QOS-QOCA DÜNYA...

Gəlimli-gedimlidi..., əzəl-axır bu dünya
Əlimiz əlindədir hara baxır, bu dünya
Bir körpə qədəmidi, dostum, axı bu dünya
Qos-qoca qırışlara indi nə söyləyək bəs?

Ruh-könül savaşıyıq arıyla çiçək kimi,
Doğulandan yolçuyuq taleyə ürək kimi,
Tanrı payı sevdalar, duyğular ipək kimi,
Qos-qoca qırışlara indi nə söyləyək bəs?

Ərkimiz dədə ərki, gündoğana bəxtimiz,
Dua bildik söz kimi sözə dönən bəxti biz,
Otürdükcə bu ömrü dəyrmanlıq vaxtı biz,
Qos-qoca qırışlara indi nə söyləyək bəs?

Könül ocaq yeridi – yurd, yuva ünvanları,
Bu addan çəkinməyə, bu odu qıyan barı,
Sinəmizin odudu Nuh-əyyam qiyamları,
Qos-qoca qırışlara indi nə söyləyək bəs?

Zülmətin əzabları yenə də ah içində,
Boğuluruq hələ də, nahaq günah içində,
Görüş yerimiz durur, ancaq sabah içində,
Qos-qoca qırışlara indi nə söyləyək bəs?

Kök-budaq can bir olsa, ildırım qorxu çəkər,
Dərd oyaq olmayanda torpağı yuxu çəkər,
Var olan bu dünyanı axır ki, yoxu çəkər,
Qos-qoca qırışlara indi nə söyləyək bəs?

***Şəhriyar Bəhmənov***
***magistrant***

## MÜƏLLİMİM ƏZİZXAN!

"Kitabi-Dədə Qorqud" hər kəlməsi, hər sözü
Onun da var elmdə öz imzası, öz izi
Həmişə yol göstərir, həvəsləndirir bizi
Hamıya can yandıran müəllimim Əzizxan!

"Kitabi-Dədə Qorqud" onun üçün zər kimi,
Çalışır üzərində mahir bir zərgər kimi
Yetişdirir gələcək müəllimi, alimi
Neçə ildir qoyur can müəllimim Əzizxan!

Nəsiminin dilini, Xətainin dilini,
Öyrədir Kaşğarini, öyrədir Füzulini,
Xarici ölkələrdə təmsil edir elini,
Unutmaz Azərbaycan müəllimim Əzizxan!

Köhnə uğurlarına yenilərini qatsın,
Yenə tələbələrdə elmə maraq oyatsın,
Altmış yaş nədir ki, inşallah yüzə çatsın.
Ömür versin Yaradan, müəllimim Əzizxan!

## MÜNDƏRİCAT

**ƏZİZXAN VƏLİ OĞLU TANRIVERDİNİN QISA TƏRCÜMEYİ-HALI ........ 3**

***ÇAP OLUNMUŞ ƏSƏRLƏRİ***

**Monoqrafiyaları ........ 5**

**Dərslik və dərs vəsaitləri ........ 6**

**Tərtib etdiyi kitablar ........ 7**

**Məqalələri ........ 7**

**Haqqında yazılmış əsərlər ........ 21**

**a) kitablar ........ 21**

**b) məqalələr ........ 21**

**Rəy verdiyi kitablar ........ 32**

**Elmi məsləhətçisi olduğu kitablar ........ 37**

**Redaktoru olduğu kitablar ........ 37**

**Opponenti olduğu dissertasiyalar ........ 41**

**Rəhbərlik etdiyi dissertant və doktorantlar ........ 43**

**Redaksiya heyətinin üzvü ........ 43**

**Müdafiə və ekspert şuralarında təmsil olunması ........ 43**

**Əzizxan Tanrıverdi haqqında görkəmli şəxsiyyətlərin söylədiklərindən ........ 45**

Süleyman Demirel ........ 45

Э.Р.Тенишев ........ 45

Ismayıl Şıxlı ........................................................ 46
Afad Qurbanov ........................................................ 46
Tofiq Hacıyev ........................................................ 47
Zəlimxan Yaqub ........................................................ 47
Nizami Cəfərov ........................................................ 47
Muxtar Kazımov ........................................................ 48
Vaqif Aslanov ........................................................ 48
Şamil Vəliyev ........................................................ 48
Təyyar Salamoğlu ........................................................ 49
Məmməd Qasımov ........................................................ 49
Mədəd Çobanov ........................................................ 50
Abbas Hacıyev ........................................................ 50
Yusif Seyidov ........................................................ 50
Nizami Xudiyev ........................................................ 51
Həsən Balıyev ........................................................ 51
Buludxan Xəlilov ........................................................ 51
Nadir Abdullayev ........................................................ 51
Rəhilə Məhərrəmova ........................................................ 52
Hüseyn İsmayılov ........................................................ 52
Ramazan Qafarlı ........................................................ 52
Məhərrəm Hüseynov ........................................................ 53
Sayalı Sadıqova ........................................................ 53
Nadir Məmmədli ........................................................ 53
Kamil Bəşirov ........................................................ 54

Qara Məşədiyev .................................................................. 54
Ramiz Əskər........................................................................ 54
Seyfəddin Rzasoy................................................................ 54
Mahmud Allahmalı ............................................................. 55
Qüdrət Umudov .................................................................. 55
Şakir Albalıyev ................................................................... 55
Oqtay Rza............................................................................ 55
Pərixanım Soltanqızı ........................................................... 56
Əli Rza Xələfli .................................................................... 56
Təranə Rəhimli.................................................................... 56
Asif Hacıyev ....................................................................... 56
Bilal Həsənli........................................................................ 56

***Haqqında yazılmış yubiley yazıları***

Himalaq Qasımov. Görkəmli dilçi alim, cəfakeş
pedaqoq ................................................................................ 58
Təyyar Salamoğlu. Dədə Əzizxan dünyası,
yaxud “Mehman olmaq”ın çətinliyi, dədəliyin əzəmiliyi .... 61
Vaqif Qurban. Allah ona kamiranlıq bəxş etmişdir ............ 64
Mahirə Hüseynova. 60 yaşın hesabatı ................................ 67
Qəzənfər Kazimov. Keçmiş böyük nəslin
Yeni nümayəndəsi.Əzizxan Vəli oğlu Tanrıverdi ............... 78
Rafiq Yusifoğlu. Əzizxan Tanrıverdi-60 ............................ 82
Mahmud Allahmanlı. Dost məktubu... Deyə bilmədiklərim

silsiləsindən........................................................................85
Yaqub Babayev. Baharda dost olduğum bahar
nəfəsli insan .......................................................................88
Şöhrət Bədəlov. Azərbaycan dilçilik elminin
əzmkar tədqiqatçısı ............................................................91
Mirvari İsmayılova.Dilçiliyimizin Qorqudşünası
və dil tarixçisi.....................................................................94
Məhərrəm Məmmədli. Dədə Qorqud nurlu alim .................98
Fərrux Rüstəmov.Ağac kökləri ilə yaşar,
insan dostları ilə .................................................................100
Amaliya Murad. Filologiya üzrə elmlər doktoru,
prof. Əzizxan Tanrıverdinin 60 illik yubileyinə
bənövşə ətirli təbriklərim ....................................................104
Bilal Həsənli. Türkologiyaya və qorqudşünaslığa böyük
tövhələr verən alim ...........................................................107
Pəri Paşayeva.Yubiley yaşın mübarək, əziz qardaşım.........111
Elza Alışova Demirdağ. Türk dünyası türkologları Ezizxan
Tanrıverdi............................................................................113
Maya Qasımova. Böyük İNSAN .........................................116
Nabat Cəfərova. Sadə fikrin böyük hikməti ........................119
Vaqif İsrafilov. Zəhmətlə ucalan alim ömrü .......................121
Ayətxan Ziyad (İsgəndərov). 60 yaşın ömür
yoluna saldığı nur................................................................123
Bəhram Cəfəroğlu. Əzizxan Tanrıverdi-60 .........................125

Razim Məmmədov. Mənəvi borcun qiymətli abidəsi.......... 131
Razim Məmmədov. Elimizin və elmimizin Əzizxanı.......... 137
Elşad Abışov. Türkoloq-alim Afad Qurbanovun ömur yolu türkoloji düşüncə kontekstində .......................................... 141
Rəhilə Hümmətova. 60 yaşın işığında .............................. 146
Şəhla Əhmədova. Dilçiliyimizin Tanrı vergisi – Əzizxan Tanrıverdi ........................................................ 150
Esmira Fərhad qızı Məmmədova. Yoluma işıq saçan müəllim............................................................. 152
Sevinc Əlizadə. " Bir türk qızından...". .............................. 155
Şəhriyar Bəhmənov."Dədə Qorqud" aşiqi.......................... 158

***Haqqında yazılmış şeirlər***

Oqtay Rza. Qorqud ruhlu sənətkar..................................... 162
Oqtay Rza. Eşq olsun!........................................................ 163
Oqtay Rza. Əzizxan–Qorqudun tərənnümçüsü................... 164
Oqtay Rza.Beyrək ......................................................... 165
Mətləb Nağı. Gözləyir ....................................................... 166
Mətləb Nağı. Olsun............................................................ 167
Mahirə Nağı qızı. Dolandın ................................................ 168
Cəvahir Tanrıverdi. Qorqud ruhlu alim .............................. 169
Cəvahir Tanrıverdi. Gözləyir səni ........................................... 171
Zahid Xəlil. Söz əkdin, çiçək bitdi...................................... 173
Abbas Əmbala. Bayatılar.................................................... 175

Salman Qaralar (Balakişiyev). Qələmi şirəli,
yağlı – Əzizxan ................................................................ 176
Ağasən Bədəlzadə. Əzizxan dostumuza ............................ 177
Məhərrəm Hüseynov. Əzizxan ......................................... 179
Məhərrəm Hüseynov. Dədə Əzizxan ................................. 182
Məhərrəm Hüseynov. On iki ............................................. 184
Vaqif Qurbanov. Asari-məhəbbətlə təbriki-badə,
Bir gözəl ritm ilə olsun ifadə ............................................ 186
Kamil Dərviş Sapand. Arzulardan qüvvət,
güc al, Əzizxan ................................................................ 189
Adil Həsənoğlu.Tanrı verdi ............................................... 190
Nizam Muradoğlu. Boz qurdun ulasın uca dağında ............ 191
Məhəbbət Nizam. Əzizxana sirr söylədi Qorqudum ............ 192
Qüdrət Umudlu. Dosta ərməğan ........................................ 195
Telman Budaqlı. Dur, sən də gəl ....................................... 197
İnqilab İsaq. Qos-qoca dünya ............................................ 198
Şəhriyar Bəhmənov.Müəllimim Əzizxan ........................... 199

*«Elm və təhsil»* **nəşriyyatının direktoru:**
*professor* **Nadir MƏMMƏDLİ**

**Üz qabığının dizayneri: Zahid Məmmədov**
**Tekniki redaktor: Rövşanə Nizamiqızı**

Çapa imzalanmış **16.10.2018**
Şərti çap vərəqi **13.** Sifariş № **205**
Kağız formatı **60x84 1/16.** Tiraj **300**

*Kitab* ***«Elm və təhsil»*** *nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*